Xalqın qəzeti!

# Xalq qəzeti

№ 04 (30973) 9 yanvar 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycanda “yaşıl enerji” inqilabı uğurla davam edir

## Bakıda “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi



**Yanvarın 8-də Bakıda, “Gülüstan” sarayında Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış etdi.**

### Prezident İlham Əliyevin çıxışı

**– Hörmətli xanımlar və cənablar!**
**Hörmətli qonaqlar!**

Sizin hamınızı ürəkdən salamlayıram. Bu gün ölkəmizin həyatında əlamətdar bir gündür. “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının istismara verilməsini qeyd edirik. Bu, çox önəmli hadisədir. Ölkəmizin enerji potensialını gücləndirəcək stansiya bu gün artıq fəaliyyətə başlayır. Əminəm ki, 240 meqavat gücündə stansiya ölkəmizin ümumi inkişafına öz töhfəsini verəcəkdir.

Mən yaxşı xatırlayıram ki, düz dörd il bundan əvvəl - 2022-ci ilin yanvar ayında bu salonda bu stansiyanın təməlini qoymuşduq. Bu illər ərzində fəal iş aparılmışdır və bu gün biz bu gözəl hadisəni birlikdə qeyd edirik. İlk növbədə, bu stansiyanın tikintisində əməyi keçmiş bütün insanlara, şirkətlərə təşəkkürümü bildirmək istəyirəm, ilk növbədə, investor olan “ACWA Power” şirkətinə, onun rəhbərliyinə. Bu, “ACWA Power” tərəfindən Azərbaycanda inşa edilmiş birinci bərpaolunan elektrik stansiyasıdır, ancaq sonuncu deyil. Şirkətin daha böyük planları var və Azərbaycan dövləti bu planları tam dəstəkləyir. Onu da bildirməliyəm ki, “ACWA Power” şirkəti bu sahədə dünyada aparıcı şirkətlərdən biridir və eyni zamanda, Azərbaycan qurumları ilə əməkdaşlıq əsasında yeni layihələrin icra edilməsində maraqlıdır. O cümlədən ölkəmizdə ilk dəfə inşa ediləcək Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsini də yenə də bu şirkət investor kimi icra edəcəkdir.

*(ardı 2-ci səhifədə)*

## Odlar yurdu regionun enerji hasilatı lideridir



Səhifə ⇨ 9

## Pis nümunə tez yoluxur



Səhifə ⇨ 5

## Gerçəkliyə söykənən tərəfdaşlıq



Səhifə ⇨ 6

## Qərbi Balkanlar Avropaya qovuşma yolunda



Səhifə ⇨ 6

## Hərtərəfli tərəqqi Azərbaycanın dünya düzənində mövqeyini möhkəmləndirir



Səhifə ⇨ 12

## Müstəqil dövlətin çoxyönlü xarici siyasət strategiyası

**Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi 2025-ci ilin Azərbaycan xarici siyasəti baxımından ölkənin beynəlxalq sistemdə tutduğu mövqenin keyfiyyət transformasiyasını nümayiş etdirən siyasi diaqnozdur. Dövlət başçısının vurğuladığı beş əsas istiqamət, əslində, vahid strateji xəttin müxtəlif təzahürləridir: bağlantı siyasəti, institusional inteqrasiya, çoxvektorlu balans və legitimlik istehsalı.**

Strateji xəttin ilk və ən fundamental təzahürü Vaşinqtondan gələn siyasi siqnalın yaratdığı geosiyasi rezonans və Azərbaycanın çoxvektorlu tərəfdaşlıq modelinin yeni mərhələyə daxil olmasıdır. Prezident İlham Əliyevin müsahibəsində toxunduğu Strateji Tərəfdaşlıq Xartiyası ətrafında formalaşan diplomatik dinamika Azərbaycanın beynəlxalq legitimliyinin yeni mərhələyə keçməsinin göstəricisidir. Dövlət başçısının vurğuladığı kimi, Prezident Trampla Strateji İşçi Qrupunun yaradılması barədə Anlaşma Memorandumunun imzalanmasından dərhal sonra Avropanın bir neçə aparıcı dövləti Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinin qurulması təşəbbüsü ilə çıxış edib.

*(ardı 7-ci səhifədə)*

## II Qaregin Sarkisyanın taleyini yaşayacaqmı?

### *Paşinyan 2018-ci ildəki ssenarinin təkrarlanacağına əmindir*

**Ermənistanın baş naziri Nikol Paşinyan dünən növbəti dəfə bütün ermənilərin patriarxı, katolikos II Qareginin istefa verməli olduğunu bildirib. O, hökumətin iclasından sonra jurnalistlər üçün keçirdiyi brifinq zamanı deyib: “Ktriç Nersisyan (II Qareginin dünyəvi adı–red.) Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan kimi istefa verməyə məcbur olacaq.**



Qeyd edək ki, bu günlərdə katolikos II Qareginin Erməni Apostol Kilsəsinin rəhbərliyindən imtina etmək niyyətində olmadığı barədə açıqlaması yayılıb. Əslində, Paşinyan da bu açıqlamaya münasibət bildirmiş olub: “Deyirlər ki, Ktriç Nersisyanın getmək niyyəti yoxdur. Biz onun niyyətini dəyişməsini təmin etməyə hazırlaşırıq. Biz onun fikrini dəyişməsinə əmin olacağıq. Heç kimin getmək niyyəti yoxdur. Serj Sarkisyanın da vəzifəsindən ayrılmaq niyyəti yox idi, amma o, getməli idi və buna məcbur edildi. Eyni hal Ktriç Nersisyan üçün də keçərlidir. Biz onu getməyə məcbur edəcəyik”. N.Paşinyan onu da bildirib ki, katolikosun vəzifəsindən kənarlaşdırılması prosesi şəffaf, xristian tolerantlığı və sevgisi ilə dolu olmalıdır: “Biz bunu əvvəllər etdiyimiz kimi, sarsıntısız, xristian səbri və sevgi ilə edəcəyik”.

*(ardı 8-ci səhifədə)*



## İki qütb, tək hədəf

Səhifə ⇨ 5

# Bakıda “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi

*(əvvəli 1-ci səhifədə)*



Bu stansiyanın tikintisində baş podratçı kimi iştirak edən “Power China” şirkətinin fəaliyyətini qeyd etməliyəm. Bu şirkət bu layihədə podratçı kimi iştirak edir, ancaq digər layihələrdə, o cümlədən investor kimi iştirak edəcək. Əminəm ki, bu şirkətin nəzərdə tutduğu bütün planları Azərbaycanda həyata keçəcəkdir.

Təbii ki, Azərbaycan energetiklərinin əməyini qiymətləndirməliyəm. Çünki son illər ərzində ölkəmizdə yeni generasiya güclərinin istismara verilməsi həm çox mürəkkəb, həm məsuliyyətli bir prosesdir. O cümlədən bərpaolunan enerji növlərinin böyük həcmdə ümumi enerji sistemimizə inteqrasiya etməsi də, əlbəttə ki, böyük peşəkarlıq tələb edir, böyük vəsait tələb edir. Nəzərə alsaq ki, bundan sonrakı illərdə bərpaolunan enerji stansiyalarının Azərbaycanda tikintisi çox geniş vüsət alacaq, əlbəttə, Azərbaycan energetiklərinin fəaliyyəti daim yüksək səviyyədə olmalıdır. Yəni burada biz çox uğurlu beynəlxalq əməkdaşlıq nümunəsini görürük. Onu da bildirməliyəm ki, bundan sonra bərpaolunan enerji növlərinin yaradılması ilə daha çox xarici investorlar məşğul olacaqlar. Halbuki Azərbaycan şirkətləri də bu məsələyə maraq göstərməyə başlamışlar və artıq bir neçə Günəş elektrik stansiyasının tikintisinə də başlanılmışdır.

Bütövlükdə deyə bilərəm ki, Azərbaycanda enerji sisteminin müasirləşdirilməsi, modernləşdirilməsi, inkişafı son illər ərzində əsas prioritetlərdən biri kimi qəbul edilmişdir. Demək olar ki, son 20 il ərzində bizim enerji sistemimiz, yəni generasiya gücləri, böyük dərəcəli yarımstansiyalar və ötürücü xətlər tamamilə yenilənmişdir.

Son 20 il ərzində ölkəmizdə yaradılmış generasiya gücləri bütün əvvəlki dövrlə müqayisədə təxminən üç dəfə artmışdır. Bu gün bizim generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir. Bu, əgər belə demək mümkündürsə, tarixi rekorddur. Ancaq nəzərə alsaq ki, bundan sonra növbəti illər ərzində bir çox yeni bərpaolunan enerji generasiya gücü yaradılacaq, əlbəttə ki, bu rəqəm daha da artacaq və bizə imkan verəcək ki, həm artan daxili tələbatı lazımi səviyyədə təmin edək, həm də elektrik enerjisini daha böyük həcmdə ixrac edək.

Onu da bildirməliyəm ki, keçən il Mingəçevirdə yeni elektrik stansiyasının açılışını qeyd edərkən bir daha əmin olduq ki, Azərbaycanda bu iki proses, yəni ənənəvi generasiya gücləri və bərpaolunan generasiya gücləri paralel şəkildə aparılmalıdır. Ancaq o təqdirdə biz istədiyimiz nəticəyə nail ola bilərik. Keçən il Mingəçevirdə istismara verilmiş ənənəvi elektrik stansiyasının generasiya gücü təxminən 2000 meqavata bərabərdir və bu gün Azərbaycan enerji təminatı, enerji təhlükəsizliyi nöqteyi-nəzərindən özünü çox rahat hiss edir. Bu yaxınlarda 230 meqavat gücündə Günəş elektrik stansiyası istismara verilmişdir. Bu gün 240 meqavat gücündə külək elektrik stansiyası, işğaldan azad edilmiş ərazilərdə - Cəbrayıl rayonunda hazırda üç Günəş elektrik stansiyası inşa edilir. Bu üç stansiyanın ümumi potensialı 340 meqavatdır.

Bu gün ölkəmizin müxtəlif yerlərində bərpaolunan enerji növləri inkişaf edir. Növbəti böyük stansiyaların açılışı Biləsuvarda, Neftçalada, Naxçıvanda, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulur. Bu günə qədər Qaradağ rayonunda açılıb, bu gün Xızı, Abşeron rayonlarında. Yəni Azərbaycanın coğrafi vəziyyəti elədir ki, istənilən bölgədə bərpaolunan enerji növlərini istehsal etmək mümkündür. Mən hələ Xəzər dənizinin potensialını demirəm. Xəzər dənizinin Azərbaycan sektorundakı külək potensialı beynəlxalq qiymətləndirməyə görə, 157 giqavat səviyyəsindədir. Yəni növbəti illərdə artıq bu proses Azərbaycanda geniş vüsət alacaq. Azərbaycan bölgənin çox etibarlı və böyük elektrik generasiya gücünə malik ölkəsi olacaq. Mən buna şübhə etmirəm. Ona görə xarici investorları həm bu sahəyə, həm də böyük həcmdə elektrik enerjisi tələb edən digər sahələrə dəvət edirəm. Xüsusilə süni intellekt, data mərkəzlərinin yaradılması və böyük enerji gücünə tələbat olan digər sahələrə investisiya qoymağa dəvət edirəm. O cümlədən Azərbaycan şirkətlərini də.

Ölkəmizdə gözəl investisiya iqlimi vardır. Biz ölkəmizə 300 milyard dollardan çox xarici sərmayə cəlb edə bilmişik. Bu gün ölkəmizin maliyyə vəziyyəti çox müsbətdir. Mən bu yaxınlarda bu məsələ ilə bağlı geniş danışmışam. Sadəcə olaraq, onu bildirməliyəm ki, bizim bu sahədə apardığımız islahatlar, əldə edilmiş uğurlar dünyanın aparıcı reytinq agentlikləri tərəfindən də qiymətləndirilir. Təsadüfi deyil ki, bu gün bizim kredit reytinqimiz daha da artırılıb, investisiya və müsbət proqnozu olan reytinq səviyyəsinə qaldırılıb.

Bizim xarici borcumuz çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun təqribən 6 faizindən bir qədər çoxdur. Valyuta ehtiyatlarımız xarici borcu 16-17 dəfə üstələyir və bu göstəriciyə görə, Azərbaycan dünya miqyasında aparıcı ölkələr sırasındadır. Yəni bütün bu və başqa amillər deməyə əsas verir ki, Azərbaycana qoyulan sərmayə xeyir gətirəcək, mənfəət gətirəcək. Bu gün Azərbaycan sərmayə qoyuluşu üçün çox gözəl bir məkandır. Ölkəmizdə siyasi, iqtisadi və sosial sabitlik hökm sürür. Beş ildir ki, ölkəmiz rəsmən sülh şəraitində yaşayır, ölkəmizdə genişmiqyaslı quruculuq işləri aparılır. Ona görə bugünkü mərasimin timsalında xarici şirkətlərin bizə olan inamını da görürük və bu inam tam əsaslıdır.

Gələcək planlarla bağlı. Nəzərə alsaq ki, bizdə bərpaolunan enerji potensialı çox artacaq, əlbəttə, biz bu enerjini saxlamaq üçün infrastruktur yaratmalıyıq. Bu məqsədlə ölkəmizdə tarixdə ilk dəfə olaraq Batareya Enerji Saxlanc Sistemi də yaradılır. Birinci layihə 250 meqavatlıqdır. Bunu “AzərEnerji” öz vəsaiti hesabına icra edir. Ancaq bizim artan potensialımız tələb edəcək ki, belə Batareya Enerji Saxlanc sistemlərinin sayı daha da çoxalsın və mən xarici investorları da bu işə dəvət edirəm.

Generasiya gücləri ilə bağlı isə təkcə bunu demək kifayətdir ki, imzalanmış kontraktlar əsasında 2030-cu ilə qədər altı, 2032-ci ilə qədər isə, ümumiyyətlə, 8 giqavat gücündə külək və Günəş elektrik stansiyaları inşa ediləcək. Əgər biz su elektrik stansiyalarının potensialını əlavə etsək, bizim potensialımız təbii ki, daha da böyüyəcək. Biz son beş il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət vəsaiti hesabına 40-a yaxın kiçik su elektrik stansiyası inşa etmişik. Bu gün onların ümumi potensialı 300 meqavatdan çoxdur.

Azad edilmiş ərazilərin potensial su elektrik stansiyalarının xəritəsi də tərtib edilib və ancaq o bölgədə biz təqribən 500, bəlkə də 600 meqavat gücündə kiçik su elektrik stansiyalarını inşa edəcəyik. Demək olar ki, bunun yarısı artıq hazırdır və bütün ölkə, o cümlədən azad edilmiş ərazilər vahid şəbəkə ilə birləşdirilib və enerji axınının istənilən istiqamətə göndərilməsi, qəbul edilməsi də təmin olunubdur.

Bu gün isə biz bu gözəl hadisəni qeyd etməklə həm görülmüş işlərə bir növ yekun vururuq və ən əsası gələcək planlarla bağlı da öz baxışlarımızı bölüşürük. Çünki yenə də deyirəm, Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması xarici investorlar tərəfindən həyata keçirilən genişmiqyaslı layihələrdir. Bu layihələrə bu günə qədər 100 milyonlarla dollar vəsait qoyulub. Mən bir daha həm xarici, həm yerli investorların fəaliyyətini bu qərara görə qiymətləndirirəm və onlara bir daha deyirəm ki, Azərbaycana sərmayə qoyun. Azərbaycan dövləti xarici sərmayələri daim qoruyur, bizim bir çox neft kontraktlarımız artıq uzun illərdir icra edilir və qəbul edilmiş qərarlarda, kontraktlarda bir dənə də olsun nəinki paraqraf, nəinki maddə, hətta bir söz də dəyişilmir və dəyişilməyəcək. Bu da xarici investorları ölkəmizə cəlb etmək üçün çox vacib bir amildir. Çünki Azərbaycan etibarlı dövlətdir. Sözümüz imzamız qədər dəyərlidir və qanunidir.

Bütövlükdə energetika sahəsində gedən proseslərə nəzər saldıqda görürük ki, bu gün bəlkə də enerji təhlükəsizliyi məsələləri daha qabarıq şəkildə ortaya çıxır. Biz uzun illərdir bu istiqamətdə fəaliyyət göstəririk. Bizim neft ixracımız, qaz ixracımız, neft məhsullarının ixracı, elektrik enerjisinin ixracı, neft-kimya məhsullarının, gübrələrin ixracı bu gün bir çox ölkələr üçün, onların enerji təhlükəsizliyini təmin etmək üçün imkan yaradır.



Azərbaycan burada çox məsuliyyətli və etibarlı tərəfdaş kimi özünü göstərir, dünya miqyasında gözəl imic və etibarlı tərəfdaş adı qazanmışdır.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm. Stansiyanın fəaliyyətinə uğurlar arzulayıram. Sağ olun.

*

**Səudiyyə Ərəbistanı Krallığının energetika nazirinin müavini Nasser Əl-Qahtani çıxış edərək dedi:**



– Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Zati-aliləri Prezident İlham Əliyevin iştirakı ilə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının bu gün açılışında sizinlə olmaq şərəfdir.

Bərpaolunan enerji sahəsində bu aparıcı layihə Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan Respublikası arasında tərəfdaşlığın gücünü və dərinliyini nümayiş etdirir. Krallıq bunları, bu tərəfdaşlığı xüsusən energetika sahəsində uzunmüddətli strateji münasibətlər kimi görür. Tərəfdaşlığımız daha geniş, sistemli əməkdaşlığa doğru fərdi layihələrin hüdudlarını keçir. Mövcud çərçivə sazişlərində əlavə külək gücləri, o cümlədən elektrik enerji şəbəkəsinin çevikliyini və etibarlığını artırmaq üçün batareyalarda enerji saxlanılması sistemləri əsasında quruda və dənizdə həyata keçiriləcək layihələri nəzərdə tutan uzunmüddətli inkişaf yolu əks olunur. Bu, dayanıqlı energetika sistemlərinin planlaşdırılması və inkişafı sahəsində ümumi öhdəliyimizi göstərir. Əməkdaşlığımız enerji istehsalından əlavə, həmçinin elektrik enerjisinin ötürülməsini, şəbəkənin inteqrasiyasını və kadr hazırlığını əhatə edir. Krallıq enerji stansiyaları sisteminin planlaşdırılması, bərpaolunan enerjinin şəbəkəyə daxil edilməsi və enerjinin ötürülməsi işlərinin inkişafında ekspert biliklərini Azərbaycanla mübadilə etmək üçün ölkənizlə sıx çalışır.

Biz, həmçinin regional enerji təhlükəsizliyini artıra biləcək, təmiz enerjinin daha geniş bazarlara ixracını mümkün edəcək regional interkonnektor təşəbbüsləri, həmçinin yaşıl dəhliz üzrə əməkdaşlıq üçün geniş imkanlar görürük.

Biz, həmçinin gələcək təşəbbüsləri, o cümlədən planlaşdırılan 200 meqavatlıq külək enerjisinin genişləndirilməsi layihəsində enerjinin batareyada tam yığılmasında və nəhayət, regional və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək Xəzərdə külək potensialının qiymətləndirilməsində əldə olunmuş irəliləyişi alqışlayırıq. Bu təşəbbüslər güclü tərəfdaşlıq və etibarlı texniki təməl əsasında Azərbaycanı regional təmiz enerji qovşağına çevirməkdə ümumi məqsədimizin təzahürüdür.

Zati-aliləri, “Xızı-Abşeron” Külək Elektrik Stansiyası layihəsi aydın mesaj verir ki, Səudiyyə Ərəbistanı və Azərbaycan nəinki bugünkü enerji layihələrinin icrasında, o cümlədən dayanıqlı enerji sistemlərinin gələcəyində tərəfdaşdırlar. Burada qarşılıqlı etimad, güclü təsisatlar, həmçinin iqtisadi inkişaf, enerji təhlükəsizliyi və ətraf mühit üzrə məsuliyyət sahələrində ümumi öhdəliklər nəzərdə tutulur.

Səudiyyə Ərəbistanı Krallığının Hökuməti adından mən Azərbaycan Respublikasının Hökumətinə, tərəfdaşlarımıza, həmçinin bu layihənin uğurlu olmasına töhfə vermiş bütün şəxslərə dərin təşəkkürümüzü çatdırıram. Biz gələn illərdə bu əməkdaşlığı daha yüksək səviyyədə davam etdirməyi və tərəfdaşlığımızı inkişaf etdirməyi səmimiyyətlə arzulayırıq. Sağ olun.

* * *

**Sonra Çin Xalq Respublikasının Azərbaycandakı səfiri xanım Lu Mey çıxış edərək dedi:**

– Hörmətli Prezident, Zati-aliləri.

Hörmətli qonaqlar, xanımlar və cənablar, salam, sabahınız xeyir.

240 meqavatlıq “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılışında iştirak etməkdən olduqca məmnunam. Bu, böyük nailiyyətdir və bərpaolunan enerji sektorunda Çin, Azərbaycan və Səudiyyə Ərəbistanının uğurlu əməkdaşlığının bariz nümunəsidir. Mən belə bir mühüm layihənin həyata keçirilməsinə görə Azərbaycandakı Çin səfirliyi adından sizə təbriklərimi çatdırıram. Belə bir mühüm layihənin həyata keçirilməsinə dəstək vermiş bütün



dostlara, yorulmadan çalışan və uğurlar qazanan bütün tərəflərə səmimi təşəkkürümü bildirirəm. Burada Çinin "Power China", Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətlərinə minnətdaram ki, onlar bu inanılmaz uğurun qazanılmasında yorulmaz fəaliyyət göstərmişlər. Yaşıl keçid və dayanıqlı inkişaf həm Çin, həm də Azərbaycan üçün prioritetdir. Hər iki tərəf məhz yaşıl və aşağıkarbonlu inkişaf, enerjinin inkişafı sahəsində Anlaşma Memorandumu imzalamışlar. Azərbaycan COP29 tədbirinə uğurla sədrlik etmişdir və o vaxtdan etibarən yaşıl enerji sahəsində inkişafa sadiq qalır. Bu, həmçinin aparıcı qlobal yaşıl enerjinin inkişafında Azərbaycanın çox mühüm rolunu göstərir.

Çin və Azərbaycan bu gün yaxşı dostlar və etibarlı tərəfdaşlardır. İllər boyu müxtəlif sahələrdə aparılan məhsuldar əməkdaşlıq bizim hərtərəfli münasibətlərimizin inkişafına böyük təkan vermişdir və xalqlarımızın faydasına xidmət edir. Prezident İlham Əliyev ötən il Çinə iki dəfə səfər etmişdir və Sədr Si Cinpin ilə hərtərəfli strateji tərəfdaşlığın məhz qurulması ilə bağlı Birgə Bəyannaməyə imza atmışdır. Beləliklə, iki ölkə arasında münasibətlərdə yeni bir səhifə açılmışdır. Məhz Sədr Si Cinpinin və Prezident İlham Əliyevin birgə rəhbərliyi ilə Çin və Azərbaycan əhatəli strateji tərəfdaşlığı inkişaf etdirir. Bu işlər sürətlə gedir. Bu, siyasi qarşılıqlı iradəyə əsaslanır və bizim praqmatik əməkdaşlığımız tarixən ən yüksək səviyyəyə çatmışdır. Məhz ikitərəfli iqtisadi-ticari əməkdaşlığımızın miqyasına gəldikdə, bu gün o davam edir, infrastruktur, yaşıl enerji, rəqəmsal innovasiyalar və maşınqayırma sahələrinə investisiyalar yatırılır. Biz “Bir kəmər, bir yol” layihəsində də çox yüksək səviyyədə əməkdaşlıq edirik. O cümlədən Çin-Avropa dəmir yolu bağlantısı və Trans-Xəzər dəhlizi istiqamətində işlər sürətlə davam edir və burada Azərbaycanın rolu güclənir.

Prezident İlham Əliyevin ilin yekunları ilə bağlı mətbuata verdiyi müsahibəsində qeyd edildiyi kimi, Çin şirkətləri Azərbaycanda bərpaolunan enerjinin inkişafı sahəsində fəaldırlar və Azərbaycan Çin şirkətlərini strateji tərəfdaş kimi seçib. Bu da onların peşəkarlığı, işinin keyfiyyəti və layihənin sürətlə icra olunması ilə bağlıdır. Bu layihə, əslində, Azərbaycanda həyata keçirilən ilk və çox böyük külək elektrik enerjisi layihəsidir. Bir halda ki, bu artıq istismara verilir, deməli, 300 minə yaxın ailə məhz bundan faydalanacaqdır. Bu, Azərbaycanın, həmçinin regionun səmərəli və davamlı inkişafına dəstək olacaqdır.

Yaşıl inkişaf hər zaman Çində müasirləşmənin bir hissəsi olubdur. Biz artıq XV beşillik planımıza başladığımız bir vaxtda Çin yaşıl enerjinin inkişafını prioritetləşdirən məsələlərə xüsusi diqqət yetirir. Çin iqtisadiyyatı qlobal səviyyədə artır və daha dayanıqlı şəkildə inkişaf edir. Çinin elm və texnologiya sahəsində dayanıqlı şəkildə əldə etdiyi nailiyyətlər bu gün qlobal iqtisadiyyata yeni bir güc gətirir. Ən vacibi isə odur ki, Çinin texnoloji innovasiyası inklüzivdir və hamı üçün açıqdır. Buna görə də biz istərdik ki, Çinin inkişaf imkanlarını da sizinlə bölüşək, Azərbaycanla və Səudiyyə Ərəbistanı ilə mübadilə edək.

*(ardı 3-cü səhifədə)*

# Bakıda "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi

*(əvvəli 2-ci səhifədə)*

Yekun olaraq vacib bir məsələni qeyd edim. 2026-cı ili biz "At İli" kimi qeyd edirik. Çin mədəniyyətində bu, uğur deməkdir. Biz bu ildə Azərbaycana da uğur arzu edirik. Bir halda ki, at varsa və həmin ünvana gəlirsə, deməli, o, özü ilə uğur gətirir. İstərdik ki, Azərbaycanda da uğurlar bol olsun.

Çox sağ olun.

**

**Daha sonra "ACWA Power" şirkətinin təsisçisi və İcraçı direktoru Məhəmməd Əbunəyyan çıxış edərək dedi:**



– Zati-aliləri.

Sizin qarşınızda çıxış etməkdən böyük şərəf və sevinc hissi duyuram. Olduqca mühüm bir layihədə iştirak edirik. Bu layihə Sizin rəhbərliyinizlə həyata keçirildi.

Cənab Prezident, Azərbaycan çox xoşbəxtdir ki, Sizin kimi rəhbəri var. Uzaqgörənliyi ilə seçilən şəxs kimi Siz islahatların necə aparılmasında, inkişafın necə təmin edilməsində, insanların, vətəndaşların həyatının yaxşılaşdırılmasında ən yaxşı nümunəsiniz. Bunlarla ölkəniz çox böyük nailiyyətlərə imza atmışdır. Onlar çox yüksək səviyyəli nəticələrdir və məhz "yaşıl enerji" də bu istiqamətdə inkişaf etmişdir. Bu gün biz artıq başa çatdırılmış işi qeyd edirik və "yaşıl enerji" sahəsində bu addımı atırıq.

İcazənizlə, cənab Prezident, mən əvvəlki dövrə qayıdım. COP29-da Siz çox mühüm bir çıxış etdiniz. Müxtəlif tərəflər müəyyən strategiyalar haqqında danışırdılar, fikirlərini bölüşürdülər. Amma Siz söylədiniz ki, dünya ən yaxşı formada necə inkişaf etməlidir, hansı istiqamətdə getməlidir. Siz qeyd etdiniz ki, bu, məhz müxtəlif enerjilərin ümumi kombinasiyası sayəsində mümkündür. Düşünürük ki, bu, ümumiyyətlə, Azərbaycanın zəngin ehtiyatları ilə yanaşı, qlobal inkişafa verdiyi çox yaxşı bir töhfə idi. Bu da, əslində, böyük bir üstünlükdür ki, Azərbaycan belə zəngin ehtiyatlara malikdir. Siz öz açılış nitqinizdə bunu qeyd etdiniz və məhz bir neçə giqavatlıq güclər haqqında danışdınız.

Cənab Prezident, Siz bu planı müəyyən etdiniz. Siz ölkənizdə həmin bu ekosistemi yaradırsınız. Əslində, bu addımları atmaqla, bu işləri görməklə Siz Azərbaycana gələn hər bir xarici sərmayədar üçün əlverişli mühit yaradır, onların işlərini daha da asanlaşdırırsınız. Buna görə də ölkələrimizin bu qədər sıx münasibətlər qurmasına müvəffəq olursunuz. Ona görə də bizim kimi insanlar Sizin ölkənizə gəldikdən və fəaliyyət göstərdikdən sonra Azərbaycanın nailiyyətlərinin, uğurlarının carçısına çevrilirik. Biz burada - Azərbaycanda ona görəyik ki, Siz çox gözəl rəhbərlik keyfiyyətlərinizi göstərirsiniz və dünyada hər bir kəsin maraqlarına xidmət edəcək vacib qərarlar qəbul edirsiniz. Sizin rəhbərlik etdiyiniz Azərbaycan çox gözəl ölkədir. Azərbaycan xalqı çox qonaqpərvərdir və uğur hər zaman sizinlə olacaqdır.

Cənab Prezident, bu "yaşıl enerji" layihəsi məhz Sizin planınız əsasında həyata keçirildi və gördüyünüz kimi, biz bunu yerlərdə işləyərək reallığa çevirdik. Əlbəttə ki, bu, həmçinin "yaşıl enerji"nin gələcək inkişafı ilə bağlı məsələdir.

Mən çox əminəm ki, Azərbaycan böyük ölkə kimi bundan sonra da bir tərəfdən neft və qaz ixracatçısı, digər tərəfdən "yaşıl enerji" ixracatçısı olacaqdır. Buna görə də kralımızın və şahzadəmizin rəhbərliyi, onların təlimatları ilə bu enerji imkanlarını genişləndiririk və görürük ki, biz dünyada ən iri neft hasilatçısı olmaqla yanaşı, həmçinin "yaşıl enerji" sahəsində də irəlidə gedirik. Cənab Prezident, əlbəttə ki, bu işdə Sizin rəhbərliyiniz çox labüd və lazımlı idi. Biz görürük ki, məhz düzgün rəhbərlik olanda hər bir ölkənin xalqı rifah içində yaşayır və uğurlar qazanılır.

Cənab Prezident, biz bu gün buraya bu layihənin açılışı münasibətilə gəldik. Biz buraya gəldik, öz uğurlarımızı bölüşdük, bütün məsələləri həll etdik. Cənab Prezident, Siz öz rəhbərliyinizlə bizi çox şərəfləndirdiniz. Biz hamımız bir araya gəldik, layihə çərçivəsində çalışdıq, əl-ələ verdik ki, bu uğur əldə olunsun və bu gün həmin uğur artıq göz qabağındadır. Biz onu burada qeyd edirik. Bu, bizim tərəfdaşlığımızın və nümunəvi işgüzar münasibətlərimizin yaxşı bir göstəricisidir. Energetika Nazirliyinin bu işdə bizim etibarlı tərəfdaşımız olmağından çox məmnunuq.

Cənab Prezident, Sizə təşəkkürümüzü bildiririk. O cümlədən Çin şirkətlərinə minnətdarıq ki, onlar da bizimlə birgə işlədilər. Mən, həmçinin Azərbaycan şirkətlərinə də minnətdarlığımı bildirirəm. Onlar da təchizat zəncirində bizə dəstək verdilər, digər xidmətləri göstərdilər. Cənab Prezident, biz "ACWA Power" şirkəti olaraq şahzadəmizin və energetika nazirimizin rəhbərliyi ilə sizin müəyyənləşdirdiyiniz planları həyata keçirdik və əlimizdən gələni edəcəyik ki, bütün bu texnologiyalar burada tətbiq edilsin. Çünki Sizin rəhbərliyinizlə Azərbaycan strateji baxımdan irəliyə doğru getməlidir. Bununla bağlı bizim məhdudiyyətlərimiz yoxdur və planlarımız davam edir. Çünki ölkələrimizin gözəl rəhbərləri var və cənab Prezident, biz xoşbəxtik ki, burada - Azərbaycandayıq. Biz xoşbəxtik ki, Siz bizə etimad göstərmisiniz. Siz bizə bu fürsəti yaratdınız. Siz bizə öz dəstəyinizi göstərdiniz.

Biz, həmçinin burada duzsuzlaşdırma layihəsi ilə bağlı məsələləri də müəyyən etdik. Qeyd etdik ki, bu da bizim növbəti gözəl layihəmiz ola bilər. Biz bu nadir layihəni Xəzər dənizində icra edəcəyik. Dünyada bir çox ölkələr bu kimi layihələri hələ həyata keçirməyib.

Cənab Prezident, Siz, həmçinin su ehtiyatlarının təhlükəsizliyi haqqında düşünürsünüz. Bu haqda hələ heç bir tərəf düşünmür. Lakin biz buradayıq, biz sizin ölkənizi və xalqınızı sevirik. Sizə hər bir məsələdə uğurlar arzu edirik. İstərdik ki, bu planlar reallığa çevrilsin, hətta hələ digər tərəflərin görmədiyi, hazırlaşmadığı bu planları, bu işləri Sizinlə birgə həyata keçirək və hər hansı bir böhrandan sığortalanaq. Təbii ki, bilirik, Azərbaycanı bu gün bu gözəl vəziyyətdə saxlayan məhz Sizsiniz. Sizin rəhbərliyiniz nəinki bu region üçün, bütün dünya üçün ən yaxşı nümunədir. Siz göstərirsiniz ki, uğur uğurun üzərində dayanır. Siz ölkəniz, xalqınız üçün çalışırsınız. Biz Sizə minnətdarıq.

Cənab Prezident, təşəkkür edirik ki, bu gün bu tədbirdə Sizinlə olmaq fürsətini bizə yaratdınız. Təşəkkür edirik ki, bizimləsiniz və arzu edirik ki, bundan sonra da biz digər layihələrin həyata keçirilməsində uğurları birlikdə qeyd edək. Azərbaycanla tərəfdaşlıqdan və uğurlu əməkdaşlıqdan qürur hissi duyuruq.

*

Daha sonra "Xızı-Abşeron" Külək Elektrik Stansiyası layihəsi haqqında qısa videoçarx nümayiş olunub.

*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və "ACWA Power" şirkətinin təsisçisi və İcraçı direktoru Məhəmməd Əbunəyyan 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasını işə saldılar.

*

Qeyd edək ki, bu stansiyanın tikintisi üçün Abşeron rayonunda 14,2, Xızı rayonunda isə 22,6 hektar olmaqla, ümumilikdə 37 hektara yaxın torpaq sahəsi bərpaolunan enerji mənbələrinin ərazisi müəyyən edilib. Layihə üzrə burada hər biri 6,5 MVt olan ümumilikdə 37, o cümlədən Abşeronda 12, Xızıda 25 turbin, həmçinin ölçü-müşahidə stansiyaları, quşların mühafizəsi sistemləri quraşdırılıb. Layihənin icrasına təxminən 340 milyon ABŞ dolları xarici investisiya yönəldilib. Stansiyanın illik enerji istehsalı həcmi təqribən 1 milyard kilovat-saat nəzərdə tutulur ki, bunun da nəticəsində 220 milyon kubmetr təbii qaza qənaət olunacaq və 400 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Layihənin baş podratçısı Çinin "Power China Group"un törəmə şirkəti olan "Power China Huadong Engineering Co., Ltd."dir.

*

Sonda birgə foto çəkdirildi.

***AZƏRTAC***








# “Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 avqust tarixli 144 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 avqust tarixli 144 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 620 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1** 1-ci hissə üzrə:

1.1. birinci abzasda “aşağıdakı dövlət orqanlarına” sözləri “aşağıdakılara” sözü ilə əvəz edilsin.

1.2. 1.1-ci və 1.2-ci bəndlər müvafiq olaraq 1.2-ci və 1.3-cü bəndlər hesab olunsun və aşağıdakı məzmunda 1.1-ci bənd əlavə edilsin:

“1.1. Azərbaycan Respublikasının Prezidentinə:

1.1.1.kredit təşkilatının yenidən təşkili və ləğvi;”.

1.3. 1.2.1-ci yarımbəndə “kredit” sözündən əvvəl “Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla,” sözləri əlavə edilsin.

**2** 2-ci hissədə “1.1-ci” sözləri “1.2-ci” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 yanvar 2026-cı il**

# “Bəzi güc mərkəzləri Mərkəzi Asiyanın azad enerji bazarlarına müstəqil çıxışının olmasında maraqlı deyil”

**Qlobal turbulentlik və artan hibrid təhdidlər fonunda enerji infrastrukturu geosiyasi təzyiqlərin əsas hədəflərindən birinə çevrilir. Qaz kəmərləri, neft terminalları, rəqəmsal idarəetmə sistemləri getdikcə təkcə iqtisadi deyil, həm də siyasi münaqişələrin mərkəzində yer alır. Dünyanın aparıcı oyunçularının maraqlarının kəsişməsində yerləşən Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri üçün enerji dəhlizlərinin dayanıqlılığı məsələsi bu sahə üzrə aparılan müzakirələrin çərçivəsindən xeyli kənara çıxır. Bu gün Qazaxıstan və Azərbaycan neft, qaz və elektrik enerjisi tədarükünün regional enerji xəritəsinin konfiqurasiyasını dəyişə biləcək alternativ marşrutların mühüm həlqələri kimi nəzərdən keçirilir. Lakin marşrutların şaxələndirilməsi qaçılmaz olaraq yeni risklərlə, yəni infrastruktur obyektlərinə fiziki hücumlardan tutmuş kibertəhdidlərə və Xəzər dənizinin həssas ekosistemində ekoloji çağırışlara qədər müşayiət olunur.**

Mövzu ilə bağlı AZƏRTAC-ın suallarını Qazaxıstanın ictimai və ekspert xadimi, enerji siyasəti, ekoloji təhlükəsizlik və vətəndaş cəmiyyətinin inkişafı məsələləri üzrə ixtisaslaşan “Eurasian Expert Council” İctimai Fondunun prezidenti Çingiz Lepsibayev cavablandırıb.



**– Son dövrlər regionda enerji infrastrukturuna qarşı hibrid hücum hallarının müşahidə edildiyini ekspertlər qeyd edirlər. Xüsusilə qaz kəmərlərinə və SOCAR-ın obyektlərinə endirilən zərbələr enerji sabitliyini dolayı yolla sarsıtmaq cəhdi kimi dəyərləndirilir. Qazaxıstan və Azərbaycanın neft-qaz tədarükünü planlaşdıra biləcəyi enerji dəhlizləri üçün bu cür təhdidlərin risklərini necə qiymətləndirirsiniz?**

– Təəssüf ki, qlobal turbulentlik şəraitində enerji infrastrukturuna hücum ehtimalı həqiqətən də yüksək olaraq qalır. Eyni zamanda, bu cür hibrid hücumların gələcəkdə də baş verməyəcəyinə dair heç bir zəmanət yoxdur. Burada maraqlı tərəflərin dairəsi kifayət qədər genişdir. Bu gün Mərkəzi Asiya regionunda bir neçə iri oyunçunun maraqları ciddi şəkildə toqquşur. Ümumilikdə, bir çox xarici güc mərkəzləri üçün Mərkəzi Asiyanın, xüsusilə də Qazaxıstanın azad enerji bazarlarına müstəqil çıxışının olması o qədər də sərfəli deyil. Buna görə də aydın başa düşmək lazımdır ki, Qazaxıstanın ətrafındakı demək olar ki, bütün iri oyunçular bizim maksimal dərəcədə nəzarət altında qalmağımızda və infrastruktur baxımından – istər Rusiya, istər Çin, istərsə də digər marşrutlara – bağlı olmağımızda maraqlıdırlar. Bundan əlavə, biz onların bir çoxu üçün qlobal enerji bazarında rəqibik. Məhz buna görə də bu təhdidlər aradan qalxmayacaq, mövcud siyasi konfiqurasiyadan asılı olmayaraq daim qalacaq. Yaxın illərdə və ya onilliklərdə vəziyyət nisbətən sakitləşsə belə, risk amili qorunub saxlanılacaq. Region materikin mərkəzində yerləşir və bu gün Azərbaycan neft, qaz və Qazaxıstan kimi böyük bir regionda hasil edilən digər resurslar üzrə nəqliyyat imkanlarımızın şaxələndirilməsi üçün ən anlaşılan və məntiqli yollardan biridir.

**– Müasir təhdidlərə həm fiziki hücumlar, həm də SCADA və digər idarəetmə sistemlərinin işini pozmağa yönəlmiş kiberhibrid təsirlər daxildir. Sizin fikrinizcə, regionda enerji infrastrukturu üçün kiberrisklərin qiymətləndirilməsi və monitorinqində ekoloji və vətəndaş təşkilatları hansı rolu oynaya bilər? Azərbaycan da daxil olmaqla bir neçə ölkənin ərazisindən keçən enerji marşrutları üçün müstəqil ekoloji və kibertəhlükəsizlik auditinin məcburi edilməsi zəruridirmi?**

– Şübhəsiz ki, bəli. Enerji infrastrukturu haqqında məlumatların qapalı və qeyri-şəffaf xarakter daşıdığı vəziyyətdən çıxış yollarından biri maksimal sayda müstəqil iştirakçının cəlb edilməsidir. İlk növbədə, ekoloji təşkilatların. Həm Qazaxıstanda, həm də Azərbaycanda hasilat sahələrinin şəffaflığı üzrə ixtisaslaşan kifayət qədər peşəkar ekoloji QHT-lər mövcuddur. Bu, ayrıca və yaxşı inkişaf etmiş beynəlxalq istiqamətdir. Ekoloji monitorinqə nə qədər çox müstəqil müşahidəçi cəlb olunarsa, bir tərəfdən insidentləri operativ şəkildə qeydə almaq və ictimaiyyətə çatdırmaq, digər tərəfdən isə qeyri-rəsmi razılaşmalar üçün imkanları azaltmaq və sahənin ümumi şəffaflıq səviyyəsini artırmaq bir o qədər asan olar. Nəzərə almaq lazımdır ki, bu gün region ölkələrində ictimai rəy hasilat sahələrinin şəffaflığına ciddi şəkildə fokuslanıb. Bu da eyni zamanda həm vətəndaş cəmiyyətinin inkişafına, həm də ekoloji təşkilatların öz peşəkarlıq səviyyəsinin yüksəlməsinə xidmət edir. Üstəlik bu, onilliklərə, hətta yüzilliklərə hesablanmış uzunmüddətli prosesdir. Bundan başqa, dövlətlər beynəlxalq ekoloji təşkilatlarla sistemli dialoq qurmalıdırlar. Bu halda enerji infrastrukturuna istənilən müdaxilə cəhdləri avtomatik olaraq geniş beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə düşəcək. Bu, qlobal gündəmdə hələ “dəbdə olan” və geniş müzakirə edilən region olmayan ərazi üçün xüsusilə vacibdir.

**– Enerji infrastrukturuna qarşı hibrid təhdidlərin artdığı şəraitdə bərpaolunan energetikanın inkişafı və Azərbaycanın iştirakı ilə yaşıl kabel kimi layihələr həssas boru kəməri marşrutlarından asılılığı azaltmağa və enerji təzyiqi risklərini minimuma endirməyə kömək edə bilərmi?**

– Bu gün bərpaolunan energetika, şübhəsiz ki, aktual və populyar mövzudur. Lakin hesab edirəm ki, burada diqqət əsasən bərpaolunan enerji mənbələrinin (BEM) özündən çox, daha praqmatik məsələlərə yönəlməlidir. Birincisi, ölkələrimizdə BEM əsasən hidroenergetikadır və Qazaxıstanda enerji balansında cəmi bir neçə faiz təşkil edir. İkincisi, BEM üzrə demək olar ki, bütün texnologiyalar bizim üçün idxaldır. Nə Qazaxıstan, nə Azərbaycan, nə də Özbəkistan onları sənaye miqyasında istehsal etmir. Bütün bunlar çox bahalıdır: avadanlıq ya Çindən, ya da Qərbi Avropadan gətirilir ki, bu da minlərlə kilometr logistika deməkdir. Bu fonda BEM-dən alınan kilovat-saatın maya dəyəri bizim malik olduğumuz enerji resursları – neft, qaz və son dərəcə ucuz kömürlə müqayisədə tamamilə fərqli görünür. İqtisadiyyat amili heç vaxt aradan qalxmır. Maya dəyərində onlarla, bəzən yüzlərlə dəfə fərq olduğu şəraitdə, BEM-i nə qədər sevsək də, obyektiv reallıq dəyişmir. Buna görə də mən hesab edirəm ki, daha düzgün yanaşma enerji səmərəliliyinə fokuslanmaqdır. Qazaxıstanda biz bu barədə daim danışırıq. Yaşıl kabelə gəldikdə isə, bu kimi bütün layihələr dairəvi iqtisadiyyat prinsipləri əsasında – materialların təkrar emalı imkanı, minimal antropogen təsir və həm tikinti, həm də istismar mərhələsində maksimal enerji səmərəliliyi nəzərə alınmaqla həyata keçirilməlidir. Xüsusilə Xəzər dənizinin kövrək ekosistemi diqqətdə saxlanılmalıdır. Onun akvatoriyasında (və ya hövzəsində) istənilən infrastruktur elə layihələndirilməlidir ki, ekosistemin bərpası mümkün olsun və Xəzər ətrafında yerləşən ölkələrə zərər dəyməsin.

**– Qazaxıstan neftinin Azərbaycan üzərindən tranzitinin artırılmasının Qazaxıstanın dayanıqlı inkişafı və yaşıl gündəliyi baxımından strateji əhəmiyyətini necə qiymətləndirirsiniz?**

– Yaşıl gündəlik baxımından, ümumilikdə fosil yanacağın tədarük marşrutunun istiqamətinin prinsipial əhəmiyyəti yoxdur. Lakin risklərin diversifikasiyası nöqteyi-nəzərindən bu, son dərəcə vacib və düzgün addımdır.

Bütün yumurtaları bir səbətə yığmaq olmaz. Bu layihə hər kəs üçün, həm Qazaxıstan, həm tranzit gəlirləri əldə edən Azərbaycan, həm də Rusiya və Xəzər Boru Kəməri Konsorsiumu üzrə tərəfdaşlar daxil olmaqla beynəlxalq iştirakçılar üçün sərfəlidir. Marşrutların diversifikasiyası bir borudan asılılıqla bağlı riskləri azaldır və nəticə etibarilə bütün sistemin dayanıqlığını artırır.

**– “Qazaxıstan-Azərbaycan-Özbəkistan” üçtərəfli layihəsi çərçivəsində yaşıl kabelin çəkilməsi planlaşdırılır. Azərbaycanın bu layihədə iştirakı regionda BEM-in payının artması baxımından hansı imkanları açır?**

– Mən yaşıl kabel termininə çox ehtiyatla yanaşardım. Bu, daha çox şərti addır. Əgər söhbət fosil yanacaqdan gedirsə, burada yaşıl sözü insanı çaşdıra bilər. Bununla belə, risklərin diversifikasiyası və region iqtisadiyyatının inkişafı baxımından bu, çox yaxşı və zəruri layihədir. Avropa ölkələri də bir günün içində yaşıl olmayıb, belə ki, əvvəlcə iqtisadi və infrastruktur baza formalaşdırıblar. Ölkələrimiz daha varlı və ekoloji baxımdan daha şüurlu olduqdan sonra tam enerji keçidindən danışmaq mümkün olacaq. Hazırda isə infrastrukturun inkişafı gələcək texnoloji dəyişikliklər üçün zəmin yaradır.

**– Bu layihənin Mərkəzi Asiyada təkcə enerji deyil, həm də ekoloji baxımdan əhəmiyyətli əməkdaşlıq nümunəsinə çevrilməsi üçün hansı addımlar atılmalıdır?**

– Bütün tədbirlər ətraf mühitə təsirin minimallaşdırılması, dairəvi iqtisadiyyatın tətbiqi və maksimal enerji səmərəliliyi prizmasından nəzərdən keçirilməlidir. Biz çalışmalıyıq ki, Xəzər dənizi daha min illər boyu həyat qabiliyyətini qorusun. Bu günün iqtisadi maraqları övladlarımızı və nəvələrimizi təmiz dəniz kənarında yaşamaq hüququndan məhrum etməməlidir. Ekologiya abstrakt ideya deyil, insanın sağlam ətraf mühitdə yaşamaq hüququdur.

**– Qazaxıstan neft-qaz sektorunu aktiv şəkildə inkişaf etdirir, eyni zamanda 2060-cı ilə qədər karbon neytrallığına nail olmağı hədəfləyir. Neft ixracı ilə ekoloji öhdəliklər arasında balansı necə görürsünüz?**

– Anlamaq lazımdır ki, biz praktik olaraq neftlə isinmirik. Qazaxıstanın əsas problemi sənayenin təxminən 88 faizini təmin edən kömür generasiyasıdır. Kömür bizdə çox ucuzdur, xüsusilə də hasilatın açıq üsulla aparıldığı Ekibastuzdakı “Boqatır” mədənində. Tarixən formalaşmış enerji sistemi və Mərkəzi Asiya enerji halqası da öz rolunu oynayıb. Qazaxıstanda BEM aktiv inkişaf etdirilir, lakin onlar qeyri-sabitdir və sənayeni tam təmin edə bilmir. Bu fonda məntiqli çıxış yolu atom energetikasıdır. Qazaxıstan dünyada uranın ən böyük istehsalçısıdır, bizdə tam nüvə dövrü və müvafiq texnologiyalar mövcuddur. 2–3 AES-in tikintisi iqlim öhdəlikləri məsələsini həll etməyə və iqtisadiyyatın rəqabət qabiliyyətini qorumağa imkan verəcək.

**– Qazaxıstan və Azərbaycanın hansı birgə proqramları enerji sektorunda şəffaflığı və ekoloji məsuliyyəti artıra bilər?**

– Bunlar birgə qrant fondları, elmi layihələr, Xəzər hövzəsi üzrə ekoloji zərərin rəqəmsallaşdırılması proqramları ola bilər. Məsələn, Xəzər dənizinin ekosisteminin monitorinqi və Xəzər suitisinin qorunması layihələri də buna aiddir. Bizim çoxlu ümumi maraqlarımız və əməkdaşlıq potensialımız var. Energetika sahəsində tam qarşılıqlı anlaşma mövcuddur, lakin ekoloji istiqamətə daha çox diqqət yetirilməlidir. Ekologiya vətəndaşların sağlamlığı, turizmin inkişafı və gələcək nəsillərin həyat keyfiyyətidir.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 1** **7 yanvar 2026-cı il, Bakı şəhəri**

***Təhsil haqqında dövlət sənədlərinin təsvirlərinin və onların verilməsi qaydalarının təsdiq edilməsi və “Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli Qərarının ləğv edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 18 dekabr tarixli 218-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 5 fevral tarixli 1282 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Ali təhsil pilləsinin bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura və rezidentura səviyyələrində təhsil haqqında dövlət sənədlərinin təsvirləri və onların verilməsi Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2** Orta ixtisas təhsili haqqında dövlət sənədlərinin təsvirləri və onların verilməsi Qaydası təsdiq edilsin *(əlavə olunur)*.

**3** Peşə təhsili haqqında dövlət sənədlərinin təsvirləri və onların verilməsi Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**4** Ümumi təhsil haqqında dövlət sənədlərinin təsvirləri və onların verilməsi Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**5** “Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 372, (Cild I); 2025, № 9, maddə 858 ) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 2** **7 yanvar 2026-cı il, Bakı şəhəri**

***“Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası”nın təsdiq edilməsi və “Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli Qərarının ləğv edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 18 dekabr tarixli 218-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 5 fevral tarixli 1282 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2** “Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası”-nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 1, maddə 58, (Cild I); 2025, № 9, maddə 858) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 3** **7 yanvar 2026-cı il, Bakı şəhəri**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş “Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları”nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “İcra haqqında” və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 3 iyun tarixli 209-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 iyun tarixli 424 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 56 (Cild I); 2024, № 4, maddə 440, № 6 (II kitab), maddə 730, № 9, maddə 1090; 2025, № 7, maddə 720) ilə təsdiq edilmiş “Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1** 4.2-ci bənddə “verildikdə” sözü “verildiyi andan dərhal” sözləri ilə əvəz edilsin;

**2** 4.2-1-ci bəndin birinci cümləsinə “yarandıqda,” sözündən sonra “həmin müddətin bitdiyi andan dərhal” sözləri əlavə edilsin;

**3** 4.2-2-ci bəndin birinci cümləsindən “sifarişli poçt göndərişi ilə” sözləri və həmin bəndin ikinci cümləsi çıxarılsın;

**4** 4.7-ci bənddə “Tikinti obyektinin istismarına icazə verildiyi gündən, habelə məlumatlandırma icraatının tətbiq olunduğu tikinti obyektlərinin tikintisinin başa çatması barədə sifarişçi tərəfindən məlumat verildikdən sonra, istismara icazə verən və ya tikinti barədə məlumatlandırılan orqan (qurum) bu Qaydaların 3.1.2-ci yarımbəndində və 4.2-2-ci bəndində nəzərdə tutulmuş sənədləri və məlumatları 5 (beş) iş günü müddətində Reyestrə təqdim edir” sözləri “Tikinti obyektlərinin istismarına icazə verildiyi andan, habelə məlumatlandırma icraatının tətbiq olunduğu tikinti obyektlərinin tikintisinin başa çatması barədə sifarişçi tərəfindən məlumat verildikdən sonra, dərhal bu məlumatların Reyestrə ötürülməsi təmin edilir” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Moldova xəbər portalı: Azərbaycan iqtisadi cəhətdən tamamilə müstəqildir

**Moldovanın aparıcı “Noi.md” xəbər portalında Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibədən əsas sitatları əks etdirən daha bir məqalə dərc edilib.**




Rumın və rus dillərində dərc olunan məqalədə Prezident İlham Əliyevin Azərbaycanın iqtisadi vəziyyətinə dair söylədiyi fikirlər yer alıb.

Qeyd olunub ki, Azərbaycan hakimiyyəti iqtisadiyyatın hazırkı vəziyyətindən razı qala bilər, çünki ölkə iqtisadi cəhətdən tamamilə müstəqildir, heç bir dəstək və kreditdən asılı deyil. Dövlət başçımıza istinadla yazılır ki, Azərbaycan borc almağı tamamilə dayandırıb. İndi Azərbaycanın xarici borcu ən aşağı səviyyəyə düşüb.

Məqalədə həmçinin Prezident İlham Əliyevin fikirlərinə istinadla qeyd olunur ki, bu gün Azərbaycanda iki investisiya proqramı var: biri ənənəvi, digəri isə Qarabağ və Şərqi Zəngəzur üçün. Hər iki proqram yüksək səmərəliliklə, uğurla həyata keçirilir. Azərbaycan Qarabağ və Şərqi Zəngəzur bölgələrində genişmiqyaslı bərpa və tikinti işləri aparır.

Azərbaycan, həmçinin neft hasilatını sabitləşdirmək, təbii qaz hasilatını artırmaq üçün çalışır. Bu, həm də Azərbaycan iqtisadiyyatının böyüməsi üçün əlavə təkan verəcək.

Məqalədə Prezident İlham Əliyevin iqtisadi islahatlara dair digər fikirləri də yer alıb.

# Süni intellekt sahəsində əməkdaşlıq müzakirəsi



**Azərbaycan və İsrail arasında tərəfdaşlığın gündəliyindəki prioritet istiqamətlər, o cümlədən şəhər mobilliyi, nəqliyyatın rəqəmsallaşdırılması, süni intellekt, innovativ sahibkarlıq və startaplara dəstək mexanizmləri, kibertəhlükəsizlik, rəqəmsal bilik və bacarıqlara malik insan kapitalının inkişafı üzrə fəaliyyətin perspektivləri müzakirə edilib.**

Müzakirələr rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov və İsrailin Azərbaycandakı səfiri Ronen Krauszla görüşdə aparılıb.

Görüşdə iki ölkə arasında Birgə Komissiyanın ötən il noyabrın 20-də keçirilmiş 4-cü iclası çərçivəsində müzakirə edilən məsələlər üzrə görülən və planlaşdırılan işlərə dair fikir mübadiləsi aparılıb, İsrailin "Technion" İnstitutu ilə birgə yaradılan Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin, eləcə də ötən ilin dekabr ayında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Azərbaycan Kosmik Agentliyi və İsrail Aerokosmik Sənayesi Korporasiyasının əməkdaşlığı ilə Azərbaycanda təsis edilən "Vistar" Mükəmməllik Mərkəzinin fəaliyyəti barədə məlumat verilib.

***XQ***

# Pis nümunə tez yoluxur

## *Rus cəmiyyətində etnik ayrı-seçkilik meyli nədən qaynaqlanır?*

**Böyük alman mütəfəkkiri, estet-filosof İmmanuel Kantın sözüdür: insanlar vərdiş halını almış hərəkət və davranışlarına görə xəcalət hissi keçirməyi yadırğayırlar. Bu isə rus xalqının zərb-məsəlidir: pis nümunə tez yoluxur”. İnsanın mənfi xüsusiyyətlərindən biri də pis istəklərə asanlıqla təslim olmasıdır. Amma təəssüf ki, o, bir çox hallarda içində oturub onu yönəldən cinə qarşı durmağa özündə güc tapa bilmir. Əksəriyyət bunu heç istəmir də...**



Kənar müşahidəçiyə ilk baxışda elə görünə bilər ki, son vaxtlar Rusiya cəmiyyətində getdikcə artan etnik ayrı-seçkilik meyilləri narahatlıq doğurur. Amma, əslində, reallıq heç də bundan xəbər vermir. Kremlə yaxın siyasi isteblişmentin bəzi nümayəndələrində deyil, artıq sıravi ruslarda müşahidə olunan etnik dözümsüzlük, miqrantlara qarşı arzuolunmaz yanaşma zərərli, təhlükəli təmayüldən xəbər verir. Bu meyilin ünvanı ölkənin qeyri-rus milliyyətindən olan vətəndaşlarıdır. Onların yeganə “günahı” etnik mənşə və soyadları ilə bağlıdır.

Yekaterinburq şəhərində Yeni il bayramı günlərində baş verən olay azğınlığın növbəti təzahürü sayıla bilər. Tükürpədici olay bundan ibarətdir ki, şəhərin Dəmir yolu rayonunun administrasiya rəhbəri Vitali Perşin sosial şəbəkədə total təqib və təhqirlərlə üzləşib. Buna səbəb onun Rusiya vətəndaşı olan Azərbaycan əsilli bir ailənin uşaqlarının Yeni il arzularını yerinə yetirməsi – onlara hədiyyə verməsi olub. Bu barədə şəhər meriyası məlumat yayıb. Deməli, yeni il ərəfəsində Perşin “Arzular ağacı”ndan 3 uşağın istəklərinin yazıldığı şarları seçir. Azyaşlılar skuter, şirniyyat və əl işləri üçün dəst istəyirmiş. Onları sevindirən rayon rəhbəri Azərbaycan əsilli çoxuşaqlı ailə ilə çay süfrəsinə əyləşir, “V Kontakte” sosial şəbəkəsində bu barədə xəbər paylaşır. Buna cavab olaraq sosial şəbəkədə millətçi xarakterli şərhlər və təhqirlərlə müşayiət olunan çirkli kampaniya başladılır.

Bundan sonra müvafiq açıqlama vermək məcburiyyətində qalan meriya azərbaycanlı ailənin 20 ildən çox Rusiya vətəndaşı, çoxuşaqlı ailənin ən kiçik üzvünün isə eşitmə problemli əlil olduğunu yazır. Ailəsinə qarşı həqarəti götürməyən ata hədiyyələri administrasiya rəhbərinə qaytarmaq istəyir. Əsl həngamə bundan sonra başlayır. Məlumat digər sosial media platformalarında, o cümlədən millətçi kanallarda yenidən dərc edilir və hədiyyələrin niyə rus uşaqlarına deyil, “bəzi miqrantlara” verildiyinə dair qəzəbli ultimatumlar səslənir. Meriya rəsmiləri ailəni hədiyyələrin onlarda qalmasına razı sala bilirlər. Yuxarının göstərişi ilə təhqir və təhdid məzmunlu paylaşımlar da sosial şəbəkədən silinir.

Konkret bu hadisənin Rusiya cəmiyyətində etnik ayrı-seçkiliyin, milli zəmində dözməzliyin təhlükəli meylə çevrildiyini deməyə əsas verir. Əgər bu ölkədə hətta uşaqlar üçün nəzərdə tutulan Yeni il hədiyyələri belə etnik nifrət və təzyiqlərə səbəb olursa, bunu nə ilə izah etmək olar? Bu, nə beynəlxalq hüququn tələblərinə, nə də Rusiya və Azərbaycan arasında münasibətlərin miqyasına və xarakterinə uyğundur.

**Milli Məclisin deputatı Elçin Mirzəbəyli** Rusiyada azərbaycanlılara,



eləcə də qeyri-rus və digər xalqlara qarşı mənfi münasibətlə bağlı dedi: “Bu, imperiya təfəkkürü, postsovet dövründə formalaşmış etnik iyerarxiya, təhlükəsizlik ritorikası ilə şərtlənən yanaşmanın məhsuludur. Çoxmillətli dövlət olduğunu iddia edən Rusiya reallıqda bu müxtəlifliyi idarə etməyə borcludur. Sovet İttifaqı dağılandan sonra müstəqillik əldə etmiş keçmiş müttəfiq respublikalardan Rusiyaya gələn xalqlar, o cümlədən azərbaycanlılar, Mərkəzi Asiya türkləri artıq “ikinci növ insanlar” kimi təqdim olunur. Son illər Rusiyada güclənən ultramillətçilik bu prosesin ideoloji əsasını təşkil edir. Dövlətin rəsmi diskursunda “milli təhlükəsizlik” anlayışları ön plana çəkildikcə, qeyri-rus etnik qruplar bu konsepsiyanın əks tərəfində qalır”.

Deputat Rusiya hüquq-mühafizə orqanlarının qeyri-ruslara qarşı aqressiv münasibətini belə izah etdi: “Etnik mənsubiyyət əsasında profilaktik yoxlamalar, səbəbsiz saxlanmalar, zorakılıq halları, sənədlərlə bağlı məsələlərin qəsdən problemə çevrilməsi və rüşvət mexanizmləri bu siyasətin gündəlik təzahürüdür. Bu diskriminasiyanın səbəblərindən biri də daxili sosial-iqtisadi böhranın etnik faktor üzərinə yönəldilməsidir. Rusiya cəmiyyətində yoxsulluq, regionlararası bərabərsizlik, sosial proqramların həyata keçirilməsi ilə bağlı yaranmış çətinliklər və gələcəyə inamsızlıq fonunda narazılıq miqrantlara qarşı yönəlir. Ultramillətçiliyin çoxmillətli Rusiyada doğura biləcəyi nəticələr isə təhlükəlidir. Bir tərəfdən bu siyasət cəmiyyət daxilində etnik qarşıdurmanı dərinləşdirir, digər tərəfdən federativ quruluşun təməl prinsiplərini sarsıdır”.

* * *

Bu hadisə yadımıza ötən ilin yayında hakimiyyətin etnik təqiblərini, Azərbaycan diasporunun üzvlərini saxlayıb işgəncələrə məruz qoymasını salır. Səfərov qardaşlarının ölümü ilə nəticələnən qanlı reydlər həyata keçiriləndə Kremlin buyruqlu “bek-vokalistləri” ilə yanaşı, sıravi rusiyalılar da hökumətin bu qanunsuz hərəkətlərinə qahmar çıxaraq, azərbaycanlılara qarşı təhqir və təqiblərə qoşulmuşdular.

**Mövzu ilə bağlı XQ-yə danışan siyasi şərhçi Azər Həsrət** Rusiyada azərbaycan-



lılara qarşı haqsızlığın, zorakılığın artıq təəccüb doğurmadığını bildirdi: “Rusiyada həmişə qeyri-ruslara qarşı ikili münasibət olub. Cəmiyyətdə qeyri-ruslara etnik nifrəti qızışdıranların məqsədi bəllidir. Amma sıravi rusların bu cür avantüralara getməsinə heç cür haqq qazandırmaq mümkün deyil”.

Sonda onu deməyə əsasımız var ki, Rusiyada azərbaycanlılara və digər qeyri-rus xalqların nümayəndələrinə qarşı diskriminasiya, əslində, Rusiyanı heç də gücləndirmir, əksinə, cəmiyyəti daxildən parçalayır, sosial problemləri daha da dərinləşdirir.

***İmran BƏDİRXALI***
***XQ***

**“Soyuq müharibə”dən sonra formalaşmış təkqütblü dünya nizamının sürətlə erroziyaya uğraması və qlobal hegemonluq uğrunda gedən amansız mübarizə müasir geosiyasətin əsas xarakteristikasıdır. Xüsusilə, Amerika Birləşmiş Ştatları və Çin Xalq Respublikası arasında cərəyan edən ticarət müharibələrindən tutmuş texnoloji rəqabətə, hərbi üstünlükdən ideoloji qarşıdurmaya qədər geniş spektri əhatə edən qlobal “savaş” dünyanın siyasi xəritəsində yeni ayırıcı xətlərin yaranması məsələsini özündə ehtiva edir. Bu tarixi şəraitdə Avrasiya materikinin strateji kəsişmə nöqtəsində qərar tutan, Şərq və Qərb arasında təbii körpü funksiyasını yerinə yetirən Azərbaycanın rolu artmaqdadır. Rəsmi Bakı yürütdüyü praqmatik, milli maraqlara söykənən və müstəqil xarici siyasət kursu sayəsində nəhəng güc mərkəzlərinin qlobal əməkdaşlıq platformasına, enerji təhlükəsizliyinin və nəqliyyat logistikasının əvəzolunmaz qovşağına transformasiya olunur.**

# İki qütb, tək hədəf

## *Milli maraqların qorunmasında Azərbaycan modeli*

ABŞ rəhbərliyi Hind–Sakit okean regionunda yaratdığı ittifaqlar və texnoloji sanksiyalar vasitəsilə Çinin yüksəlişini cilovlamağa çalışarkən, Pekin “Bir kəmər, bir yol” təşəbbüsü, Şanxay Əməkdaşlıq Təşkilatı kimi platformalar üzərindən qlobal Cənub ölkələrini öz ətrafında birləşdirərək alternativ güc mərkəzi formalaşdırır. Belə kəskin qütbləşmə şəraitində coğrafi baxımdan hər iki qütb üçün həyati əhəmiyyət kəsb edən regionlarda yerləşən dövlətlərin üzərinə böyük məsuliyyət düşür. Azərbaycan Prezidenti İlham Əliyevin müəllifi olduğu dövlətçilik strategiyası burada özünün unikallığını və effektivliyini nümayiş etdirir. Rəsmi Bakı sübut edir ki, kiçik və orta ölçülü dövlətlər qlobal güclərin vassalı olmaq məcburiyyətində deyillər. Əksinə, onlar balanslaşdırılmış siyasət və qarşılıqlı faydalı tərəfdaşlıq modeli əsasında beynəlxalq proseslərin gedişatına təsir etmək iqtidarındadırlar.



Azərbaycanın Çin Xalq Respublikası ilə münasibətlərinin inkişaf dinamikası, yuxarıda qeyd olunan tezisin əyani təsdiqidir. Pekin üçün Azərbaycan Avropaya çıxış imkanlarını şaxələndirən “Orta Dəhliz”in (Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) əsas operatorudur. Rusiya–Ukrayna müharibəsi fonunda Şimal marşrutunun sanksiyalar səbəbindən iflic olması və Qırmızı dənizdəki təhlükəsizlik riskləri Çin mallarının Qərb bazarlarına çatdırılmasında Azərbaycan üzərindən keçən marşrutu alternativsiz variant kimi ön plana çıxarıb.

Paralel olaraq Azərbaycanın Qərb dünyası, xüsusilə Amerika Birləşmiş Ştatları ilə münasibətləri də strateji tərəfdaşlıq ruhunda davam edir. Bəzi bədxah dairələrin və lobbi qruplarının yaratmağa çalışdığı süni maneələrə baxmayaraq, real siyasi və strateji zərurətlər Vaşinqtonu Bakı ilə sıx əməkdaşlığa vadar edir. Ağ Ev administrasiyası yaxşı anlayır ki, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu əvəzedilməzdir. Cənub Qaz Dəhlizi layihəsi Avropa İttifaqı ölkələrinin enerji xəritəsini dəyişdirərək Rusiya qazından asılılığın azaldılmasında həlledici rol oynayıb. 2027-ci ilə qədər Azərbaycan qazının Avropaya ixracının ikiqat artırılması və 20 milyard kubmetrə çatdırılması hədəfi Qərbin enerji strategiyasının mühüm tərkib hissəsidir. Bundan əlavə, Xəzər dənizinin nəhəng külək enerjisi potensialının istifadəsi və Qara dənizin dibi ilə çəkiləcək “Yaşıl Enerji Dəhlizi” layihəsi, Azərbaycanı XXI əsrin enerji ixracatçısı kimi yenidən qlobal bazara təqdim edir. Bütün bunlar deməyə əsas verir ki, rəsmi Bakı "sıfır cəm oyunu"ndan imtina edərək hər iki qlobal qütblə milli maraqlara cavab verən səmərəli əməkdaşlıq modelini uğurla reallaşdırır.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursunun ən böyük uğurlarından biri Azərbaycanın qlobal problemlərin müzakirə olunduğu və həll yollarının axtarıldığı beynəlxalq mərkəzə çevrilməsidir. Dövlət başçısının qlobal çağırışlara çevik reaksiyası, strateji hədəfləri dəqiq müəyyənləşdirməsi və milli maraqları qətiyyətlə müdafiə etməsi, Azərbaycanı beynəlxalq münasibətlərin subyektinə çevirmişdir.

Dünyanın nüfuzlu analitik mərkəzlərinin və aparıcı xəbər agentliklərinin Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi son müsahibəsini geniş şəkildə işıqlandırması, orada səsləndirilən mesajları əsaslı şəkildə təhlil etməsi və Azərbaycan liderinin tezislərini qlobal gündəmin manşetinə daşıması rəsmi Bakının beynəlxalq çəkisinin və sözünün qüdrətinin əyani sübutudur. Həmin müsahibədə səsləndirilən fikirlər dünyanın aparıcı paytaxtları üçün nəzərdə tutulmuş strateji yol xəritəsi xarakteri daşıyır. Ekspertlər etiraf edirlər ki, İlham Əliyev müasir dünyada gedən proseslərin nəbzini tutan, gələcək riskləri öncədən görən və onlara qarşı preventiv tədbirlər görən nadir liderlərdəndir.

Geosiyasi təhlil konteksində regionda baş verən proseslərin inkişaf ssenarilərinə nəzər saldıqda, Azərbaycanın yaratdığı yeni reallıqların Cənubi Qafqazın gələcəyini formalaşdırdığı aydın görünür. İkinci Qarabağ müharibəsi və lokal antiterror tədbirlərindən sonra yaranmış vəziyyət regionda uzunmüddətli sülhün və sabitliyin bərqərar olması üçün tarixi şans yaratmışdır. Ermənistanla sülh müqaviləsinin imzalanması prosesi bəzi kənar qüvvələrin, xüsusilə fransız neokolonializminin və erməni diasporunun destruktiv fəaliyyətinə baxmayaraq, Azərbaycanın diktə etdiyi prinsiplər əsasında irəliləyir. Zəngəzur dəhlizinin açılması məsələsi də gec-tez öz həllini tapacaq. Çünki iqtisadi məntiq və nəqliyyat logistikasının qlobal tələbləri bunu zəruri edir. Bu dəhliz, təkcə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməyəcək, eyni zamanda, Çindən Avropaya uzanan Orta Dəhlizin səmərəliliyini artıracaq, Türk dünyasının coğrafi bütövlüyünü təmin edəcəkdir. Türk Dövlətləri Təşkilatının qlobal güc mərkəzinə çevrilməsi prosesində Azərbaycanın oynadığı aparıcı rol xüsusi vurğulanmalıdır.

Qarşıdan gələn dövr üçün proseslərə gəldikdə Azərbaycanın hərbi qüdrətinin artırılması və milli müdafiə sənayesinin inkişafı prioritet istiqamət olaraq qalacaq. Müasir dünyada beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu, güc faktorunun ön plana çıxdığı bir zamanda güclü ordu dövlət müstəqilliyinin yeganə qarantıdır. Türkiyə ilə imzalanmış Şuşa Bəyannaməsi əsasında hərbi əməkdaşlığın dərinləşməsi, Silahlı Qüvvələrin ən müasir texnologiyalarla təchiz olunması və peşəkarlığın artırılması, Azərbaycanın suverenliyinin etibarlı sığortasıdır.

Rəsmi Bakı coğrafi mövqeyinin verdiyi üstünlükləri siyasi zəkaya çevirərək qlobal arenada fəal ölkə statusunu qazanıb. Balanslaşdırılmış xarici siyasət, milli maraqların hər şeydən üstün tutulması və praqmatizm Azərbaycanın uğur formuludur. Azərbaycan həm Qərblə, həm də Şərqlə əməkdaşlıq edir, lakin heç kimin siyasi alətinə çevrilmir. Çinlə strateji tərəfdaşlıq, Qərblə enerji dialoqu, Rusiya ilə qonşuluq münasibətləri və Türk dünyası ilə qardaşlıq əlaqələri tam və düşünülmüş dövlət strategiyasının tərkib hissələridir. Zaman Azərbaycanın xeyrinə işləyir və tarix sübut edir ki, güclü liderə, milli birliyə və aydın hədəflərə malik olan dövlətlər ən çətin sınaqlardan belə üzüağ çıxmağı bacarırlar.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Gerçəkliyə söykənən tərəfdaşlıq

## *Cənubi Qafqazda formalaşan yeni siyasi-iqtisadi mənzərənin görüntüləri*



**Azərbaycanın xarici siyasətində əsas hədəflərdən biri regionda sabitliyin möhkəmləndirilməsi, qonşu ölkələrlə qarşılıqlı faydaya əsaslanan əməkdaşlığın genişləndirilməsidir. Xüsusilə Cənubi Qafqaz kimi mürəkkəb və həssas məkanda bu xətt yalnız ikitərəfli münasibətlər üçün deyil, bütövlükdə regionun təhlükəsizliyi və dayanıqlı inkişafı baxımından əhəmiyyətlidir. Son dövrlər Azərbaycan, Gürcüstan və Ermənistan ətrafında baş verən proseslər yeni regional reallığın formalaşdığını göstərir.**

Azərbaycanın kommunikasiya xətlərinin açılması, yükdaşımaların həyata keçirilməsi və Ermənistanla dolayı iqtisadi əlaqələrin yaranması illərdir səsləndirilən "blokada" iddialarının əsassız olduğunu ortaya qoyur. Bu, Bakının regionda qarşıdurmaya deyil, əməkdaşlığa maraqlı olduğunu nümayiş etdirir.

Məhz bu reallıqlar fonunda ABŞ-ın uzun illər Azərbaycana qarşı tətbiq etdiyi və hüquqi əsası 907-ci düzəlişə dayanan yardım qadağasının aktuallığı ciddi suallar doğurur. Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə vurğuladığı kimi, Tramp administrasiyasının hakimiyyətə qayıdışı Vaşinqton–Bakı münasibətlərində yeni mərhələnin başlanması üçün imkanlar yaradır. Dövlətimizin başçısı haqlı olaraq qeyd edib ki, bu düzəlişin əsaslandırıldığı arqumentlər, o cümlədən Ermənistanın blokadada saxlanılması iddiası mövcud reallığı əks etdirmir. ABŞ-ın Cənubi Qafqazda daha balanslı və rasional siyasət yürütməsinə də mane olur. Onun ləğvi ABŞ-ın yeni regional reallıqları qəbul etməsi ilə yanaşı, Amerika–Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə və bölgədə uzunmüddətli sabitliyin möhkəmlənməsinə real töhfə verə bilər.



* * *

Baş verən hadisələrin fonunda bir neçə il əvvəl mümkün görünməyən proseslər bu gün artıq gündəlik praktikaya çevrilir. Gürcüstan üzərindən Ermənistan istiqamətinə nəqliyyat əlaqələrinin bərpası və genişləndirilməsi bu dəyişikliklərin bariz nümunəsidir. Rəsmi Bakının təşəbbüsü ilə formalaşan bu xəttin 2026-cı ildə də davam etdirilməsi nəzərdə tutulur. Bu isə Azərbaycanın regionda sülh və əməkdaşlıq strategiyasının ardıcıl və uzunmüddətli xarakter daşıdığını göstərir.

Proseslərin konkret təzahürlərindən biri kimi, dünən Güzdək dəmiryol stansiyası və Bakı yük stansiyasından Ermənistana növbəti neft məhsulları tədarükü həyata keçirilib. Sözügedən tədarük çərçivəsində 1 min ton Aİ-92 markalı benzin, 1 min ton dizel yanacağı və 1 min 800 ton Aİ-95 markalı benzin daşınıb.

Xatırladaq ki, ötən ay Azərbaycanın 1 min 300 ton Aİ-95 markalı benzinini daşıyan ilk yük qatarı Bakıdan Ermənistana yola salınmışdı. Bu ixrac sırf kommersiya xarakteri daşıyır və məhsullar beynəlxalq bazar qiymətləri ilə satılır.

Onu da qeyd edək ki, Gürcüstan hökuməti Azərbaycan neft məhsullarının ilk tranzitini Gürcüstan ərazisindən Ermənistana çatdırmaq üçün rüsum və tarif tətbiq etməyib. Sonrakı tranzitlərlə bağlı Gürcüstanla Azərbaycan şirkətləri arasında bazar əsasında tarif razılaşdırılıb. Bu da hər iki tərəfi razı salıb.

Baş verənlər isə regionda iqtisadi praqmatizmin getdikcə ön plana çıxdığını göstərir. Azərbaycan enerji resurslarının ixracında şəffaflığa, iqtisadi əsaslandırmaya və bazar mexanizmlərinə üstünlük verdiyini bir daha nümayiş etdirir. Burada məqsəd təkcə yükdaşımaların həyata keçirilməsi deyil, bütövlükdə Cənubi Qafqaz ölkələri arasında əməkdaşlığın, qarşılıqlı etibarlı tranzit və logistika mühitinin formalaşdırılmasıdır. Neft məhsullarının Gürcüstan üzərindən Ermənistana çatdırılması da məhz bu geniş əməkdaşlıq və tranzit konsepsiyasının tərkib hissəsidir.

Bu addımlar regionun geosiyasi mənzərəsində mühüm dəyişikliklərin siqnalı kimi qiymətləndirilir. Ermənistan üçün isə bu proses enerji təchizatının diversifikasiyası istiqamətində atılan ilk real və praktik addımlardan biridir. Beləliklə, Azərbaycanın Ermənistana neft məhsulları tədarükü sadəcə iqtisadi əməliyyat deyil, eyni zamanda, sülh prosesinə xidmət edən mühüm siyasi və strateji addımdır. Çünki bu, tərəflər arasında etimadın artmasına, iqtisadi normallaşmaya və regional inteqrasiyanın dərinləşməsinə xidmət edir. Ermənistan baş naziri Nikol Paşinyanın qatarın gəlməsini "sülh artıq reallığa çevrilib" kimi qiymətləndirməsi onun sülh gündəliyinin reallaşacağına inamını əks etdirir.

TRIPP kontekstində isə bu yanaşma Cənubi Qafqazda uzunmüddətli sabitlik və əməkdaşlıq ideyasını gücləndirən praktik nümunə kimi çıxış edir. O cümlədən sübut edir ki, davamlı sülhə aparan yol çox vaxt məhz iqtisadi əməkdaşlıqdan başlayır.

**Mövzu ilə bağlı politoloq İlqar Hüseynli** XQ-yə bildirdi ki, müasir dövrdə iqtisadi və siyasi münasibətlərin inkişafı birbaşa logistik imkanların və kommunikasiya xətlərinin genişlənməsi ilə bağlıdır. Onun sözlərinə görə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında nəqliyyat və tranzit sahəsində əməkdaşlığın gücləndirilməsi regiondaxili iqtisadi əlaqələrin intensivləşməsinə, dövlətlərarası münasibətlərin yaxınlaşmasına xidmət edir: "Enerji kimi strateji məhsul üzrə ticarət əlaqəsinin qurulması etimadın bərpasına yönəlmiş real addımdır. Eyni zamanda, siyasi sülhün möhkəmlənməsi üçün şərait yaradır".



Politoloq hesab edir ki, bu cür iqtisadi əməkdaşlıq bütövlükdə Cənubi Qafqazda sülh və sabitliyin təmin olunmasında mühüm rol oynayır: "Dövlət başçımızın qeyd etdiyi kimi, bu gün "blokada" anlayışı mövcud deyil. Əksinə, hazırda Azərbaycan ərazisindən Ermənistana yüklər daşınır, yollar açıqdır və hətta Azərbaycanın neft məhsulları Ermənistana ixrac olunur. Bu faktlar göstərir ki, düzəlişin tətbiqinə səbəb olan arqumentlər artıq qüvvəsini itirib".

Onun sözlərinə görə, beynəlxalq təcrübə göstərir ki, iqtisadi əməkdaşlıq siyasi dialoqun dərinləşməsi və münaqişə risklərinin azalması üçün mühüm zəmin yaradır: "Bu baxımdan neft məhsullarının göndərilməsi sülh prosesinin yalnız bəyanatlar üzərində deyil, real addımlar vasitəsilə irəlilədiyini nümayiş etdirir, siyasi etimadın bərpasına dəstək verir və gələcək əməkdaşlıq üçün zəmin yaradır".

Politoloq sonda bildirdi ki, məsələyə daha geniş regional kontekstdə yanaşdıqda, bu addım TRIPP kimi tanınan tranzit və inteqrasiya yönümlü təşəbbüslərlə də uzlaşır: "TRIPP anlayışı Cənubi Qafqazda və ətraf regionlarda ticarət, enerji və nəqliyyat əlaqələrinin bərpasını, açıq kommunikasiyalar vasitəsilə sülh və rifahın təşviqini nəzərdə tutur. Azərbaycanın Ermənistana neft məhsulları göndərməsi birbaşa bu layihənin rəsmi elementi olmasa da, onun məntiqinə və məqsədlərinə uyğun gəlir. Çünki regional tranzit imkanları faktiki olaraq işə düşür və əməkdaşlıq üçün real presedent yaranır".

Ümumilikdə baş verənlər onu göstərir ki, sülh prosesi artıq bəyanatlar mərhələsindən çıxaraq praktik müstəviyə keçib. Bu model qarşılıqlı hörmətə, milli maraqların balansına və praqmatik yanaşmaya əsaslanır. Azərbaycan isə ardıcıl siyasəti ilə həm öz maraqlarını qoruyur, həm də regiona sabitlik və əməkdaşlığa töhfələr verir. Cənubi Qafqazın münaqişə məntiqindən inkişaf məntiqinə keçidi məhz bu cür rasional addımlar sayəsində mümkün olur.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Qərbi Balkanlar Avropaya qovuşma yolunda

## *Yeni düzən Azərbaycan üçün əlavə əməkdaşlıq imkanları yarada bilər*

**Qərbi Balkanların Avropa İttifaqına (Aİ) inteqrasiya prosesi son onilliklər ərzində həm region daxilində, həm də Brüssel dəhlizlərində "vaxt itkisi" kimi qəbul olunurdu. Amma Serbiyanın Avropaya inteqrasiya üzrə naziri Nemanya Staroviç 2026-cı ilin ölkəsinin Birliyə inteqrasiyası baxımından uğurlu il olacağına əminliyini ifadə edərək bildirib ki, üçüncü klasterin açılmaması səbəbilə yaranmış siyasi dalan aradan qaldırılacaq. Onun fikrincə, ən optimal həll yolu bütün Qərbi Balkanlar regionunun Aİ-yə üzvlüyünün birgə şəkildə nəzərdən keçirilməsi ola bilər. Nazirin nitqində nikbinlik müşahidə olunsa da, bu kontekstdə əsas sual ondan ibarət idi ki, 2026-cı il doğrudanmı sözügedən region üçün institusional irəliləyiş ili ola bilər? Yoxsa bu, Aİ-nin davam edən strateji qeyri-müəyyənliyi fonunda daha bir "gecikmiş ümid" mərhələsidir?**

Xatırlatmaqda fayda var ki, Aİ uzun müddətdir genişləndirmə siyasətində açıq-aşkar institusional "yorğunluq" yaşayır. Ukrayna müharibəsi, daxili siyasi parçalanmalar, iqtisadi durğunluq kimi amillər Brüsselin diqqətini Balkanlardan yayındırıb. Bununla yanaşı, Aİ-nin geosiyasi ritorikasında Qərbi Balkanların strateji əhəmiyyətli region kimi təqdim edilməsi ilə real institusional addımlar arasında ciddi disbalans mövcuddur. Serbiya, Monteneqro, Şimali Makedoniya, Albaniya, Bosniya və Herseqovina və Kosovo üçün Aİ-yə üzvlük perspektivi formal olaraq saxlanılsa da, faktiki olaraq bu yol uzadılmış şərtlər, texniki manelər və siyasi qeyri-müəyyənliklərlə doludur. Serbiya Balkanlar daxilində Aİ inteqrasiyasının ən mürəkkəb aktorlarından biri olaraq qalır. Belqradın bir tərəfdən Brüsselə inteqrasiya istəyi, digər tərəfdən Rusiya və Çinlə saxladığı strateji əlaqələr ittifaq üçün davamlı etimadsızlıq mənbəyinə çevrilir. Məhz bu balans siyasəti Serbiyanın Aİ yolunda həm üstünlük, həm də əngəl kimi çıxış edir. 2026-cı illə bağlı müsbət gözləntilərə gəldikdə isə bu, Serbiyanın institusional islahatları sürətləndirəcəyi ehtimalına əsaslanır. Lakin reallıq ondan ibarətdir ki, Aİ üçün əsas problem texnikidən daha çox normativ və siyasi uyğunluq məsələsidir. Çünki media azadlığı, hüququn aliliyi və xarici siyasətdə koordinasiya sahəsindəki boşluqlar Brüsselin əsas narahatlıq mənbəyi olaraq qalır.

Qərbi Balkanlar üçün "ümumi Aİ yolu" anlayışı tez-tez səsləndirilsə də, region ölkələrinin daxili siyasi gündəmləri və ikitərəfli münaqişələri kollektivçiliyi zəiflədir. Serbiya–Kosovo münasibətləri, Bosniya və Herseqovinada institusional böhranlar, Şimali Makedoniyanın milli kimlik mübahisələri prosesin struktur zəifliklərini açıq şəkildə üzə çıxarır. Bu baxımdan 2026-nın uğurlu il olması Brüsselin siyasi iradəsi ilə yanaşı, həm də region ölkələrinin öz aralarında institusional koordinasiya və qarşılıqlı etimad yaratmaq bacarığından asılı olacaq.



* * *

Aİ-nin Qərbi Balkanlarda gecikən inteqrasiya siyasəti regionda geosiyasi boşluqlar yaradıb. Bu boşluqları Rusiya və Çinlə yanaşı, eyni zamanda, Türkiyə və Körfəz ölkələri tərəfindən aktiv şəkildə doldurulur. Bu mənzərə Balkanları çoxvektorlu xarici siyasətə yönəlməsini sürətləndirir və Aİ üçün əlavə strateji təzyiq yaradır. Məhz bu nöqtədə 2026-cı il həm də öz geosiyasi nüfuzuna görə test ili ola bilər. Ya Brüssel real inteqrasiya addımları atacaq, ya da region alternativ tərəfdaşlıqlara daha açıq şəkildə yönələcək.

Proseslərin fonunda Azərbaycan üçün Balkan regionu yeni strateji imkanlar məkanı kimi formalaşır. Bakı uzun müddətdir Qərbi Balkan ölkələri ilə münasibətlərini praqmatik əsasda qurur. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və iqtisadi əməkdaşlıq Azərbaycanın bu regionda əsas alətləri kimi çıxış edir. Ölkəmiz sözügedən regionla münasibətlərində Aİ üzvlüyü məsələsini şərt kimi qoymur. Əksinə, Azərbaycan region dövlətləri ilə ikitərəfli əməkdaşlığı gücləndirməklə onların Avropa bazarlarına inteqrasiya prosesini dəstəkləyən aktora çevrilir. Azərbaycanın Avropa enerji təhlükəsizliyində artan rolu Balkan ölkələri üçün də strateji əhəmiyyət kəsb edir. Xüsusilə Cənub Qaz Dəhlizi çərçivəsində Balkan bazarlarının Azərbaycan qazı üçün perspektivli istiqamətə çevrilməsi qarşılıqlı maraqları gücləndirir. Bu əməkdaşlıq, eyni zamanda, infrastrukturların modernləşdirilməsi və regional sabitliyin möhkəmləndirilməsi baxımından da əhəmiyyətlidir. 2026-cı il perspektivi bu kontekstdə Balkan ölkələrinin Avropa enerji arxitekturasına daha sıx inteqrasiya olunması baxımından kritik mərhələ ola və Azərbaycan prosesdə etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirə bilər.

Yeri gəlmişkən, Azərbaycanın Balkanlarla münasibətlərində mühüm üstünlüklərindən biri siyasi neytrallıq və daxili proseslərə müdaxilə etməməsidir. Bu yanaşma Bakıya region ölkələri ilə etimad əsaslı dialoq qurmaq imkanı verir. Aİ ilə münasibətlərində tez-tez normativ təzyiqlərlə üzləşən Balkan ölkələri üçün Azərbaycan alternativ və rahat əməkdaşlıq modeli təqdim edir.

Sonda bir daha vurğulayaq ki, prosesin reallaşdırılması üçün həm Aİ-nin siyasi iradəsi, həm də region ölkələrinin daxili transformasiya potensialı həlledici rol oynayacaq. Azərbaycan üçün proses aktiv praqmatik iştirak imkanı yaradır. Balkanların Aİ yolunda atacağı hər bir real addım ölkəmizin bu regionla iqtisadi, enerji və nəqliyyat əməkdaşlığını gücləndirəcək. Əgər 2026-cı il həqiqətən "yaxşı il" olarsa, Brüssel və Belqradla yanaşı, Bakı üçün də strateji imkanlar ili kimi tarixə düşə bilər. Əks halda, Azərbaycan artıq formalaşdırdığı çoxşaxəli tərəfdaşlıqlar sayəsində Balkanlarla əlaqələrini Aİ təqviminə bağlamadan inkişaf etdirməyə davam edəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

***Ekspert rəyi***

**Yeganə HACIYEVA,**
**politoloq**



Serbiyanın Avropa İttifaqına inteqrasiyasına cavabdeh rəsmi şəxsin 2026-cı illə bağlı açıqlaması həm Belqradın Aİ-yə üzvlük prosesində islahatları sürətləndirmək niyyətindən, həm də Brüsselin Qərbi Balkanlara münasibətdə daha praqmatik yanaşma formalaşdırmaq cəhdindən xəbər verir. Son illər beynəlxalq mühitdə baş verən münaqişələr və güc balansındakı dəyişikliklər Avropa İttifaqını öz ətraf regionlarında riskləri minimuma endirməyə sövq edir. Qərbi Balkan tarixən həssas və rəqabətə açıq bir məkan olduğu üçün Aİ burada siyasi sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsini xüsusi strateji məqsəd kimi görür. Məhz bu səbəbdən, region ölkələrinin ayrı-ayrılıqda deyil, vahid yanaşma və "ümumi yol" çərçivəsində Avropa strukturlarına inteqrasiyası həm islahatların sürətlənməsi, həm də regiondaxili qarşıdurmaların azalması baxımından böyük əhəmiyyət daşıyır.

Serbiya prosesdə açar ölkələrdən biri olmaqla yanaşı, Azərbaycanın da mühüm siyasi və iqtisadi tərəfdaşıdır. Rəsmi Belqradın Avropa strukturlarına yaxınlaşması Azərbaycan–Serbiya münasibətlərinə də müsbət təsir göstərə bilər. Eyni zamanda, Serbiyanın balanslaşdırılmış xarici siyasət xətti Bakının regional təşəbbüslərinə anlayışla yanaşılmasını təmin edir. Daha geniş kontekstdə, Qərbi Balkan ölkələrinin Avropa İttifaqına yaxınlaşması Azərbaycanın bu regionla münasibətlərini institusional səviyyədə dərinləşdirmək üçün əlverişli zəmin yaradır. Bu isə həm siyasi dialoqun intensivləşməsinə, həm də qarşılıqlı iqtisadi asılılığın artmasına gətirib çıxara bilər.

Nəticə etibarilə, Serbiyanın Aİ-yə inteqrasiya perspektivləri Azərbaycanın Avropa ilə əlaqələrinin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu proseslər düzgün qiymətləndirildiyi təqdirdə, Azərbaycan–Serbiya münasibətləri və ümumilikdə Azərbaycanın Balkan dövlətləri ilə əməkdaşlığı yeni, daha keyfiyyətli mərhələyə yüksələcək.

# Azərbaycan və Yaxın Şərq: xoşməramlı yanaşma və ardıcıllıq

## *Yaxud Prezident İlham Əliyevin baxışlarında əsaslılıq və qətiyyət*

**Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində Yaxın Şərqdə, o cümlədən Qəzza sektorunda yaranmış duruma, habelə, həm İsraillə, həm də müsəlman dünyası ilə bərabərhüquqlu tərəfdaş olan Azərbaycanın həmin regiondakı vəziyyətin sabitləşməsi üzrə hərbi əməliyyatlardakı potensial iştirakına dair sualı özünəxas tərzdə cavablandırıb.**

Əribaşdan deyək ki, dövlətimizin başçısının yanaşması ölçülü-biçilidir, dərin praqmatizmə və rasionallığa əsaslanır. Onu da nəzərə alaq ki, ölkəmizin liderinin dedikləri həm də bir müddət əvvəl yayılmış informasiyalara cavab mahiyyəti daşıyır. O informasiyalara ki, yanlışdır. Söhbət konkret hansı yanlışlıqdan gedir, aydınlıq gətirəcəyik. Hələlik isə...

Prezident İlham Əliyevin vurğuladığı vacib məqamlardan biri budur ki, "Azərbaycanın hər bir vətəndaşı bizim üçün qiymətlidir. Biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik". Deməli, dövlətimiz üçün başlıca məqam insan faktorudur, öz vətəndaşının həyatıdır. Ona görə də rəsmi Bakı amerikalı tərəfdaşlarının diqqətinə bunu, konkret olaraq, ölkəmizin Birinci Qarabağ müharibəsində böyük qurbanlar verdiyini çatdırıb. Əlbəttə, İkinci Qarabağ müharibəsində də itkilərlə üzləşdik. Amma prinsipial fərq var.

Fərq ondadır ki, müstəqilliyimizin ilk illərindəki Amerikanın bizə münasibəti ədalətsizliyə söykənmişdi. Söhbət 1992-ci ildə "Azadlığa Dəstək Aktına" 907-ci düzəlişin qəbulundan gedir. O düzəlişdən ki, təcavüzlə üzləşən ölkəni, faktiki olaraq, qəsbkar kimi qiymətləndirir və ona ABŞ-ın dövlət yardımını qadağan edirdi. Bir sözlə, Azərbaycan sanksiyaya məruz qalırdı.

Qeyd edək ki, müxtəlif illərdə məhz saksiya siyasəti Birləşmiş Ştatların ölkəmizə münasibət trayektoriyasını müəyyənləşdirən faktor olub. Doğrudur, Donald Tramp Prezident postuna gəldikdən sonra vəziyyət müsbətə doğru dəyişib. Amerika lideri "907"nin icrasını dayandırıb. Amma düzəlişin tamamilə ləğvi lazımdır ki, qarşılıqlı etimad daha da güclənsin. Bunun səmimi yolu var. Yəni ABŞ-da kimsə düşünməməlidir ki, Azərbaycan istifadə təyinatlı ölkədir. Xatırladaq ki, Trampdan əvvəlki Co Bayden administrasiyasının dövründə nankorluqla üzləşdik. Ona görə də indi istər-istəməz, şübhə yaranır: bəlkə ABŞ-ın BMT-dəki səfirliyinin Azərbaycanın Qəzzada hərbi əməliyyatlarda iştiraka razılıq verməsinə dair bir müddət əvvəlki bəyanatı köhnə dövrün yarıtmaz sxematikasına müraciətdir? Ümid edirik ki, belə deyil. Axı Azərbaycan obyekt yox, subyektdir və fikrimizi izah edəcəyik.

Bəli, Prezident İlham Əliyevin sözügedən bəyanat xüsusunda vurğuladığı məqam daha konkretdir. "Biz razılıq verməmişik və diplomatik kanallarla Amerika administrasiyasına çatdırdıq ki, bu cür yalan bəyanatlar qəbuledilməzdir, onlar yanlış mənzərə yaradır. Ola bilər ki, belə bir cəhd olub, kimi isə bu prosesə cəlb etmək üçün Azərbaycanın razılıq verdiyini deyiblər. İstisna etmirəm ki, əgər belə olubsa, bu, ümumiyyətlə heç bir vəchlə qəbul edilə bilməz", - deyən dövlətimizin başçısı ölkəmizin Amerika tərəfinə 20 sualdan ibarət müraciət ünvanladığını yada salır və əlavə edir ki, həmin suallardakı məsələlərə aydınlıq gətirilməyincə, hər hansı missiyada iştirak qeyri-mümkündür. Başqa sözlə desək, hansısa missiyada, təşəbbüsdə və ya formatda təmsilçilik şərtləri aydınlaşmalıdır. Bu mövzuda qərar vermək üçün tam şəffaflıq və hüquqi-siyasi təminat şərtdir.

Digər tərəfdən, əvvəldə də vurğuladığımız kimi, müstəqillik illərində iki müharibə görmüş Azərbaycan öz insanının həyatını yüksək qiymətləndirir. Həm də bu amil tələb edir ki, ölkəmizin hansısa missiyada iştirakçılığı sırf kampaniyaçılıq, tərəfkeşlik xarakteri daşımasın, hər şey dövlətimizin, xalqımızın maraq və mənafeləri ilə uzlaşsın. Deməli, Amerika diplomatiyasının yüksək rütbəli məmuru məsuliyyətsiz və yalan bəyanatlar səsləndirməməli, konseptuallığı qorumalıdır. İndiki halda, söhbət Yaxın Şərqdəki vəziyyətdən və Qəzza məsələsindən gedirsə, Azərbaycanın sülhməramlı əməliyyatlarda iştirakı yalnız mandatın aydın və təhlükəsiz olduğu halda mümkündür. Hazırda isə həmin regiondakı durum konkretlikdən uzaqdır.

* * *

Digər tərəfdən, ölkəmiz hər zaman bəşəri niyyətlər naminə çalışıb, beynəlxalq hüquq normalarını əsas götürüb. Bu baxımdan çoxsaylı örnəklər var. Məsələyə mövcud prizmadan yanaşsaq, Azərbaycan özünün humanitar yardım missiyasına da sadiqdir. Nəzərə alaq ki, Ukraynaya və digər köməyə ehtiyacı olan bölgələrə olduğu kimi, Fələstinə də yardım göstərmişik. Üstəlik, Fələstinin Bakıdakı səfirliyi ölkəmizin maliyyə yardımı sayəsində fəaliyyət göstərir. Habelə, Azərbaycan BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında həmişə Fələstini və Fələstin dövlətinin yaradılmasını dəstəkləyib. Amma...



Prinsipial məqam odur ki, diplomatik yollarla Yaxın Şərqdəki vəziyyəti izləyən rəsmi Bakı ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özlərinin həll etməli olduğu düşüncəsindədir. Yəni hansısa missiyanın fəaliyyəti lazımdırsa, burada Ərəb Dövlətləri Liqasının, Misirin, Birləşmiş Ərəb Əmirliklərinin, Səudiyyə Ərəbistanının, İordaniyanın və digərlərinin mövqeyi nəzərə alınmalıdır. "Ona görə də mənim mövqeyim həmişə ondan ibarət olub ki, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir. İndiyədək dərindən inanıram ki, qeyri-ərəb müsəlman ölkələr parovozun önündə qaçmamalıdır. Bu, heç bir yaxşı nəticə verməz. Ərəb Liqası var, Ərəb Liqasının mövqeyi mövcuddur, o, yetərincə aydındır və biz buna uyğun hərəkət edirik. İslam Əməkdaşlıq Təşkilatının qərarları var və biz də, o cümlədən bu qərarları qəbul etmişik və buna əməl edirik. Ona görə də lazımsız fəallıq göstərmək və yenə də parovozun önündə qaçmaq o qədər də yaxşı məşğuliyyət deyil", - deyən Prezident İlham Əliyevin yanaşması siyasi unikallıq nümunəsidir. Bütün bu qeyd etdiklərimizin fonunda dövlətimizin başçısının müsahibədəki "Fələstin bizi elə də müdafiə etmirdi" fikri emosional deyil, faktoloji xatırlatmadır və deyimdə reallıq qeydi var. Reallıq tələb edir ki, dəstəyimiz və yardımımızla, belə demək mümkünsə, siyasi fədakarlığımız bir-birindən ayrı tutulsun. Ölkəmizin liderinin Yaxın Şərqdəki proseslərə baxışının fundamentallığı da məhz budur.

Sonda ümumiləşdirmə apararaq bildirək ki, Prezident İlham Əliyev fikirləri ilə Yaxın Şərq regionuna, o cümlədən Qəzza sektoruna münasibətdə institsional çərçivə müəyyənləşdirir. Dövlətimizin başçısı fərdi təşəbbüsləri deyil, kollektivçiliyi önə çəkir. Nəzərə alaq ki, Ərəb Dövlətləri Liqası ərəb problemlərinin həlli üçün platformadır, İslam Əməkdaşlıq Təşkilatı müsəlman ölkələrinin ümumi mövqe nümayişi naminə qurduqları mexanizmdir, BMT və Qoşulmama Hərəkatı isə müştərək fəaliyyətə beynəlxalq miqyasda legitimlik qazandıran müstəvidir. Hazırda dünya nə qədər nizamsız və düzənsiz təsir bağışlasa da, siyasi oyun qaydaları qalır. Azərbaycan bu qaydaları gözləyir və ölkəmiz Yaxın Şərq regionu üzrə fərdiyyətçilikdən uzaq durmaqla, geosiyasi eskalasiyalarda alətə çevrilmədiyini göstərir. Mövcud yanaşmada, eyni zamanda, dövlətimizin öz insanının həyatını qorumaq əzmi də var ki, bu barədə lap əvvəldə söz açmışdıq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Müstəqil dövlətin çoxyönlü xarici siyasət strategiyası

*(əvvəli 1-ci səhifədə)*

Politoloji baxımdan burada "böyük güc legitimləşdirməsi" və "strateji etimad transferi" mexanizmləri paralel şəkildə işləyir. Qlobal güc mərkəzinin müəyyən bir ölkə ilə münasibətləri institusional müstəviyə çıxarması həmin ölkənin beynəlxalq



etibarlılıq kapitalını artırır və üçüncü aktorlar üçün riskləri azaldır. Vaşinqtondan gələn siyasi siqnal Avropa paytaxtlarında Azərbaycanın Qərb təhlükəsizlik və iqtisadi arxitekturasında dayanıqlı mövqe tutan aktor kimi qəbul edilməsinə səbəb olunub. Lakin bu rezonans spontan xarakter daşımır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan artıq demək olar ki, 30 ölkə ilə strateji tərəfdaşlıq üzrə sənədlər imzalamışdır və onların əhəmiyyətli hissəsi Avropa İttifaqı üzvləridir. Bu fakt Azərbaycanın xarici siyasətində təkmərkəzli asılılıq modelindən imtina edərək şəbəkə diplomatiyası və çoxsəviyyəli balanslaşdırma strategiyasına keçdiyini göstərir. Belə yanaşma dövlətə həm strateji manevr imkanları yaradır, həm də beynəlxalq təzyiqlər qarşısında struktur dayanıqlıq təmin edir.

Vaşinqtondan daxil olan mesajın ABŞ-ın müttəfiqləri tərəfindən müsbət qarşılanması isə transatlantik siyasi məkanın hələ də iyerarxik koordinasiya məntiqi ilə işlədiyini göstərir. ABŞ referens güc olaraq normativ çərçivəni müəyyənləşdirir. Amma bu çərçivənin içərisində Azərbaycan artıq periferik obyekt deyil, regional sabitliyə töhfə verən, enerji və logistika təhlükəsizliyini təmin edən funksional tərəfdaş kimi qəbul edilir. Avropa ölkələrinin təşəbbüsü rasional maraqların – enerji diversifikasiyası, Orta Dəhliz, Cənubi Qafqazda sabitlik və Xəzər hövzəsinin geoiqtisadi potensialının qiymətləndirilməsidir.

* * *

İlham Əliyevin Azərbaycanın Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsini "nadir hadisə" kimi qiymətləndirməsi regional geosiyasi konfiqurasiyanın dəyişdiyini göstərən mühüm strateji göstəricidir. Coğrafi baxımdan Cənubi Qafqazda yerləşən Azərbaycanın Mərkəzi Asiya siyasi platformasına institusional inteqrasiyası klassik regional sərhədlərin artıq siyasi reallığı tam əks etdirmədiyini nümayiş etdirir. Müasir beynəlxalq münasibətlərdə coğrafiya logistika, bağlantı və funksional qarşılıqlı asılılıq üzərindən yenidən müəyyən olunur. Məhz bu kontekstdə C5 formatının C6 modelinə transformasiyası faktiki olaraq Mərkəzi Asiya məkanının Xəzər üzərindən Qərbə açılan yeni strateji konturunun formalaşması deməkdir. Bu proses "funksional regionalizm" modelinə uyğundur. Dövlətlər klassik regional identiklikdən daha çox, konkret funksional maraqlar ətrafında yeni koalisiyalar formalaşdırırlar. Azərbaycanın bu platformada qəbul olunması onun artıq Mərkəzi Asiyanın iqtisadi və təhlükəsizlik ekosisteminin ayrılmaz halqasına çevrildiyini göstərir. Prezidentin "Mərkəzi Asiyanı Qərblə coğrafi baxımdan birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır" fikri geosiyasi reallığın açıq ifadəsidir. Mövcud beynəlxalq şəraitdə alternativ marşrutların siyasi riskləri, sanksiya mühitləri və təhlükəsizlik qeyri-müəyyənliyi fonunda Orta Dəhliz, faktiki olaraq, Qərb üçün yeganə stabil bağlantı xəttinə çevrilir. Burada Azərbaycanın üstünlüyü siyasi sabitlik, institusional etibarlılıq və tərəfdaşlıq reputasiyası faktorlarının sintezindədir. Bu transformasiya, eyni zamanda, Qərbin Mərkəzi Asiyaya baxışını da dəyişir. Əgər əvvəl bu region əsasən Rusiya–Çin geosiyasi orbitində qiymətləndirilirdisə, indi Azərbaycan vasitəsilə Qərb üçün alternativ inteqrasiya kanalı formalaşır. C5-in C6-ya çevrilməsi həm də Azərbaycanın regional liderlik iddiasının institusional şəkildə tanınmasıdır.

* * *

Dövlət başçımızın Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsini "çox böyük nailiyyət" kimi qiymətləndirməsi ölkənin İslam dünyasında siyasi və iqtisadi çəkisinin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Təxminən otuz il ərzində yeni üzv qəbul etməyən bir platformanın ilk dəfə genişlənməsi dəyişən beynəlxalq reallıqların və Azərbaycanın artan funksional əhəmiyyətinin nəticəsidir.



D-8 formatı əhalisi bir milyarddan artıq, ümumi iqtisadi potensialı isə dörd trilyon dollardan çox olan geoiqtisadi məkanı əhatə edir. Azərbaycanın bu kluba daxil olması onun iqtisadi ölçülərinə görə deyil, strateji mövqeyi, tranzit imkanları, enerji infrastrukturu və siyasi etibarlılığı ilə bağlıdır. Bakı eyni vaxtda Qərb institutları ilə tərəfdaşlıq, Türk dünyası ilə dərinləşən əməkdaşlıq və İslam dünyasında institusional mövqelənmə xəttini paralel şəkildə inkişaf etdirir. Belə bir yanaşma ölkəyə geosiyasi balansı qorumaqla yanaşı, müxtəlif sivilizasiya blokları arasında körpü funksiyasını da gücləndirməyə imkan verir. Prezidentin vurğuladığı mühüm məqam ondan ibarətdir ki, Azərbaycan nə əhali, nə də iqtisadi ölçü baxımından nəhəng dövlət olmasa da, təşkilata qəbul olunması beynəlxalq hörmətin və müstəqil siyasətin nəticəsidir.

* * *

Prezident İlham Əliyevin Çinlə imzalanmış Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni 2025-ci ilin mühüm diplomatik nailiyyətlərindən biri kimi qiymətləndirməsi Azərbaycanın Avrasiya geosiyasətində mövqeyinin keyfiyyətcə yeni mərhələyə daxil olduğunu göstərir. Çin beynəlxalq sistemin normativ və institusional transformasiyasında aktiv rol oynayan qlobal güc mərkəzidir. Belə bir aktorla münasibətlərin strateji platforma səviyyəsinə qaldırılması Azərbaycanın xarici siyasətinin uzunmüddətli hesablanmış rasional xəttinin nəticəsidir.

Azərbaycan Çin üçün "Bir kəmər, bir yol" təşəbbüsünün Qafqaz–Xəzər seqmentində etibarlı tranzit qovşağı rolunu oynayır. Bakı isə Pekinlə strateji əməkdaşlıq vasitəsilə öz nəqliyyat-logistika potensialını qlobal ticarət dövriyyəsinin struktur elementinə çevirir. Politoloji baxımdan bu münasibət modeli asimmetrik tərəfdaşlıq daxilində rasional balanslaşdırma nümunəsidir. Ölçü və güc baxımından fərqli aktorların əməkdaşlığında əsas risklərdən biri siyasi asılılığın dərinləşməsidir. Lakin Azərbaycanın çoxvektorlu siyasəti bu riski neytrallaşdırır və Çinlə tərəfdaşlığı digər istiqamətlərlə – ABŞ, Avropa İttifaqı, Türkiyə, Mərkəzi Asiya və İslam dünyası ilə paralel şəkildə tarazlaşdırır.

Digər tərəfdən, Çinlə siyasi platforma səviyyəsində qurulan münasibətlər Azərbaycanın beynəlxalq sistemdə manevr imkanlarını genişləndirir. Bakı artıq yalnız Qərb–Rusiya oxu arasında balanslaşdıran regional aktor deyil, qlobal güc mərkəzləri ilə eyni vaxtda strateji dialoq qura bilən çevik diplomatik mərkəzə çevrilir. Bu isə ölkənin diplomatik suverenliyinin praktik təzahürüdür. Prezidentin vurğuladığı kimi, bu strateji çərçivə Azərbaycanın uğurlu diplomatiyasının nəticəsidir. Çin kimi praqmatik və riskə həssas aktor üçün tərəfdaş seçimi təsadüfi deyil və Azərbaycanın seçilməsi Bakının beynəlxalq reputasiya kapitalının yüksəldiyini göstərir.

* * *

Dövlət başçısının 2025-ci il ərzində həyata keçirilmiş intensiv xarici səfərləri, çoxsaylı dövlət və hökumət başçılarının Azərbaycana rəsmi səfərləri və ölkəmizdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanın beynəlxalq sistemdə legitim siyasi subyekt kimi möhkəmləndiyini nümayiş etdirir. Bu kontekstdə Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Zirvə Görüşü geosiyasi məna daşıyır. Xankəndi uzun müddət regional münaqişənin simvolu olmuş məkandan beynəlxalq diplomatik platformaya transformasiya edilir. Zirvənin məhz bu şəhərdə keçirilməsi Azərbaycanın ərazi bütövlüyünün artıq qəbul olunmuş reallıq kimi beynəlxalq siyasi diskursa daxil olduğunu göstərir. Xarici liderlərin Xankəndiyə səfəri, orada çoxtərəfli qərarların qəbul edilməsi Azərbaycanın postmünaqişə mərhələsində regional nizamı faktiki olaraq dizayn etdiyini nümayiş etdirir. Prezidentin vurğuladığı intensiv səfərlər və qarşılıqlı diplomatik təmaslar Azərbaycanın müxtəlif güc mərkəzləri arasında dialoq yarada bilən strateji kommunikasiya platforması rolunu oynadığını təsdiqləyir.

Nəticə etibarilə, 2025-ci il Azərbaycanın xarici siyasət tarixində geosiyasi möhkəmlənmə və strateji inteqrasiya ili kimi xarakterizə oluna bilər. Prezident İlham Əliyevin müsahibəsində formalaşan siyasi çərçivə göstərir ki, Azərbaycan artıq beynəlxalq münasibətlər sistemində qaydaları oxuyan və müəyyən edən subyektdir. Müasir mərhələ ölkənin regional və qlobal siyasi arxitekturada funksional rol oynayan aktora çevrilməsinin başlanğıcı kimi qiymətləndirilə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Prezident İlham Əliyev: strateji müdriklik və liderlik məharətinin sintezi



## II məqalə

### Sülh şəraitinin geosiyasi dəyəri

Azərbaycan Prezidentinin "biz sülh şəraitində yaşamağı öyrənməliyik" tezisinin məzmun və məqsəd baxımından mühüm tarixi əhəmiyyətə malik olduğunu hər kəsin dərk etməsinin zəruriliyinə tam əminik. Hətta bu tezisin XXI əsr Azərbaycan dövlətçiliyinin identikliyi kontekstində ana müddəa olduğu fikrini irəli sürürük. Getdikcə anlaşılacaq ki, İlham Əliyev bir müsahibə ilə müstəqil dövlətçilik fəlsəfəsinin yeni mərhələsini başlatmışdır. Biz bu iddiamızın tam əsaslı olduğunu sübut edəcəyik.

Məsələ onunla bağlıdır ki, "sülh şəraitində yaşamağı öyrənmək" konseptual səviyyədə yalnız Azərbaycana aid deyildir – müasir dünyada hər bir dövlətin adekvat dərk etməli olduğu başlıca konseptdir. Bəli, məhz "konsept"!

Çünki özünü güclü və demokratik sayan dövlətlər belə, dünya siyasətini o dərəcədə təbiiliyi və fəzilətliliyindən çıxarmışlar, yenidən konseptual səviyyədə "sülh şəraitində yaşamaq nə deməkdir?" sualına cavab axtarışları ön sıraya çıxmışdır. Bunu praktikada dünyanın bütün regionlarında özünü göstərən geosiyasi proseslərin ziddiyyətliliyi, təzadları və məntiqsizliyi təsdiq edir.

Xüsusilə Avrasiyada və Uzaq Şərqdə elə hadisələr baş verir ki, "sülh"ün anlayış kimi nə demək olduğunu müəyyən etmək imkansız hala gəlir. Obrazlı desək, "sülhün məzmununun anatomiyası pozulmuşdur"! Azərbaycan Prezidenti məsələni dahiyanə şəkildə birbaşa Cənubi Qafqazın lideri olan Azərbaycan nümunəsinə gətirməklə çox kreativ addım atmışdır. Özü də bunu diplomatik müzakirədə deyil, milyonların canlı dinləyə biləcəyi ünsiyyət formasında etmişdir.

Bununla liderlik nümunəsinə tarixi bir yenilik edilmiş oldu – müstəqil dövlətin başçısı dünya üçün fövqəladə aktual olan, insanlığın ekzistensial mövcudluq fəlsəfəsinin ana müddəasını təşkil edən dinc – yanaşı yaşamanın, yəni sülhün ölkədaxili şərtləri ilə beynəlxalq səviyyədə özəllikləri arasında nisbətin müəyyən edilməsi gərəkliyini ortaya qoymuşdur! Bu ilkin nəzəri-fəlsəfi və politoloji izah aspektləri çoxdur. Həmin bağlılıqda müsahibədə yer almış bir çox vacib kontekstə baxaq.

### Müharibənin mərhələləri

Azərbaycan lideri müsahibəsində vurğulayır: "Müharibənin müxtəlif mərhələləri olub. Siz də bunu yaxşı xatırlayırsınız. Həm müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu. Yəni Azərbaycan döyüş meydanında əldə etdiyi parlaq Qələbəyə siyasi müstəvidə və qeyd etdiyim kimi, dünyanın bir nömrəli ofisində siyasi möhür vurdu".

Bu qısa fraqmentdə konseptual təsnifləşdirmə siyasi və geosiyasi kontekstdə ümumiləşdirmə ilə vəhdətdə təqdim edilmişdir. Təsnifləşdirmə Azərbaycanın XXI əsrdəki Vətən müharibəsinin tarixi-xronoloji aspektinə aiddir.

Birinci, müharibənin fəal mərhələsi.

İkinci, atəşkəs mərhələsi.

Üçüncü, İkinci Qarabağ müharibəsi.

Dördüncü, antiterror əməliyyatı.

Beşinci, ondan sonrakı dövr, yəni postmüharibə mərhələsi.

Fəlsəfi baxımdan bu mükəmməl təsnifin 3 mühüm məqamını müəyyən etmək olar. Birinci məqam ondan ibarətdir ki, Azərbaycan Prezidenti Ermənistanın təcavüzünə bir dövlətin qonşusuna adi aqressiyası kimi deyil, xüsusi siyasi və geosiyasi anlamı olan ümumtarixi kontekstdə qiymət verir. Elə bu özəllik dövlətçiliyimiz prizmasında olduqca əhəmiyyətlidir. Çünki bu təsnifin işığında həm müasir mərhələdə müstəqil dövlət quruculuğumuzun fəlsəfi və siyasi-politoloji cəhətlərini tarixi Zaman kontekstində adekvat dərk etmək imkanı yaranır, həm də o, XXI əsrdə dövlətçiliyin perspektivli inkişafı üçün lazımi mövqe formalaşdırmağa istiqamətləndirir (nəzəri-konseptual düşüncənin praktiki fəaliyyətlə sintezinə fokuslandırır).

Vurğuladığımız iki aspektin vəhdəti ifadəsini təsnifin xronoloji təqdimatında tapmışdır: fəal mərhələ, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı və ondan sonrakı dövr. Azərbaycan Prezidenti məsələyə sırf dövlətçilik kontekstində yanaşır. Burada şəxsi maraq yox dərəcəsindədir, çünki olsaydı, memarı olduğu II Qarabağ müharibəsindəki Zəfəri önə çəkərdi. Bu da məsələnin çox mühüm tərəfidir.

Deməli, Ermənistanın XX əsrin son onilliyində təcavüzünə əsrlər öncə başlayan və Azərbaycan dövlətçiliyinə qərəzli yanaşma ilə xarakterizə olunan proseslərin məntiqi nəticəsi fonunda baxmalıyıq. Belə bir yanaşma sırf dövlətçilik kontekstinə uyğundur.

Belə alınır ki, Azərbaycan lideri bizləri və bütün dünyanı Ermənistanın haqlı və güclü (belə təsəvvür yaratmağa çalışırdılar) olması səbəbindən deyil, əsrlər öncə dünyanın imperialist dairələrinin başladığı anti-Azərbaycan siyasətinin gerçək məzmunu, mahiyyəti və strateji məqsədləri kontekstində yanaşmağa dəvət edir və səsləyir.

Möhtəşəm və dövlətçilik baxımında çox ciddi konseptual dönüşdür! Onun işığında Azərbaycan tarixinin təhriflərini anlamağa və adekvat konsepsiya yaratmağa geniş imkanlar açılır. Etiraf edək ki, bu prosesdə Azərbaycan elmi dairəsi təşəbbüsü ələ almalıdır. Onun istiqamətverici strategiyası da AMEA-nın yeniləşmə kursu çərçivəsində hazırlanmış strateji konsepsiya və "Yol Xəritəsi"ndə mövcuddur.

Müharibənin mərhələlərinin İlham Əliyev modelinin gələcək aspektində nəzəri-konseptual və motivəedici gücü də aydın görünür. Onun bir əlaməti Prezidentin mərhələlərin sonucu kimi xüsusi vurğuladığı "bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu" tezisindədir. Həmin fikrin üzərində bir qədər geniş dayanaq.

### Müharibəyə son, sülhə yön!

Prezident İlham Əliyev müharibəyə son qoyulmasını birbaşa sülhə yolun açılması ilə bağlayır. Yəni Azərbaycan lideri sadəcə hərbi toqquşmaların başa çatdığını vurğulamır. Dövlət olaraq Azərbaycanın əsas məqsədinin regiona qalıcı (yəni davamlı) sülh qazandırmasından ibarət olduğunu ifadə edir. Məhz bu kontekst milli, regional və qlobal miqyasda İlham Əliyevin yeni liderlik nümunəsinin başlıca təmsilçisi olduğunu sübut edir.

Azərbaycan Respublikasının dövlət başçısı məharətlə və tam ədalətli, sivil formada ölkənin daxili sülh şərtləri ilə regional və qlobal miqyasların sülh şərtləri arasında vəhdət yaradılmasının nəticəverici konseptini təqdim edir. Bu bağlılıqda müsahibədəki başqa fraqmentə nəzər salaq.

Ölkə rəhbəri müsahibəsində vurğulayır: "Bu, təbii ki, müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri olacaq, bəlkə də birincilər sırasında olacaq. Bu nöqteyi-nəzərdən keçən ili ölkəmiz üçün, xalqımız üçün çox uğurlu və tarixi il saymaq olar və əminəm ki, bundan sonra Azərbaycan xalqı sülh şəraitində yaşayacaq. Biz artıq cəmi beş ay bu şəraitdə yaşamağımıza baxmayaraq, bunun bəhrəsini görürük - həm siyasi, həm iqtisadi müstəvidə. Cəmiyyətdə mövcud olan xoş əhvali-ruhiyyə, sabitliyə və təhlükəsizliyə olan inamın artması, bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, uğurla irəliyə addımlayaq və ölkə qarşısında duran bütün vəzifələri bundan sonra da həll edək".

Aydın görünür ki, Azərbaycan lideri müharibə mərhələlərini artıq keçmiş hesab edir və dövlətçilikdə yanlışlığa yol verməmək üçün onu daha yaxşı dərk etməyin gərəkli olduğuna işarə verir. Bunun fonunda isə postmüharibə mərhələsinin Azərbaycan Respublikası üçün sülhyaradıcı dönəm olması anlamını gündəmə gətirir. İdeya olaraq bu tezisin vacibliyi və töhfəverici olduğunu önə çəkir. Vurğulanan fikirlərin əsasında növbəti fəlsəfi ümumiləşdirmə aparmaq çətin deyildir.

### Sülh Azərbaycan dövlətinin tarixi nailiyyətidir

Prezidentin yuxarıda vurğuladığımız fikirləri 2025-ci ilin tarixi olmasının mühüm aspektləridir. Diqqət etsək, görərik ki, onların hər biri Azərbaycanın dövlət kimi daxili mahiyyətindən qaynaqlanan faktorlardır. İlham Əliyev onları başqa bir maraqlı parametrlə tamamlayır və onu da 2025-ci ili tarixi edən faktor kimi təqdim edir. Prezident müsahibəsində deyir: "Azərbaycan-Amerika münasibətlərinin kontekstində də 2025-ci il tarixi il sayıla bilər. Çünki sirr deyil ki, Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra Amerika-Azərbaycan əlaqələrinin üzərində bir qara bulud kimi mənfur 907-ci düzəliş, necə deyərlər, fırlanırdı və Azərbaycan gənc, müstəqil ölkə olmasına baxmayaraq, Amerika kimi dünya miqyasında bir nömrəli dövlətlə lazımi səviyyədə münasibətlər qura bilməmişdi - Amerikadakı anti-Azərbaycan qüvvələrin fəaliyyəti, erməni lobbisinin fəaliyyəti nəticəsində. Azərbaycan tərəfindən belə cəhdlər dəfələrlə göstərilmişdir. Müəyyən mərhələlərdə münasibətlər müsbət istiqamətdə inkişaf edirdi. Ancaq mövcud məhdudiyyətlər, xüsusilə Ermənistan-Azərbaycan müharibəsinin davam etməsi Amerikadakı söz sahiblərinə imkan vermirdi ki, Azərbaycanla genişmiqyaslı münasibətlər qurulsun".

Deməli, ABŞ ilə münasibətlər birbaşa Azərbaycanın Vətən müharibəsində qələbəsi əsasında tarixi faktor olmuşdur. Prezident İlham Əliyevin ABŞ ilə əlaqələrin müsbət məcrada qurulmasının təməlini Azərbaycan dövlətinin çətin savaşda qalibiyyəti ilə əlaqələndirməsi tamamilə yerindədir. Bu o deməkdir ki, indi iki dövlət arasında münasibətlrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi birbaşa Azərbaycanın güclənməsi və onun əlaməti kimi Vətən müharibəsində möhtəşəm qələbəsi sayəsindədir. Bu baxımdan "907-ci düzəliş" kimi bədnam sənədin meydana çıxmasına səbəb olan bütün problemlərin aradan qaldırılması və tamamilə fərqli durumun yaranması xüsusi qeyd edilməlidir.

İlham Əliyev də həmin kontekstdə müsahibədə fikirlərinə davam edərək deyir: "Artıq bu məhdudiyyət də yoxdur və bunun təbii ki, iki əsas səbəbi var: birincisi, Ermənistan-Azərbaycan müharibəsinin rəsmən sona çatması, ikincisi, Amerikada Prezident Tramp administrasiyasının hakimiyyətdə olması. Bu administrasiya çox praqmatik, çox peşəkar və Amerikanın milli maraqlarının nə olduğunu çox yaxşı bilən üzvlərdən ibarətdir, Prezident başda olmaq şərti ilə".

Azərbaycan lideri baxılan məsələni yuxarıda qeyd etiyimiz mühüm xüsusiyyətlərlə məhdudlaşdırmır. Əksinə, onların əsasında bizim üçün əhəmiyyəti böyük olan yeni bir qənaətini ictimaiyyətlə bölüşür.

### Azərbaycan – bölgənin nüfuzlu ölkəsi

Bu identiklik müasir Azərbaycan dövlətçiliyi üçün olduqca əhəmiyyətli məsələdir. Çünki son 300 ildə ilk dəfədir ki, Azərbaycan müstəqil dövlət kimi mahiyyətinə və dövlət identikliyinə uyğun nüfuz sahibi olur. Bununla bağlı Azərbaycan Prezidentinin müsahibəsindəki aşağıdakı fikri vurğulamaq lazımdır. Dövlət başçısı İlham Əliyev müsahibəsində ayrıca ifadə etmişdir: "Təbii ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir. Bizim üçün də. Ona görə bu nöqteyi-nəzərdən keçən il də dönüş ili sayıla bilər".

Deməli, Azərbaycanın XXI əsrdə müstəqil dövlət olaraq nüfuz dairəsinə malik olması, birincisi, onun sülhsevərliyinin beynəlxalq etirafıdır, ikincisi, Azərbaycanda dövlətçilik ənənəsinin sivilliyinin göstəricisi və inklüzivliyidir, üçüncüsü, dünyanın ən qüdrətli dövləti belə Azərbaycanın güclü dövlətçilik potensialını qəbul etmişdir və faktiki onu Bakının regional nüfuzunun başlıca motivəedici faktoru sayır. Bu tezisimiz Azərbaycanın dövlət başçısının vurğulanan müsahibədə ifadə etdiyi aşağıdakı fikirlərin işığında əsaslı görünür.

Ölkə rəhbəri demişdir: "Ağ Evdə Prezident Tramp mənim orada iştirakımla keçirilən mərasimdə 907-ci düzəlişə son qoydu, bunu aradan qaldırdı. Halbuki hələ Konqres bunu rəsmən aradan qaldırmalıdır. Amma xüsusilə mənim iştirakımla Prezident tərəfindən atılan bu addım, təbii ki, rəmzi məna daşıyır. Bundan başqa, Amerika ilə Azərbaycan arasında strateji işçi qrupunun yaradılması sənədi imzalanmışdır. Bu işçi qrupunun əsas fəaliyyəti strateji tərəfdaşlıq xartiyasını hazırlamaqdır və artıq bu istiqamətdə də fəal iş başlamışdır. Təbii ki, uzun illər arzuladığımız".

Məlumdur ki, hər bir ölkənin başçısı beynəlxalq miqyasda dövlətin identikliyinin təmsilçisidir. Yəni dövlətin başçısına olan münasibət faktiki olaraq ölkəyə, onun nüfuzuna, statusuna və potensial imkanlarına verilən qiymətdir. Bu anlamda Azərbaycan liderinin birbaşa iştirakı ilə ABŞ prezidenti D.Trampın "907-ci düzəlişi" aradan qaldırması tarixi rəmzi hadisədir. Azərbaycan Prezidentinə olan inamdır, etibardır və onun liderliyini qəbul etməkdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# II Qaregin Sarkisyanın taleyini yaşayacaqmı?

**(əvvəli 1-ci səhifədə)**

Ermənistan baş nazirinin S.Sarkisyanın istefası ilə bağlı açıqlaması bu ilin aprelində 8-ci ili tamam olacaq hadisələri xatırlatmağa səbəb olur. Yada salaq ki, 2018-ci ilin aprel–may aylarında baş verən və "Məxməri inqilab" adlandırılan proseslər Ermənistan siyasi tarixində dönüş nöqtəsi kimi dəyərləndirilir. Müxtəlif vətəndaş qruplarının iştirak etdiyi kütləvi etiraz aksiyalarına parlamentdəki "Yelk" fraksiyasının rəhbəri, "Mülki müqavilə" partiyasının sədri N.Paşinyan rəhbərlik edirdi. 2008-ci ildən hakimiyyətdə olan S.Sarkisyanın prezidentlikdən sonra baş nazir postuna gətirilməsi cəhdi etirazların əsas səbəbi idi. Aksiyalar və yürüşlər qısa müddətdə təkcə Sarkisyana qarşı yox, bütövlükdə hakim "Respublika" partiyasına qarşı yönəlmiş ümumxalq narazılığına çevrildi. Bu proseslər bir sıra müşahidəçilər tərəfindən postsovet məkanında baş vermiş digər "rəngli" və ya "dinc" inqilablarla müqayisə olunur.

Küçə yürüşləri, vətəndaş itaətsizliyi aksiyaları və sosial şəbəkələr üzərindən aparılan fəal çağırışlar etirazların əsas alətlərinə çevrildi. "Bir addım at, Serji devir", "Silahı yerə qoy, Serji rədd et", "Polis, qoşul!" kimi şüarlar həm küçələrdə, həm də virtual məkanda geniş yayılaraq hərəkatın simvoluna çevrildi. Nəticədə ictimai təzyiq qarşısında geri çəkilən S.Sarkisyan və onun rəhbərlik etdiyi hökumət istefa verdi. Bundan sonra parlamentdə hakimiyyət dəyişikliyi baş verdi və müxalifətin lideri Nikol Paşinyan Ermənistanın baş naziri seçildi. "Məxməri inqilab" Ermənistanda formal olaraq zorakılıqsız başa çatan, lakin ölkənin daxili siyasi balansını köklü şəkildə dəyişən proses kimi tarixə düşdü.

*

8 il əvvəlki hadisələr çoxlarımızın gözləri önündə baş verib. Əlbəttə, biz yazımızda 2018-ci il martın 31-də Gümrüdən İrəvana iki həftəlik "Mənim addımım" adlı yürüşün başlanması ilə start götürən hadisələrin bütün xronoloji ardıcıllığını vermək fikrində deyilik. Diqqətə çatdırmaq istədiyimiz məqam Paşinyanın dediyi kimi, Sarkisyan dirənməsi və istefa verməkdən birmənalı şəkildə imtina etməsi ilə bağlıdır. Aprelin 22-də səhər saat 10:00-da İrəvandakı "Marriott Armenia" otelində Paşinyanla baş nazir Sarkisyan arasında uzun müddət gözlənilən görüş baş tutdu. Lakin bu görüş dialoqdan çox siyasi qarşıdurma təsiri bağışladı. Paşinyan tələb etdi ki, danışıqların əsas mövzusu Sarksyanın istefa tarixinin müəyyənləşdirilməsi ilə bağlı olmalıdır. Cavabında isə baş nazir müxalif "Yelk" fraksiyasının cəmi 7–8 faiz səs topladığını bildirərək Paşinyanın xalq adından danışmaq hüququnun olmadığını dedi. Bu bəyanatdan dərhal sonra Sarkisyan görüşü yarımçıq tərk etdi və danışıqlar fiaskoya uğradı. Görüşün pozulması ölkədəki gərginliyi daha da artırdı. Paşinyan tərəfdarlarını vətəndaş itaətsizliyini ikiqat güclə davam etdirməyə çağırdı və axşam saat 19:00-da yenidən "Respublika" meydanına toplaşmağa səslədi. Günün gedişində hadisələr kəskin şəkildə dəyişdi. Paşinyan saxlanıldı, bundan sonra polis şəhərin müxtəlif nöqtələrində etirazçılara qarşı sərt müdaxiləyə başladı. Bu zaman azı yeddi nəfər xəsarət aldı.

Aprelin 23-də etirazlar İrəvanın müxtəlif rayonlarını əhatə etdi. Günün ikinci yarısında proseslər kulminasiya nöqtəsinə çatdı. Sarkisyan baş nazir postundan istefa verdiyini açıqladı. O, istefa bəyanatında açıq etiraf etdi: "Nikol Paşinyan haqlı idi. Mən səhv etdim. Yaranmış vəziyyətin bir neçə həlli var, lakin mən onların heç birinə getməyəcəyəm. Bu, mənlik deyil. Mən ölkə rəhbəri vəzifəsindən gedirəm. "Küçə hərəkatı" mənim bu postda qalmağıma qarşıdır və mən xalqın tələbini yerinə yetirirəm. Ölkəmizə sülh, harmoniya və sağlam məntiq arzulayıram". Bu bəyanat "Respublika" meydanına toplaşan on minlərlə insan tərəfindən alqışlarla qarşılandı. Sarkisyanla bərabər onun rəhbərlik etdiyi hökumət də istefaya getdi və prezident bunu qəbul etdi. Eyni zamanda, saxlanılmış müxalif deputatlar, o cümlədən N.Paşinyan azadlığa buraxıldılar. Hökumət başçısının səlahiyyətlərini müvəqqəti olaraq baş nazirin birinci müavini Karen Karapetyan icra etməyə başladı. Beləliklə, proseslər Ermənistan həlledici mərhələyə qədəm qoydu. Mayın 8-də parlamentdə keçirilən səsvermə nəticəsində Paşinyan baş nazir seçildi. Onun namizədliyini 59 deputat dəstəklədi, 42-si isə əleyhinə səs verdi.



*

İndi isə Paşinyan katolikos II Qaregini eyni qaydada istefaya məcbur edəcəklərini deyir. Onun Sarkisyanla II Qaregin arasında paralel aparması xüsusilə diqqətçəkəndir. Sarkisyan dünyəvi hakimiyyətin başında dayanırdı və küçədən təzyiq, legitimlik çatışmazlığı və daxili elitanın parçalanması nəticəsində istefaya məcbur olmuşdu. Paşinyan indi eyni modeli kilsə üzərinə transfer etməyə çalışır. Onun məntiqinə görə, kilsə də cəmiyyətdən qopmuş, korrupsiyalaşmış, siyasi proseslərə müdaxilə edən və köhnə sistemlə eyni tərəfdə dayanan institutdur. Bu baxımdan katolikosun istefası Paşinyan üçün yalnız dini məsələ deyil, "inqilabın yarımçıq qalmış hissəsinin tamamlanması" anlamı daşıyır.

Lakin burada ciddi fərqlər var. Əvvəla, Erməni Apostol Kilsəsi sıradan bir qurum deyil. Kilsə hayların öz təbirincə desək, erməni kimliyinin, tarixi yaddaşın və diaspor əlaqələrinin mərkəzi sütunlarından biridir. Sarkisyan siyasi fiqur idi və onun hakimiyyəti seçkilər, parlament çoxluğu və küçə dəstəyi kimi mexanizmlərlə ölçülürdü. II Qaregin isə kanonik qaydalarla seçilmiş dini liderdir və onun legitimliyi küçə aksiyalarından daha çox dini iyerarxiya və kilsədaxili konsensusla müəyyən olunur. Bu isə Paşinyanın manevr imkanlarını məhdudlaşdırır.

Lakin Paşinyanın əlində güclü bir arqument var: kilsənin siyasi proseslərdə açıq və ya gizli şəkildə revanşist düşərgə ilə eyni mövqedə dayanması. Baş nazir bu mövzunu ictimai müzakirəyə çıxararaq katolikosun "müqəddəs toxunulmazlıq" statusunu sarsıtmağa çalışır. Əgər Paşinyan cəmiyyətin əhəmiyyətli hissəsini kilsə rəhbərliyinin legitimliyinə şübhə ilə yanaşmağa inandıra bilsə, II Qareginin mövqeyi ciddi şəkildə zəifləyə bilər. Bununla belə, Qaregini Sarkisyan kimi istefaya məcbur etmək daha çətin və risklidir. Kilsəyə qarşı açıq təzyiq Paşinyanın öz elektoratında belə narazılıq yarada, onu "dəyərlərə qarşı çıxan lider" obrazında təqdim edə bilər. Üstəlik, diaspor və xarici kilsə strukturlarının reaksiyası da prosesə təsirsiz ötüşməyəcək.

Nəticə etibarilə, Paşinyan II Qaregini istefaya məcbur etmək istəyində qətiyyətlidir, lakin bu proses Sarkisyan ssenarisi qədər sürətli və ağrısız olmayacaq. Ən real variant katolikosun birbaşa təzyiq altında yox, kilsədaxili kompromis və ya "könüllü istefa" görüntüsü ilə səhnədən çəkilməsi ola bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Odlar yurdu regionun enerji hasilatı lideridir

## *“Xızı–Abşeron” Külək Elektrik Stansiyası ölkənin enerji potensialını 240 MVt yüksəltdi*

**Azərbaycanın bərpaolunan enerji siyasətinin əsasında Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ilin fevralında qəbul edilən “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri” sənədi dayanır. 5 Milli Prioritetdən biri olan “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” prioriteti qarşıya yeni hədəflər qoyur.**

Bu sənəd ölkənin “yaşıl enerji” sahəsində uzunmüddətli inkişaf yolunu müəyyən edir və enerji sektorunda aparılan islahatlara aydın istiqamət verir. Qlobal iqlim çağırışları fonunda Azərbaycan enerji siyasətini yeni tələblərə uyğun şəkildə qurur. Ətraf mühitin qorunması, təbii resurslardan səmərəli istifadə və dayanıqlı iqtisadi artım bu yanaşmanın əsas dayaqları sırasında yer alır.

Azərbaycan bərpaolunan enerji ehtiyatları baxımından geniş imkanlara malik ölkə kimi tanınır. Aparılan araşdırmalar göstərir ki, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur. Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Bu göstəricilər region üçün ciddi enerji potensialı deməkdir.

Bu imkanlar enerji təhlükəsizliyinin möhkəmlənməsinə, ixrac imkanlarının genişlənməsinə və daxili tələbatın daha səmərəli ödənilməsinə şərait yaradır. Eyni zamanda, bərpaolunan enerji mənbələrinin artması ətraf mühitə yükün azalmasına mühüm təsir göstərir. Azərbaycanın “yaşıl enerji” gündəliyi bu baxımdan həm iqtisadi, həm də ekoloji məqsədlərə xidmət edir. Son illərdə bu sahədə beynəlxalq əməkdaşlıq da genişlənir. Aparıcı xarici şirkətlər ölkəmizin enerji bazarına maraq göstərir və iri layihələrə sərmayə yatırır.




Yanvarın 8-də Bakıda, “Gülüstan” sarayında Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi, Prezident İlham Əliyevin tədbirdə çıxışı bir daha qarşıya qoyulan hədəflərə doğru əmin addımlar atıldığını göstərir. Dövlət başçısı bildirib ki, Azərbaycanda enerji sisteminin müasirləşdirilməsi, modernləşdirilməsi, inkişafı son illər ərzində əsas prioritetlərdən biri kimi qəbul edilmişdir: “Demək olar ki, son 20 il ərzində bizim enerji sistemimiz, yəni generasiya gücləri, böyük dərəcəli yarımstansiyalar və ötürücü xətlər tamamilə yenilənmişdir”.

Qeyd edək ki, bu stansiya Azərbaycanın “yaşıl enerji” xəritəsində mühüm yer tutur. Bu stansiya sayəsində ənənəvi enerji mənbələrinə düşən yük azalacaq. Atmosferə atılan zərərli tullantıların həcmi də aşağı düşəcək.

Sözügedən stansiyasının investor tərəfdaşı bərpaolunan enerji sahəsində qlobal miqyasda tanınan Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətidir. Bu layihə şirkətin Azərbaycanda həyata keçirdiyi ilk təşəbbüsdür. Eyni zamanda, bu əməkdaşlıq uzunmüddətli yanaşmanın başlanğıcı hesab olunur. Dövlət başçısı vurğulayıb ki, şirkətin daha böyük planları var və Azərbaycan dövləti bu planları tam dəstəkləyir.

Stansiyanın tikinti prosesində baş podratçı funksiyasını “Power China” şirkəti yerinə yetirib. Şirkət bu layihədə texniki tərəfdaş kimi çıxış edib. Gələcək mərhələlərdə “Power China”nın Azərbaycanda icra olunacaq digər enerji layihələrində, o cümlədən sərmayədar qismində iştirakı da nəzərdə tutulur. Bu əməkdaşlıq beynəlxalq enerji təcrübəsinin ölkəmizə gətirilməsinə imkan yaradır.

Qeyd etmək yerinə düşər ki, “Xızı-Abşeron” Külək Elektrik Stansiyasından öncə, 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti tərəfindən 230 meqavat gücündə “Qaradağ” Günəş Elektrik Stansiyası istismara verilib. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərdə, xüsusilə Cəbrayıl rayonunda günəş enerjisi layihələri həyata keçirilir. Hazırda burada inşa edilən 3 Günəş Elektrik Stansiyasının ümumi gücü 340 meqavata bərabərdir.

Görülən işlər onu deməyə əsas verir ki, Azərbaycanda enerji sisteminin yenilənməsi və inkişafı əsas istiqamətlərdən biri kimi müəyyənləşib. Təxminən 20 il ərzində generasiya gücləri, iri yarımstansiyalar və elektrik ötürücü xətlər mərhələli şəkildə tamamilə müasir tələblərə uyğunlaşdırılıb. Bu dövrdə yaradılan generasiya imkanları əvvəlki mərhələlərlə müqayisədə təqribən 3 dəfə artıb. Hazırda ölkənin ümumi generasiya gücü 10 min meqavata bərabərdir və bu göstərici enerji sektorunun inkişaf tarixində ən yüksək nəticədir.

Azərbaycan ənənəvi enerji resurslarını həm daxili tələbatın ödənilməsində, həm də ixrac imkanlarının genişləndirilməsində səmərəli şəkildə istifadə edir. Bu istiqamətdə atılan mühüm addımlardan biri 2022-ci il dekabrın 17-də Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi üzrə strateji tərəfdaşlıq sazişinin imzalanması olub. Sözügedən sənəd ölkəmizin bu sahədə mövcud potensialının həyata keçirilməsinə və beynəlxalq enerji bazarındakı mövqeyinin daha da möhkəmlənməsinə imkan yaradır.

Yeri gəlmişkən, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəfin Dünya İqtisadi Forumunun saytında dərc olunmuş məqaləsində bu barədə deyilir: “Azərbaycan fəal şəkildə üç böyük "yaşıl enerji" dəhlizi formalaşdırır – Xəzər dənizi–Qara dəniz–Avropa, Azərbaycan–Türkiyə–Avropa və Mərkəzi Asiya–Azərbaycan–Avropa”. Onun sözlərinə görə, Buxarestdə imzalanmış Saziş Avropaya "yaşıl enerji" dəhlizinin formalaşdırılması istiqamətində atılan mühüm addım olub.

SOCAR rəhbəri bildirib ki, ümumilikdə üç "yaşıl enerji" dəhlizi 10 QVt-a qədər bərpa olunan elektrik enerjisi ötürə biləcək ki, bu da Azərbaycanın gələcəkdə sərhədlərarası təmiz enerji ötürmə qovşağı kimi rolunu möhkəmləndirəcək.

***Musa BAĞIRLI***
***XQ***

# Azərbaycanın rəqəmsal inkişaf hədəfləri

**Azərbaycan regionun süni intellekt mərkəzi funksiyasını yerinə yetirən dövlətə çevrilə bilər. Prezident İlham Əliyevin "Gülüstan" sarayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimində növbəti dəfə süni intellekt məsələsinə toxunması heç də təsadüfi deyil.**

Ölkə başçısı bildirdi ki, Azərbaycan bölgənin çox etibarlı və böyük elektrik generasiya gücünə malik ölkəsi olacaq: “Mən buna şübhə etmirəm. Ona görə xarici investorları həm bu sahəyə, həm də böyük həcmdə elektrik enerjisi tələb edən digər sahələrə dəvət edirəm. Xüsusilə süni intellekt, data mərkəzlərinin yaradılması və böyük enerji gücünə tələbat olan digər sahələrə investisiya qoymağa dəvət edirəm. O cümlədən Azərbaycan şirkətlərini də”.

Ona görə ki, mövcud zaman kəsiyində supergüclərin rəqabət meydanı artıq yeni texnoloji komponentlər üzrədir. Bu səbəbdən, Azərbaycanın Cənubi Qafqazda süni intellekt baxımından müasir dövrün çağırışlarına cavab verən mərkəzə çevrilməsi əsas hədəf kimi müəyyənləşib.

İlk olaraq, 2025–2028-ci illər üçün Azərbaycan Respublikasının Süni İntellekt Strategiyası ötən il martın 19-da Prezident İlham Əliyev tərəfindən təsdiqləndi. Strategiyanın dörd əsas məqsədi – iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsi, süni intellekt tətbiqi üçün əlverişli mühitin yaradılması, kadr potensialının formalaşdırılması və Sİ-nin faydalarının bütün cəmiyyət üçün təbliği bu gün də aktiv fazada özünü doğruldur. Digər tərəfdən, Prezident İlham Əliyevin təsdiqlədiyi “Rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya”da ilk dəfə olaraq Generativ Süni İntellektin (GenAİ) iqtisadiyyata verə biləcəyi real təsir konkret rəqəmlərlə müəyyənləşdirilib. Bu, ölkənin iqtisadi modelinin dəyişməsi, məhsuldarlıq artımı və yeni yüksək dəyər yaradan sahələrin formalaşması deməkdir. Strategiyaya əsasən, 2029-cu ilə qədər Azərbaycanda GenAİ-dən istifadə halları vasitəsilə yaradılan iqtisadi təsirin 70 milyon manata çatdırılması planlaşdırılır. Bu hədəflər Azərbaycanın Sİ-yə dair uzunmüddətli baxışını ifadə edir.

Təhsil sahəsində yeni müəssisələr istifadəyə verilib. Bakı Dövlət Universitetində, ADA Universitetində və digər ali məktəblərdə Süni İntellekt Araşdırma Mərkəzləri fəaliyyətə başlayıb. 2025-ci ilin sentyabrında yaradılmış “AI Academy” tədris mərkəzi xüsusi qeyd olunmalıdır. Azərbaycan gələcək Sİ mühəndislərini yetişdirməyi hədəfləyir. Burada təlimlər MIT, Stanford, Harvard, Carnegie Mellon kimi nüfuzlu universitetlərin mütəxəssisləri ilə əməkdaşlıq əsasında həyata keçirilir. Akademiyada nümayiş etdirilən milli dil modeli – 10 milyard token və milyonlarla sintetik verilənə əsaslanan prototip – ölkədə suveren Sİ imkanlarının qurulmasının mühüm istiqamətlərindən biridir.

“Holberton Azərbaycan” proqramı da mühüm təşəbbüsdür. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin “Technest” təqaüd proqramı çərçivəsində yaradılan bu məktəb PASHA Holding sponsorluğu ilə Amerikadakı Holberton School təhsil modelini Azərbaycana gətirir. Layihə 18 yaşdan yuxarı gənclərə 9 ay ərzində komanda şəklində proqramlaşdırma və maşın öyrənməsi üzrə təməl biliklər aşılayır. 60 iştirakçıya tam təqaüdlü təhsil imkanı verilir, nəticədə, məzunlar proqram təminatı mühəndisi kimi çalışa bilirlər.

Bundan başqa, Rəqəmsal İnkişaf Nazirliyinin dəstəyilə milli superkompüter yaradılıb. Böyük həcmli verilənlərin emalı və qabaqcıl Sİ modellərinin hazırlanması üçün vacib bazadır. Məhz bu hesablama gücü Azərbaycana yüksək texnologiyalı xidmətlər, məsələn, süni intellektə əsaslanan analitik platformaların qurulması imkanı verəcək.

Ötən ilin sonlarında Azərbaycanın süni intellekt sahəsində nəhəng şirkətlərlə görüşü diqqət çəkdi. Azərbaycan rəqəmsal iqtisadiyyatını genişləndirmək üçün dünya liderləri ilə dialoqa çıxıb. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ABŞ-a səfəri zamanı NVIDIA, AMD, Google, Intel və AWS kimi nəhəng şirkətlərin rəhbər şəxsləri ilə görüşüb. Bu görüşlərdən əldə olunan razılaşmalar ölkənin süni intellekt ekosistemini yeni imkanlar gətirəcək.



NVIDIA ilə əməkdaşlıq çərçivəsində ölkədə “suveren” milli Sİ platformalarının yaradılması və dövlət xidmətlərinin yüksək hesablama gücü ilə modernizasiyası məsələləri müzakirə olunub. NVIDIA texnologiyalarının strateji tətbiqi və startapların dəstəklənməsi barədə birgə təşəbbüslər nəzərdə tutulur. Belə addımlar Azərbaycanda özəl Sİ inkişafına mühüm təkan verə və yeni innovasiya mərkəzlərinin formalaşmasına xidmət edəcək.

Bu görüşlər nəticəsində yaradılacaq imkanlar: milli Sİ ekosistemi üçün texniki bazanın qurulması (bulud hesablama, superkompüterlər və laboratoriyalar), ixtisasartırma proqramları, birgə tədqiqat layihələri və strategiya investisiyalarıdır. Xüsusilə, Azərbaycan öz infrastrukturunu beynəlxalq standartlara uyğunlaşdıraraq region üçün məlumat mərkəzi rolunu gücləndirə və xarici sərmayə üçün cəlbedici sahələr (data mərkəzləri, Sİ-tədqiqat) yarada bilər.

Prezident İlham Əliyevin imzaladığı süni intellekt strategiyası ölkədə Sİ-nin inkişafına sistemli yanaşmanı təmin edir. Qeyd etdiyimiz kimi, strategiya sənədində əsas məqsədlər iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsi, əlverişli mühitin yaradılması, kadr hazırlığı, cəmiyyət üçün faydaların təşviqidir.

Strategiya çərçivəsində bu hədəflərin həyata keçirilməsi üçün məsuliyyətlər Prezident yanında İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və digər dövlət qurumlarına tapşırılıb. Məlumat təhlükəsizliyi baxımından Prezidentin sərəncamına əsasən hər bir dövlət orqanında Sİ tətbiqinin təhlükələrinə dair analiz aparılır. Strategiyanın icrasını İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (CAERC) nəzarətdə saxlayır.

Qanuni və etik çərçivənin formalaşdırılması da strategiyada xüsusi yer tutur. Artıq 2025-ci ilin sonunda Prezidentin sərəncamı ilə Sİ-nin hüquqi tənzimlənməsi sahəsində sənəd təsdiq edilib. Beləliklə, 2027-ci ilə qədər süni intellektin inkişafına dair milli qanun layihələri hazırlanacaq və beynəlxalq standartlarla uzlaşdırılacaq.

Nəticə etibarilə, Azərbaycanın 2025–2028-ci illərdə Sİ strategiyasının hədəfi ölkəni regional rəqəmsal mərkəzə çevirmək hədəfini daşıyır. Bu, həm genişmiqyaslı infrastruktur layihələri, həm də insan kapitalına sərmayə ilə dəstəklənir. Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmiz artıq 300 milyard dollardan çox xarici investisiya cəlb edib və beynəlxalq reytinqlərdə mövqelərini möhkəmləndirib. Süni intellekt sahəsində aparılan islahatlar və qurulan şərait də reytinq agentlikləri və investorlarda Azərbaycanın gələcəyə sığortalı olduğu təəssüratı yaradır.

***Nurlan ABDALOV***
***XQ***

***Ekspert rəyi***

**Elvin ABBASOV,**
**Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası idarə heyətinin sədri**



Bir məqamı qeyd edim ki, Azərbaycanın "Government AI Readiness Index 2025" hesabatındakı mövqeyi ilə ölkənin yeni enerji strategiyası arasındakı məntiqi vəhdət, milli iqtisadiyyatın resurs mərkəzli modeldən intellektual mərkəzli modelə keçidini əks etdirən strateji bir arxitektura kimi dəyərləndirilə bilər. Bu il ərzində süni intellektə hazırlıq reytinqində 111-ci pillədən 70-ci pilləyə yüksəlmə, dövlət idarəçiliyində rəqəmsal beyin infrastrukturunun qurulduğunu göstərir. Paralel olaraq, 2030–2040-cı illər perspektivində hədəflənən 20–40 qiqavatlıq enerji gücü bu rəqəmsal strukturun fiziki dayaqlarını formalaşdırır. Enerjini sadəcə xətlərlə ixrac olunan bir xammal deyil, daxildə data mərkəzlərini və süni intellekt alqoritmlərini hərəkətə gətirən "yanacaq" kimi istifadə etmək, xətti gəlirləri eksponensial əlavə dəyərlə əvəzləmək imkanı verir.

Cənubi Qafqazın regional mənzərəsində bu vəhdət Azərbaycanı fərqli bir rəqabət müstəvisinə çıxarır. Hazırlıq indeksində Azərbaycanın 70-ci yerlə liderliyi, Gürcüstanın (84-cü yer) idarətməyönümlü durğunluğu və Ermənistanın (108-ci yer) infrastruktur çatışmazlığı fonunda ölkəmizin həm "beyin", həm də "güc" faktorlarını eyni vaxtda idarə etdiyini təsdiqləyir. Gürcüstanın yaşıl enerji potensialı mövcud olsa da, enerji müstəqilliyinin olmaması və qış aylarında idxaldan asılılığı onu irimiqyaslı data mərkəzləri üçün riskli edir. Ermənistan isə enerji asılılığı və köhnəlmiş infrastruktur səbəbindən süni intellektin tələb etdiyi nəhəng hesablama güclərini təmin edə biləcək bazadan məhrumdur. Azərbaycan isə enerjini ixrac edən tərəf kimi, daxildəki texnoloji mərkəzlər üçün ən aşağı maya dəyəri və kəsintisiz təhlükəsizlik zəmanəti verə bilir.

Beynəlxalq texnologiya nəhənglərinin (Google, Microsoft, Amazon) "karbon neytral" olmaq öhdəliyi, Azərbaycanın bərpaolunan enerji strategiyasını birbaşa texnoloji investisiya maqnitinə çevirir. "Təmiz enerji" təkcə ekoloji faktor deyil, qlobal texnologiya mərkəzlərinin yer seçimi üçün əsas giriş biletidir. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda yaratdığı "Yaşıl Enerji Zonası", ölkəni regionun ən cəlbedici "Yaşıl Data Hab"ına (Məlumat Mərkəzi) çevirmək potensialına malikdir. Bu, Azərbaycanın təkcə regional deyil, qlobal rəqəmsal ipək yolunda mərkəzi qovşaq olmasını təmin edən fundamental üstünlükdür.

Yekun analiz göstərir ki, rəqəmsal hazırlıq indeksindəki artım və enerji şəbəkəsinin genişlənməsi bir-birini tamamlayan iki əsas mexanizmdir. Enerji müstəqilliyi Azərbaycana süni intellekt sahəsində strateji manevr imkanı verir. Ölkə artıq dünyaya sadəcə enerji deyil, həmin enerji ilə emal olunmuş "Hesablama Gücü" və "Bulud Həlləri" təklif edən intellektual bir güc mərkəzi kimi çıxış edir. Bu vəhdət, Azərbaycanın Cənubi Qafqazda tranzit ölkədən "istehsalçı və tənzimləyici rəqəmsal qovşaq" statusuna keçidini şərtləndirən ən güclü arqumentdir.

# Azərbaycan regional süni intellekt və informasiya texnologiyaları mərkəzinə çevriləcək

*ABŞ şirkətləri ilə tərəfdaşlıq isə qlobal texnoloji ekosistemə inteqrasiyanı gücləndirəcək*

**Müasir dövrdə dövlətlərin inkişaf səviyyəsi təbii sərvətlərin həcmi artan, sənaye potensialı və iqtisadi göstəricilərlə bərabər, həm də rəqabət mühitini formalaşdıran informasiya-kommunikasiya texnologiyaları, süni intellekt, rəqəmsal iqtisadiyyat və kibertəhlükəsizlik sahələrinin tərəqqisi ilə müəyyənləşdirilir. Bu reallıq fonunda Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə səsləndirdiyi fikirlər ölkənin gələcək inkişaf prioritetləri barədə aydın təsəvvür yaradır.**

Dövlət başçısının "Azərbaycanın hədəflərindən biri də regional süni zəka qovşağına, informasiya texnologiyaları (İT) mərkəzinə çevrilməkdir" bəyanatı təsadüfi deyil. Bu fikir son illərdə həyata keçirilən ardıcıl islahatların, qəbul edilən strateji sənədlərin və formalaşdırılan institusional mühitin məntiqi ifadəsidir. Azərbaycan liderinin vurğuladığı kimi, bu önəmli məqsədə nail olmaq üçün ölkədə həm güclü siyasi iradə, həm də zəruri potensial mövcuddur.

Xatırladaq ki, ölkə rəhbəri həmin müsahibəsində daha sonra bildirib: "Kibertəhlükəsizlik mərkəzinin yaradılması, mütəxəssislərimizin təlimi ilə bağlı planlarımız və artıq icra olunmuş layihələrimiz var – biz bir çox mütəxəssislərimizi xaricə təlimlərə göndəririk və eyni zamanda, Azərbaycanda təlimlər təşkil edirik – hədəfimiz, bağlılıqla yanaşı, süni zəka və İT üçün bir haba çevrilməkdir. Potensial mövcuddur. Güclü siyasi iradə mövcuddur. Əlbəttə ki, biz Amerika şirkətlərini əsas tərəfdaşlarımız hesab edirik".

Bu məqamda vurğulayaq ki, qloballaşan dünyada süni intellekt və İT iqtisadi artımın əsas lokomotivinə çevrilməklə yanaşı, milli təhlükəsizliyin, dövlət idarəçiliyinin və cəmiyyətin dayanıqlılığının başlıca amillərindən biri kimi çıxış edir. Aparıcı ölkələrdə bu sahə artıq klassik infrastruktur layihələri ilə eyni strateji əhəmiyyətə malik istiqamət kimi qiymətləndirilir.

Ümumiyyətlə, Azərbaycan üçün regional süni intellekt və İT mərkəzinə çevrilmək hədəfi yalnız texnoloji inkişaf məsələsi deyil. Bu, eyni zamanda, ölkənin geosiyasi mövqeyini möhkəmləndirmək, iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, qeyri-neft sektorunda yüksək əlavə dəyər yaradan sahələri inkişaf etdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Cənubi Qafqaz və Xəzər regionunda yerləşən Azərbaycan üçün belə bir istiqamət yeni nəsil liderlik modelinin formalaşdırılması deməkdir.

## Rəqəmsal dövlət quruculuğu və idarəetmədə transformasiya

Son illərdə respublikada rəqəmsal dövlət quruculuğu sahəsində mühüm uğurlar əldə olunub. Elektron hökumət sisteminin genişləndirilməsi, dövlət xidmətlərinin rəqəmsallaşdırılması, "ASAN xidmət" modelinin tətbiqi ilə dövlət-vətəndaş münasibətlərində şəffaflıq və operativlik əhəmiyyətli dərəcədə çoxalıb. Bu model artıq beynəlxalq səviyyədə də uğurlu nümunə kimi qiymətləndirilib.

Rəqəmsallaşma prosesi yalnız xidmətlərin elektron formaya keçirilməsi ilə məhdudlaşmır. Bu, həm də dövlət idarəçiliyində məlumatların toplanılması, emalı və təhlili mexanizmlərinin mərhələli şəkildə müasir İT həllərinə əsaslanır. Nəticədə isə süni intellekt texnologiyalarının tətbiqi üçün real zəmin yaranır və paralel olaraq informasiya təhlükəsizliyinin gerçəkləşdirilməsi reallaşır.



Bütün bunlarla bərabər, son illərdə kibertəhlükəsizliyin inkişafı milli təhlükəsizliyin əsas sütunlarından biri kimi diqqətdə saxlanılıb. Prezident İlham Əliyevin müsahibəsində xüsusi diqqət yetirdiyi kibertəhlükəsizlik məsələsi müasir dövrdə milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsinə çevrilib. Çünki informasiya məkanına yönələn hücumlar artıq təkcə texniki problem deyil, eyni zamanda, dövlətlərin sosial-iqtisadi sabitliyini, ictimai etimadı və strateji infrastrukturların fəaliyyətini ciddi təhdid olaraq hədəfə alıb.

Bu baxımdan Prezident İlham Əliyevin 28 avqust 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası" xüsusi əhəmiyyət daşıyır. Strategiyada informasiya məkanının müasir təhdidlərdən qorunması milli təhlükəsizliyin əsas istiqamətlərindən biri kimi müəyyən edilir. Sənəddə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı fonunda yaranan risklərin təhlili, mühafizə obyektlərinin dəqiqləşdirilməsi, informasiya infrastrukturlarının funksional dayanıqlılığının təmin olunması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi əsas prioritetlər kimi göstərilir.

Adıçəkilən strategiyada daha sonra bildirilir ki, ölkənin informasiya məkanının müasir təhdidlərdən qorunması milli təhlükəsizliyin əsas istiqamətlərindəndir. Respublikanın sosial-iqtisadi tərəqqisinin aparıcı qüvvəsi olan informasiya-kommunikasiya texnologiyalarının (İKT) dinamik inkişafı bu sahədə mövcud və yeni yaranan risklərin təhlilinin aparılmasını, mühafizə obyektlərinin dəqiqləşdirilməsini, onların aid olduğu informasiya infrastrukturlarının funksional dayanıqlılığını, eləcə də bu infrastrukturlardan istifadə edən subyektlərin hüquq və qanuni maraqlarını şərtləndirir.

Qloballaşan dünyada informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin gerçəkləşdirilməsi istər milli, istərsə də beynəlxalq səviyyədə əsas məsələyə çevrilmişdir. Bu fəaliyyətdə insan, cəmiyyət və dövlət maraqlarının qorunması başlıca məqsəddir. Son zamanlar Azərbaycanın informasiya məkanına, o cümlədən onun tərkib hissələrinə qarşı texnoloji cəhətdən çoxşaxəli hücumlar genişlənməkdədir.

## Kompleks yanaşma və normativ-hüquqi baza

"Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası"nın əsas üstünlüklərindən biri informasiya təhlükəsizliyinə kompleks yanaşmanın tətbiq edilməsidir. Belə ki, hüquqi, təşkilati, əməliyyat-axtarış, elmi-texniki, təhsil, kadr təminatı və iqtisadi mexanizmlərin əlaqələndirilmiş şəkildə həyata keçirilməsi kibertəhlükəsizliyin sistemli şəkildə idarə olunmasına imkan yaradır. Bu sahədə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, informasiya təhlükəsizliyi üzrə institusional mexanizmlərin formalaşdırılması respublikamızın qeyd edilən sahədə dayanıqlı müdafiə imkanlarını getdikcə artırır.

Prezident İlham Əliyevin xüsusi vurğuladığı məsələlərdən biri də bu sahədə kadr hazırlığı ilə bağlıdır. Başqa sözlə, dövlət başçısının qeyd etdiyi kimi, kibertəhlükəsizlik və süni intellekt sahəsində uğur qazanmağın əsas şərti yüksəkixtisaslı insan resurslarının formalaşdırılmasıdır. Son illərdə bir çox mütəxəssislərin xarici ölkələrə təlimlərə göndərilməsi, ölkə daxilində beynəlxalq standartlara uyğun tədris proqramlarının təşkil olunması da bunun bariz ifadəsidir. Eyni zamanda, ali təhsil müəssisələrində İT və süni intellekt ixtisaslarının genişləndirilməsi, elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması, gənclərin innovativ layihələrə cəlb edilməsi ölkəmizin uzunmüddətli rəqəmsal inkişaf strategiyasının əsas istiqamətlərindəndir.

Bu isə deməyə əsas verir ki, respublikanın kibertəhlükəsizlik üzrə kadr potensialının gücləndirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biridir. Rəqəmsal cəmiyyət quruculuğunda informasiya təhlükəsizliyini reallaşdırmaq məqsədilə yüksəkixtisaslı, çevik düşüncəli və beynəlxalq təcrübəyə bələd olan mütəxəssislərə ehtiyac daha da artmaqdadır. Dövlət səviyyəsində qəbul edilən strateji yanaşmalar və atılan əməli addımlar da kibertəhlükəsizlik üzrə insan kapitalının inkişafının təkcə texnologiyanın öyrənilməsi ilə məhdudlaşmadığını, eyni zamanda, milli təhlükəsizliyimizin ayrılmaz hissəsinə çevrildiyini sübut edir.

Ölkəmizin regional İT qovşağına çevrilməsi üçün güclü startap ekosisteminin formalaşdırılması da əsas şərtlərdən biridir. Texnoparkların yaradılması, innovasiya mərkəzlərinin fəaliyyəti, startaplara verilən dəstək mexanizmləri bu sahədə mühüm irəliləyişlərə imkan yaradır. Yerli texnologiya şirkətlərinin inkişafı və onların dövlət sifarişləri ilə dəstəklənməsi rəqəmsal iqtisadiyyatın möhkəmlənməsinə xidmət edir.

Prezident İlham Əliyevin müsahibədə Amerika şirkətlərini əsas tərəfdaş kimi qeyd etməsi isə Azərbaycanın qlobal texnoloji ekosistemə inteqrasiyaya böyük önəm verməsinin göstəricisidir. Aparıcı beynəlxalq texnologiya şirkətləri ilə əməkdaşlıq qabaqcıl bilik və təcrübənin ölkəyə gətirilməsinə, eyni zamanda, yerli mütəxəssislərin qlobal şəbəkələrə qoşulmasına şərait yaradır. Bütün bu amillər nəticəsində Azərbaycanın regional süni intellekt və İT mərkəzinə çevrilməsi ölkəmizin artıq konseptual ideyadan praktik icra mərhələsinə keçdiyini göstərir. Güclü siyasi iradə, strateji planlama, normativ-hüquqi baza, insan kapitalına yatırımlar və beynəlxalq tərəfdaşlıq bu hədəfin tam reallaşması üçün möhkəm zəmin yaradır.

Yeri gəlmişkən, kibertəhlükəsizliyin gücləndirilməsi ilə əlaqədar ABŞ-la bu sahədə tərəfdaşlıq ölkəmizə böyük üstünlüklər qazandırır. Süni intellekt, rəqəmsal idarəetmə, "ağıllı" şəhər və kənd layihələri, kibertəhlükəsizlik, eləcə də rəqəmsal iqtisadiyyatın inkişafı sahələrində Amerika texnologiyalarının tətbiqi Azərbaycan iqtisadiyyatının gələcək dayanıqlılığını şərtləndirir. Bundan başqa, rəqəmsal transformasiya respublikamızda biznes mühitini daha da yaxşılaşdırır, startap ekosistemini gücləndirir və qeyri-neft sektorunun rəqabət qabiliyyətini artırır. Bu isə Azərbaycanın iqtisadi şaxələndirmə strategiyasının mühüm tərkib hissəsi kimi diqqət çəkir.

Ekspertlərin fikrincə, Azərbaycan–ABŞ kibertəhlükəsizlik əməkdaşlığı gələcəkdə daha da genişlənəcək. İlk növbədə, tətbiq olunan süni zəka əsaslı idarəetmə sistemləri və avtomatlaşdırma həlləri sənaye, kənd təsərrüfatı və xidmət sektorlarında səmərəliliyi artıracaq. Rəqəmsal texnologiyalar sahəsində ixtisaslaşmış kadrlar üçün minlərlə yeni iş imkanı yaranacaq. Yerli informasiya texnologiyalar və startap şirkətlərinin ABŞ bazarına çıxışı asanlaşacaq, Azərbaycan regional texnoloji mərkəz statusu qazana biləcək. Amerika texnologiyalarının tətbiqi ilə dövlət və özəl sektorda məlumat təhlükəsizliyi səviyyəsi yüksələcək. Eyni zamanda, "Fintech" sahəsində əməkdaşlıq isə nağdsız ödənişlərin və elektron kommersiyanın daha sürətli inkişafına şərait yaradacaq.

Azərbaycan liderinin müəyyənləşdirdiyi bu strateji kurs respublikanın qlobal rəqəmsal xəritədə mövqeyini möhkəmləndirir, ölkəni innovasiyaya əsaslanan təhlükəsiz və dayanıqlı inkişaf modelinə doğru aparır. Süni intellekt və kibertəhlükəsizlik sahəsində atılan addımlar Azərbaycanın yalnız bugünkü deyil, həm də gələcək onilliklərdəki inkişafının da əsasını təşkil edir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Rəqəmsal tərəqqi misə tələbatı yüksəldir

**Süni intellekt və müdafiə sektorlarındakı inkişaf 2040-cı ilə qədər qlobal mis tələbini 50 faiz artıracaq.**

Bu barədə "S&P Global" şirkətinin açıqladığı yeni hesabatda bildirilib.

Uzun müddətdir ki, tikinti, nəqliyyat, texnologiya və elektronika sahələrində geniş istifadə olunan mis ən yaxşı elektrik keçirici metallardan biridir. O, korroziyaya davamlıdır və asanlıqla şəkilləndirilə, formalaşdırıla bilir. Son bir neçə ildə elektromobil sənayesi misə tələbatı artırsa da, süni intellekt, müdafiə və robototexnika sahələrinin inkişafı növbəti 14 ildə daha çox mis ehtiyacı yaradacaq. Bu tələbat, eyni zamanda, ənənəvi istehlakçı tələbləri olan kondisionerlər və digər mis tələbatlı cihazlarla paralel olacaq.

Qlobal miqyasda misə tələbat 2025-ci ildə 28 milyon ton idisə, 2040-cı ilə qədər bu rəqəmin 42 milyon ton olacağı gözlənilir. Qeyd olunub ki, yeni təchizat mənbələri olmadan bu tələbin, təxminən, dörddəbiri qarşılanmayacaq.

Qeyd edək ki, süni intellekt misə tələbatı artıracaq sahələrdən biridir. Ötən il yalnız 100-dən çox yeni data mərkəzi layihəsinin dəyəri, təxminən, 61 milyard dollar olub. Ukraynada baş verən münaqişə və Yaponiya, Almaniya kimi ölkələrin müdafiə büdcələrini artırması da mis tələbini artıracaq.



Demək olar ki, hər bir elektron cihazda mis mövcuddur. Çili və Peru ən böyük mis mədənçiliyi ölkələridir, Çin isə ən böyük mis əridicisi olaraq ön plandadır. ABŞ misin bir hissəsini idxal edir və illik olaraq ehtiyacının yarısını xaricdən alır.

***XQ***

# Səudiyyə Ərəbistanı ilə enerji əməkdaşlığı müzakirəsi

**Energetika Nazirliyindən bildirilib ki, bu müzakirələr "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının (KES) açılış mərasimi çərçivəsində energetika naziri Pərviz Şahbazovla Səudiyyə Ərəbistanının energetika nazirinin müavini Nasser Əl-Qahtani arasında keçirilən görüşdə aparılıb.**



İki ölkə arasında güclü dostluq və tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə edilib. "ACWA Power" şirkəti ilə həyata keçirilən 240 MVt gücündə "Xızı-Abşeron" KES qardaşlığın və tərəfdaşlığın rəmzi kimi dəyərləndirilib. Bu əməkdaşlığın digər perspektivli layihələrlə genişlənəcəyi qeyd edilib.

Söhbət zamanı Səudiyyə Ərəbistanı ilə "OPEC+" formatında, həmçinin karbohidrogen, bərpaolunan enerji, enerji səmərəliliyi və tənzimləməsi istiqamətlərində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb. Enerji sahəsində regional bağlantılar, Mərkəzi Asiya, Avropa və Yaxın Şərq arasında enerji interkonnektivliyin artırılması ilə bağlı planlar çərçivəsində əməkdaşlıq imkanları dəyərləndirilib.

***XQ***



# Qara dəniz və Aralıq dənizində neft axtarışı

**Türkiyənin TPAO milli neft şirkəti və "ESSO Exploration International Limited" ("ExxonMobil"in törəmə strukturu) neft-qaz sektorunda Anlaşma Memorandumu imzalayıb. Bu barədə Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib.**




Sənəd Qara dəniz və Aralıq dənizində yeni kəşfiyyat ərazilərini, tərəflərin birgə müəyyən edəcəkləri digər potensial beynəlxalq sahələri əhatə edir.

Alparslan Bayraktar qeyd edib ki, dərin sularda kəşfiyyat və qazma sahəsində texniki imkanları "ExxonMobil"in beynəlxalq təcrübəsi ilə birləşdirərək işlərin səmərəliliyini artırmaq, eləcə də yeni kəşflər üçün şərait yaratmaq niyyətindəyik. Beynəlxalq əməkdaşlıq hesabına imkanlarımızı gücləndiririk və regionumuzun enerji mərkəzinə çevrilməsi istiqamətində irəliləyirik.

***XQ***

*I Türkoloji qurultay – 100*

# 100 il əvvəldən gələn səslər

## *Ən maraqlı məruzələrin icmalı və şərhi*



**(əvvəli qəzetimizin 7 yanvar 2026-cı il sayında)**

Aydındır ki, Altay dillərinin müqayisəli öyrənilməsi üçün vaxt yetişməmişdi. Bu vaxt yalnız hələ də öyrənilməmiş Altay – tunqus və monqol dillərinə dair az-çox material toplandıqdan sonra yetişəcəkdi. Bu faktın açıqlanması acınacaqlı olsa da, vəziyyət ilə barışmaq və boşluqları aradan qaldırmaq lazımdır. Təbii ki, seçim canlı monqol dillərində (ləhcələrində) dayanmalıdır ki, yazılı monqol dili ilə əlaqəsi aydınlaşdırılsın və ümumi də olsa, monqol dilinin tarixi barədə təsəvvür yaransın. Bu seçim, tamamilə aydındır, monqol dili qədim yazı mədəniyyətinə malikdir, nəticə etibarilə onun tarixinin üzə çıxarılması yazısı olmayan tunqus, yaxud mancur dilinin tarixini müəyyən etmək qədər çətin olmayacaq. Bununla yanaşı, monqol ləhcələrinin tədqiqi müqayisəli Altay dilçiliyinə böyük xidmət göstərəcəkdi, çünki Altay dilləri arasında məhz monqol və türk dillərinin bir-birinə daha yaxın olduğu artıq müəyyən edilmişdi. Şübhəsiz ki, Ramsted də bu mülahizələrə əsaslanmışdı. Kalmık və monqol dillərini öyrənmək, monqol ləhcələrinə dair material toplamaq məqsədilə kalmık çöllərinə, daha sonra Əfqanıstan sərhədlərinə səfər etməli olmuşdu.

İlk altaistlərin – Şott və onun davamçılarının səhvlərindən danışılarkən, ilk növbədə, araşdırmaların məhdud sayda dil üzrə aparıldığı üçün yetərli nəticə əldə edilmədiyi qeyd olunmalıdır.

Məsələn, monqol və tunqus dilləri arasındakı əlaqələri aydınlaşdırmaqla məhdudlaşmaq əvəzinə, onlar bütün Altay dilləri arasındakı qarşılıqlı münasibətləri eyni anda müəyyənləşdirmək kimi mümkünsüz bir vəzifə götürdülər. Belə bir tədqiqat yalnız o zaman başlaya bilərdi ki, hələ öyrənilməmiş Altay dilləri, canlı monqol və tunqus dialektləri haqqında daha dolğun və əhatəli material toplanmış olsun. Çoxdan müəyyən edilmişdi ki, Altay dilləri içərisində bir-birinə ən yaxın olanlar məhz monqol və türk dilləridir. Ramsted monqol və türk dillərinin müqayisəli morfologiyası sahəsində, müəyyən tunqus materialını da cəlb etməklə ilk ciddi elmi işlər görmüşdü. O dövrdə artıq Rodlofun türk ləhcələrinin müqayisəli fonetikası vardı və Gronbex tərəfindən hazırlanmış və bu günə kimi türk ləhcələrinin ilk tarixi fonetikası meydana çıxmışdı. Ramsted monqol-türk dillərinə dair ilk tədqiqatlarında bir sıra olduqca mühüm fonetik qanunauyğunluğu müəyyən etmişdir. Məsələn, çuvaş dilində olduğu kimi, monqol dilində də türk dilindəki "z" və "ş" səsləri ilə "r" və "l" səsləri eynilik təşkil edir – bu, daha əvvəl Şott və digər tədqiqatçılar tərəfindən müəyyən edilmişdir. Bu uyğunluqdan danışarkən tunqus ləhcələrini yaddan çıxarmaq olmaz. Onların Altay dillərinə mənsubluğu və monqol dilləri ilə qohumluğu hələ tam sübuta yetirilməmişdir.

Ramsted bu məsələyə əvvəlki nəzəriyyələrə əsaslanmadan yanaşmışdı. Bu dillərin müqayisəli tədqiqatı ilə bağlı ilk işlərində monqol və türk dilləri arasındakı müəyyən qarşılıqlı əlaqələrin xarakteri haqqında fikir söyləməmişdir. O, monqol dilinin əhəmiyyətli dərəcədə türk dili ilə yaxınlığını kütləvi alınmaların nəticəsi kimi əlaqələndirmişdir. Müəyyən edilmişdir ki, türk dilində söz əvvəlində işlənən "y" səsi əslində dörd müxtəlif səsin – "č" (c), "j", "n" və "d" səslərinin nəticəsi kimi meydana gəlmişdir. Bu səslərin hamısı bu günədək monqol dilində qorunub saxlanmışdır.

Bir sıra olduqca mürəkkəb monqol-türk fonetik qanunları qoyulduqdan və həmin dillərin ümumi morfoloji elementləri aşkar edildikdən sonra Ramsted monqol və türk dillərinin qohumluq hipotezini müdafiə etmiş və sonrakı əsərlərində dəfələrlə proto-monqol-türk dili haqqında bəhs edilmişdir.

Monqol və türk dillərinin qohumluğunu hər kəs dərhal qəbul etmədi. Məsələn, 1912-ci ildə Nemet monqol-türk dillərinin qohumluq nəzəriyyəsinə qarşı çıxsa da, qısa müddət sonra onların qohum olduğunu qəbul etmişdi. Bununla da Nemet monqol, türk və çuvaş dillərinin tarixinin 4 inkişaf mərhələsini qeyd etməyə çalışmışdır:

1. İbtidai qohumluq dövrü;
2. Çuvaş-monqol dillərinin qarşılıqlı təsir dövrü;
3. Tatar-monqol qarşılıqlı təsir dövrü;
4. Monqol dilindən yakut dilinə alınmalar dövrü.

Xüsusilə, monqol-çuvaş səsləri olan "r" və "l" ilə türk dillərindəki "z" və "ş" səsləri arasındakı uyğunluğu Nemet bu dillərin ikinci dövrdə, yəni çuvaş-monqol qarşılıqlı təsir mərhələsində birgə inkişafının nəticəsi kimi izah etmişdi.

Beləliklə, Poppe müqayisəli Altay dilçiliyinin tarix boyu tədqiqat dairəsinin ardıcıl olaraq turanizmdən Ural-Altay nəzəriyyəsinə, daha sonra isə iki dilin: türk və monqol dillərinin müqayisəli öyrənilməsinə doğru daraldığını qeyd etmişdir.

Poppenin qənaətinə görə, fonetika sahəsində samitlər sistemi (sözün əvvəlində və ortasında) daha ətraflı işlənilmişdir. Morfologiya sahəsində az nailiyyət əldə edilmişdir; feil bölməsinin (feilin yaranması və təsriflənməsi) işlənmiş, isim bölməsinin (ismin adlanması və hallanması) hələ də ətraflı tədqiqinə ehtiyac var. Perspektivlər:

– fonetikada monqol və türk dillərində vokalizmin (saitlərin) tarixi inkişafının, xüsusən ilk və sonrakı hecalarda səslərin uyğunluğunun öyrənilməsi, həmçinin bu dillərdə sait harmoniyasının mənşəyi məsələsinin aydınlaşdırılması;

– xüsusi olaraq türk müqayisəli fonetikasında isə pratürk uzun saitlərinin mənşəyi və onların yakut dilində və bəzi digər ləhcələrdəki əksinin araşdırılması.

– türk–monqol morfologiyası sahəsində isə isim köklərinin yaranması, hallanma sisteminin işlənməsi, həmçinin köklərin müəyyənləşdirilməsi məsələsinin öyrənilməsi;

– Tunqus ləhcələrinin Altay dillərinə mənsubiyyəti, monqol və türk dilləri ilə qohumluğu hələ tam sübut edilməmişdir. Türk və monqol dillərinin öyrənilməsində olduğu kimi, ilk növbədə, materialların toplanması, lüğətlərin tərtibi, qrammatik icmalların hazırlanması, tunqus ləhcələrinin qarşılıqlı münasibətlərinin öyrənilməsi və digər dilləri işə qatmadan müqayisəli tədqiqi.

– Altay və Ural dillərinin qohumluğu məsələsinin də paralel şəkildə araşdırılması.

Fin-uqor və Altay dillərinin tam müqayisəli qrammatikalarının, fin-uqor və ya Ural, eləcə də Altay pradilinin fonetik sistemi bərpa olunduqdan sonra artıq ayrı-ayrı sözləri deyil, prafin və praaltay sözlərini daha uğurla müqayisə etmək.

* * *

Poppe öz məruzəsində əsasən 3 məsələni araşdırır:

1. Türk – monqol – tunqus dillərinin qohumluğu problemi
2. Bu problemin tarixi tədqiqat mərhələləri
3. Mövcud nəzəriyyələrin elmi səhvləri, boşluqlar və yenilənmə zərurəti

Birinci məsələ üzrə qeyd edir ki,

1. Ural-Altay dövrü

Türk, monqol, tunqus dilləri yalnız "Ural-Altay adlı geniş və qeyri-dəqiq bir ailənin tərkib hissəsi kimi öyrənilirdi. Qohumluq faktı əsasən tipoloji bənzərliklər, aqlütinasiya və sintaktik oxşarlıqdır.

2. Altay dillərinin ayrıca qrup kimi araşdırılması

Türk – monqol – tunqus dilləri Ural dillərindən ayrılaraq müstəqil bir qrup kimi nəzərdən keçirilməyə başlandı. Bu mərhələdə daha çox fonetik müqayisə aparılır.

Poppe I mərhələni hazırlıq dövrü adlandırır və qeyd edir ki, o dövrün səhvləri yeni mərhələ üçün "öyrədici material" olmuşdur.

O, erkən təsnifatlar və onların çatışmazlıqlarından bəhs edərkən tənqidi fikirlərini söyləyir: "Stralenberq tatar xalqlarının 6 qrup üzrə təsnifatını verib – bunu işin müsbət tərəfi kimi dəyərləndirsə də, mənfi tərəfini qrupların bir-birinə uyğun gəlməməsi ilə izah etmişdi. Daha sonra məruzəsində Rasmus Raskın "skif" nəzəriyyəsinə münasibət bildirmişdir: "Rask Avropadan Qafqaza, hətta Amerika və Qrenlandiyaya qədər müxtəlif xalqları "skif" çətiri altında birləşdirir, tamamilə qeyri-elmi və həddən artıq genişlənmiş təsnifatdır". Poppe M.Müllerin "Turan dilləri" təsnifatında aqlütinativ dilləri (türk, Tibet, Malay, Cənubi Hindistan) birləşdirdiyinə tənqidi yanaşmış, qohumluq sərhədlərinin qeyri-müəyyənliyini, terminlərin siyasi-coğrafi assosiasiya yaratdığını qeyd etmişdir. Onun qənaətinə görə, erkən təsnifatlar metodoloji cəhətdən zəifdir və dilçilik elmi üçün yetərli baza yaratmır.

Poppe məruzəsində Altay nəzəriyyəsinin formalaşmasında Kastren, Şott, Ramsted, Nemetin rolunu da vurğulayır: "Kastrenin tədqiqatları Ural-Altay nəzəriyyəsinə böyük təsir etdi, ilk dəfə empirik material topladı. Şott leksik uyğunluqları deyil, fonetik qanunları və morfologiyanı araşdırıb, çuvaş dilinin türk qrupuna aidliyini ilk dəfə elmi əsasla sübut edib, r–z, l–ş uyğunluqlarını müəyyən edib. Bu çox əhəmiyyətlidir. Ramsted türk – monqol qohumluğunun ən güclü müdafiəçisidir, protomonqol – prototürk hipotezini irəli sürüb, bir sıra mühüm fonetik qanunları aşkar edib: türk "y" səsinin tarixi olaraq 4 səsdən törəməsi, monqol və türk dillərində r/l – z/ş uyğunluqları, morfoloji paralellər. Poppe bildirir ki, Ramsted çox nəhəng iş görsə də, tunqus dilləri haqqında məlumat çatışmır. Nemet əvvəlcə qohumluğu inkar etmiş, sonra qəbul etmiş və tarixi münasibətləri 4 mərhələyə ayırmışdır: ibtidai qohumluq;, çuvaş – monqol; tatar – monqol qarşılıqlı təsirləri;, monqol → yakut alınmaları.

Ümumiyyətlə, Altay dillərinin müqayisəli araşdırılmasında əsas boşluqlara: tunqus, mancur, canlı monqol dialektlərinin kifayət qədər öyrənilməməsinə işarə edir. Poppe qeyd edir ki, tədqiqatçılar bütün Altay dillərini eyni anda müqayisə etmək kimi qeyri-mümkün hədəf qoymuşdular. Bu, nəticə etibarilə səthi bənzərliklərə əsaslanmış nəzəriyyələrin yaranmasına səbəb olur. Monqol-türk əlaqələrində bəzi fonetik qanunlar sübut olunsa da, mənşə deyil, "kütləvi alınmalar" ola bilər. Tunqus materialı olmadan Altay nəzəriyyəsinin tam şəkildə qurulması mümkün deyil.

Poppenin nəticə etibarilə elmi qənaətinə görə, Altay nəzəriyyəsi hələ qurulmamışdır və səbəb olaraq material çatışmazlığını, müqayisələrin qeyri-kafi və metodların natamamlığını bildirir. Ən real və elmi əsaslı istiqamət türk-monqol dillərinin müqayisəsi və tunqus materialının tədricən əlavə olunmasıdır. Fonetik araşdırmalar xeyli irəliləsə də, morfologiya çox geri qalıb. Elmi cəhətdən isə yalnız türk və monqol dilləri arasında real paralellər var. Tunqus dilləri hələ qeyri-müəyyəndir. Altay nəzəriyyəsini yenidən qurmaq üçün daha çox sahə işi, dialektləri öyrənmək, yeni metod tətbiq etmək lazımdır.

**Linqvist, etnoqraf və qafqazşünas A.N.Genko "Türk dillərinin yafəs dilləri ilə münasibəti haqqında"** məruzəsində, müzakirə edilən faktları nəzərə alaraq, ədəbiyyat sahəsində olduğu kimi, dillərin əlaqəsi məsələsinin çoxmənalı həllinə yol açdığını bildirir. O qeyd edir ki, ən inandırıcı, tədqiq edilmiş və elmi əsası olan dil əlaqəsi dedikdə, ilk növbədə, genetik qohumluq anlayışı başa düşülür. Bu, qədim tarixə malik və bir vahiddə birləşən ayrı-ayrılıqda mövcud olmuş bir neçə dilin, yaxud dil ailəsinin əlaqəsidir. Lakin ayrı-ayrı sözlər arasında olan əlaqədən başqa qrammatik qohumluq, yəni morfoloji sistem də var. Bu qohumluq xalqların keçmişi, qarşılıqlı münasibətləri baxımından az əhəmiyyət kəsb etməyən daha digər qohumluq tiplərinin mövcudluğunu istisna etmir; 3 tip belə qohumluq əlaqəsi mövcuddur. Hind-Avropa və semit dilləri arasındakı qohumluq preqrammatik (qrammatikadan əvvəlki) qohumluq adlanır. Bu, dil ailəsinə məxsus adi əlaqə tipindən fərqli olaraq, yalnız lüğəvi uyarlıq deyil, morfoloji sistem oxşarlığına əsaslanır. Həmçinin qrammatik qohumluq əlaqələri kimi izah olunan, yalnız morfoloji mənada deyil, digər əsas mənada anlaşılan qohumluq tipi. Bu iki qohumluq tipi barədə heç bir yazılı mənbə məlumat vermir. Üçüncü, son zamanlar ətrafında mübahisələr yaranmış substratlar nəzəriyyəsidir ki, bu günə qədər tam anlaşılmamışdır. Etiraf etməliyik ki, xalqların həyatında daimi bir əvəzetmə mövcuddur; mədəni varislik hadisəsi davam edir. Dil isə mədəni hadisədir, varislik burada da özünü göstərir. Nəhayət, dil əlaqəsi anlayışının dördüncü tipi ən geniş yayılmış, lakin dilçilərin nəzərincə, az əhəmiyyət daşıyan tarixi qohumluq əlaqəsidir; bu tip bir xalqın digər xalqa tam, yaxud qismən qarışması, uzun müddət eyni ərazidə yaşaması və qarşılıqlı mədəni mübadilə zəminində formalaşır.

Genko qeyd edir ki, əsasən Qafqaz dillərini ifadə etmək üçün elmi ədəbiyyatda işlədilən Yafəs dilləri bir tərəfdən dağ dilləri, digər tərəfdən Zaqafqaziya (gürcü və qohum olan) dilləri kimi də tanınır.

Əlbəttə, Yafəs dillərinin Qafqaz ərazisindən təcrid olunmuş şəkildə mövcudluğunu düşünmək kobud səhv olar. Əksinə, indi Qafqazdakı Yafəs dilləri keçmiş zamanlarda həm ərazi baxımından, həm mədəni mahiyyətinə görə mövcud olmuş kifayət qədər əhəmiyyətli böyük bir bütövün qalıqları olduğunu təsdiq etməyə elmi əsaslar var. Əlimizdəki məlumatlara görə, Yafəs dilləri Qafqazın cənubuna doğru, Ön Asiya, ola bilsin ki, bir qədər də uzaq ərazilərdə yayılmışdır, əvvəlki məruzələrdə də bu qəbildən olan bir çox məsələyə toxunulmuşdur.

Genko məruzəsində türk xalqlarının Qafqazda məskunlaşmasının daha qədim dövr hadisəsi olduğunu qeyd edir: "Hunlar ilə bağlı verilmiş qərarlar arasında onların türk mənşəli və sonrakı dövrlərdə eyni tarixi ərazini paylaşan türklərin sələfi olduqları barədə məlumat var. Bu zaman türk dillərinin Yafəs dilləri ilə mümkün əlaqələrinin olub-olmaması sualı özü-özlüyündə mürəkkəb və əhatəli bir məsələnin həllini daha da çətinləşdirir. Biz bu gün az-çox ehtimalla Qafqaz ərazisindəki əhalinin məskunlaşma tarixini təsdiq edə bilərik. Bunu təqribən XIII – XIV əsrlərə: monqol dövrünə aid etmək olar.

Cənubi Rusiyada türk dövlətlərinin məğlubiyyətindən sonra türklərin Şimali Qafqazda məskunlaşma prosesi bu dövrdə başa çatmışdır, Cənubi Qafqazda məskunlaşması isə bir qədər əvvəl baş versə də, etnik xəritənin son forması həmin dövrə aiddir. Sual yaranır: buna qədər nə olmuşdu? Buna qədər olanlar e. VI əsrindən etibarən, türk tayfalarının Qafqaz xalqları ilə təmasda olmaları məlumdur və həmin dövrdən başlayaraq, qarşılıqlı mübadilə üçün qeyri-linqvistik real şərtlər vardı. Deməli, bu suala cavab vermək üçün bir qədər əvvələ – daha qədim dövrə qayıtmalıyıq. VI əsr ixtiyarımızda olan həmin tarixi ənənəyə təsadüf edir. Mövcud materiallar bizi bu sözləri deməyə məcbur edir: "Öncəliklə Qafqazda türk dillərinin, Yafəs dilinin öyrənilməsi arzuolunan səviyyədə deyil, kifayət qədər material toplanmayıb. Konkret olaraq Azərbaycan, qaraçay və s. dillərin elmi ədəbiyyatda təqdimatı məsələnin geniş miqyasda həllinə imkan vermir. Əminəm ki, Yafəs dilləri onilliklər, əsrlər boyu Qafqaz ətrafında baş verənləri özündə əks etdirən bir güzgü olacaq".

* * *

Genko "dillərin əlaqəsi" anlayışının çoxmənalı olduğunu qeyd edir və bu anlayışın dörd fərqli mənada istifadə olunduğunu bildirir:

I. Genetik qohumluq: ən etibarlı, elmi əsaslı əlaqə formasıdır; ortaya çıxması üçün həm leksik, həm morfoloji, həm də fonetik paralellər zəruridir. O, bir "vahid protodil"dən ayrılmış dillərin qohumluğu nəzərdə tutur.

II. Qrammatikadan əvvəlki qohumluq: hind-Avropa və semit dilləri arasındakı oxşarlıq tipinə bənzər bir modeldir, genetik qohumluq deyil; lakin morfoloji sistemlərin paralelliyi mövcuddur; yazılı mənbələrlə təsdiqlənmir, tarixdən əvvəlki mərhələyə aiddir.

III. Substrat nəzəriyyə üzrə qohumluq (zəif tədqiq olunmuş və mübahisəli nəzəriyyədir): xalqlar bir-birini əvəz etdikcə, dil də mədəniyyətlə birlikdə varislik modeli üzrə dəyişir; dil dəyişmələri və qarışmaların alt qatları nəzərdə tutulur.

IV. Tarixi-mədəni qohumluq (ən geniş yayılan, lakin dilçilik baxımından ən az əhəmiyyətli formadır): xalqların birgə yaşaması, qarışması, qarşılıqlı təsir nəticəsində dil əlaqələrinin yaranması.

Beləliklə, Genko dili yalnız genetik qohumluqla limited görmür; geniş, çoxpilləli qarşılıqlı təsir sahəsi kimi təqdim edir. Yafəs dilləri terminini Qafqaz dillərinin (Dağıstan, çeçen-inquş, abxaz-Adıgey) ümumi adı, bəzən də Gürcüstan dillərini əhatə edən geniş bir anlayış kimi təqdim edir – Qafqazla məhdudlaşmır. Tarixi baxımdan daha böyük coğrafiyanı əhatə edən dillərin Qafqazda təcrid şəkildə mövcud olmasını düşünmək kobud səhvdir. O bildirir ki, Yafəs dilləri bir zamanlar bütöv, geniş bir mədəni-linqvistik areal təşkil edib, Qafqazdakılar yalnız qalıqlardırlar.

Türk dilləri və Yafəs dillərinin qarşılıqlı münasibətinin tarixini 3 mərhələdə təhlil edir:

I. Etnogenetik fon. Hunlar türk mənşəli sayılır və Qafqaz türklərinin sələfləridir. Türk dillərinin Qafqazla qarşılıqlı təması VI əsrdən etibarən sabitdir.

II. Məskunlaşma prosesi. Türk tayfalarının Cənubi Qafqazda məskunlaşması XIII–XIV əsrlərdə tamamlanır (Monqol dövrü). Cənubi Rusiyada türk dövlətlərinin süqutundan sonra Şimali Qafqaza axın sürətlənir.

III. Daha qədim dövr. Türk dilləri VI əsrdən xeyli əvvəl də Qafqaz arealı ilə təmasda ola bilər. Yafəs dilləri ilə əlaqəni aydınlaşdırmaq üçün daha qədim qatları araşdırmaq lazımdır.

Genkonun fikrincə, araşdırmaların qarşılaşdığı əsas problemlər bunlardır:

Material qıtlığı – Azərbaycan dili, qaraçay və digər Qafqaz türklərinin dillərinin elmi ədəbiyyatda yetərincə işlənməməsi;

Tədqiqatlar – Qafqazda Yafəs dillərinin keçmişi haqqında aparılan araşdırmaların qeyri-kafi qiymətləndirilməsi;

İlkin baza – Yafəs dillərinin tarixi yayılma coğrafiyası və türk-Yafəs əlaqəsi üçün empirik baza çatışmazlığı.

O, belə nəticəyə gəlir ki, türk dilləri ilə Yafəs dilləri arasında genetik qohumluq hələ ki, sübut olunmayıb, lakin morfoloji paralellər və substrat təsirlər üzrə təmas ehtimalı var, araşdırmalar genişləndikcə, Yafəs dilləri Qafqazın dil tarixinin "güzgüsü" rolunu oynaya bilər.

**Görkəmli rus dilçisi, türkoloq, dialektoloq, etnoloq və folklorşünas Nikolay İvanoviç Aşmarin:** "Elmi türkologiyanın əsasları XIX əsrin II yarısında Rusiyada alman alimləri tərəfindən qoyulmuşdur. Bu yeni elmin yaranması həmin dövrdə dilçilik sahəsində baş vermiş nailiyyətlər ilə sıx bağlıdır. XIX əsrin birinci yarısına qədər türk dillərinin öyrənilməsi çox ağır addımlarla irəliləyirdi. Burada da əsas diqqət Osmanlı ləhcəsinə yönəldilmişdi. Türk dillərinin elmi tədqiqi üçün ixtisasca türkoloq olmayan akademik Otto Betlinq tərəfindən yazılmış "Yakut dili qrammatikası" başlanğıc olmuşdu. Betlinqə qədər bütün türk qrammatikalarında, demək olar ki, danışıq səslərinin düzgün təsvir olunmaması və dil hadisələrinin Avropa qrammatik normaları baxımından işıqlandırılması köklü səhv idi.

Betlinqin əsərinin nəşrindən 20 il sonra Kazanda "Altay dillərinin qrammatikası" kitabı çap olunmuşdu. Bobrovnikovun tərtib etdiyi "Monqol və kalmık dillərinin qrammatikası", akademik V.Rodlov tərəfindən canlı türk dillərinin öyrənilməsi sahəsində böyük işlər görülmüşdür. O, ömrünü qədim və yeni türk ləhcələrinin öyrənilməsinə həsr etmiş, türk xalq deyimlərini (ona qədər məlum olmayan) toplayıb nəşr etdirmiş, elmi fəaliyyətinin ilk illərində Sibir, Orta Asiya, Volqaboyu və Krım türklərini tədqiq etmişdir. Malovun 1910-cu ildə Çində səyahəti zamanı tapdığı "Altun yaruk" adlı buddist türk mətnini, uyğur dilində yazılmış "Kutadqu bilik" əsərini nəşr etmiş və onu alman dilinə çevirmişdir. O, həmçinin bir sıra epiqrafik və əlyazma tapıntılarını da öyrənmiş və türk ləhcələrinin geniş lüğətini nəşr etdirmişdir. 1893-cü ildə danimarkalı alim V.Tomsen türk runi yazılarının açarını tapmışdır. Bu möhtəşəm kəşf türkologiya sahəsində yeni mərhələ idi. Yazıların şərhində Radlov fəal iştirak etmiş, bu qədim abidələrin bir çox qaranlıq məqamlarının izahını vermişdir. Türkologiya sahəsindəki daha sonrakı iş professor N.F.Katanova aiddir. Türkologiyanın sonrakı mərhələsində professor N.F.Katanovun "Uryanhay dilinin tədqiqi təcrübəsi" adlı böyük əsəri xüsusi qeyd olunmalıdır.

1891-ci ildə V.Radlov tərəfindən alman dilində "Şimali türk ləhcələrinin fonetikası" adlı əsər yazılıb.

Aşmarin çıxışında daha sonrakı dövrə aid nəşrlər barədə məruzə edir: "Son illərdə Paris Şərq Dilləri Məktəbinin professoru J.Deni Osmanlı ləhcəsinin qrammatikasını tərtib etmişdir. Bu, çox böyük əməkdir. Yeri gəlmişkən, müəllif Osmanlı dilinin tarixini işıqlandıran bir çox faktlara toxunmaqla müxtəlif türk ləhcələrində feil formalarının inkişafını əks etdirməyə müvəffəq olmuşdur".

Aşmarin bu günə qədər türk dialektlərinin öyrənilməsində əldə olunmuş nəticələri ümumiləşdirərək qeyd etmişdir:

1. Ayrı-ayrı türk ləhcələrinin fonetik sistemi hələ kifayət qədər öyrənilməmişdir; indiyədək istifadə edilən səslərin təsvir üsulları təsadüfi xarakter daşıyır.
2. Ləhcələrin sintaktik xüsusiyyətləri kifayət qədər tədqiq edilməmişdir. Mövcud qrammatikalarda sintaktik hadisələr yalnız məntiqi aspektdən izah olunur, türk dillərində mühüm rol oynayan psixoloji amillər tamamilə nəzərə alınmamışdır və əksər ləhcələr haqqında müstəqil monoqrafiyalar yoxdur.
3. Leksik tərkib, bir çox ləhcənin söz ehtiyatı zəif öyrənilmişdir. Bəzi dillər üzrə, məsələn, başqırd və türkmən dillərində yalnız qısa və natamam lüğətlər mövcuddur; digər ləhcələr, o cümlədən Şimali Qafqaz və Ön Qafqaz türkcələri, demək olar ki, ümumiyyətlə işlənməmişdir.
4. Bir çox türk tayfalarının xalq yaradıcılığı nümunələri toplanmamış və öyrənilməmişdir. Xüsusilə mədəniyyət mərkəzlərinə yaxın bölgələrdə işlədilən ləhcələrə az diqqət yetirilmişdir.
5. Kazan-tatar ləhcəsinin ayrı-ayrı şivələri tədqiq olunmamış, lüğətləri nəşr edilməmişdir. Tamamilə öyrənilməmiş Kasımov ləhcəsi, habelə mişar, teptyar, noqaybəy, bəzi Sibir və Orta Asiya türklərinin ləhcələri barədə ədəbiyyatda, demək olar ki, heç bir məlumat yoxdur.
6. Türk nitqinin musiqi tərəfi və türk şeirinin vəzn qanunları kifayət qədər araşdırılmamışdır.
7. Bu günə qədər türk ləhcələri üzrə müqayisəli qrammatika sahəsində bir dənə də olsun tam əsər mövcud deyil.

Qədim prototürk (bəlkə də ilkin Ural-Altay) ünsürünün türkcədə xüsusi morfologiyaya malik olan və qədimliyini öz quruluşunda göstərən təqlidi sözlərin tədqiqi, demək olar ki, tamamilə diqqətdən kənarda qalıb. Bu sözlər türkcə şivələr arasında böyük fərqlər olsa belə, onların hamısında rast gəlinir, həmçinin fin dillərində də mövcuddur. Bu qədim söz formalarını diqqətlə toplamaq vacibdir, çünki onlar bizi elə qədim bir dövrə aparar ki, o vaxt sözlər yalnız hisslərin və təqlidi meyillərin birbaşa ifadəsi olmuş, sonradan mənası itmiş şərti simvollar deyil.

Aşmarin türk sözlərinin köklərinin və semasiologiyasının öyrənilməsi bu mənada heç kimin toxunmadığı geniş bir sahədir və tədqiqatçıya zəngin nəticələr vəd edir. Dilin hər bir sözü öz ilkin mənasında ibtidai düşüncənin əks-sədası, qədim adətin xatirəsi, unudulmuş bir həyat tərzinin fraqmenti, köhnə bir melodiyanın izi, qədim dünyagörüşünün nişanəsi, təbiət anlayışının izidir.

**(ardı var)**

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru,***
***filologiya elmləri doktoru, professor***

**Prezident İlham Əliyevin bütün müsahibələrindəki bir məqam daim diqqətimi çəkib. Üslub və intonasiya! Bəlkə, onu fərqli edən başlıca amil elə budur! Yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibə də bu kontekstdə dövlət başçısının tanış obrazını yenidən sərgilədi: məzmunlu, məramlı, çoxhədəfli, sərrast, səbatlı, korrekt, dürüst, cəsarətli və hökmlü!**

# Hərtərəfli tərəqqi Azərbaycanın dünya düzənində mövqeyini möhkəmləndirir



Bəli, dünya böyük təbəddülatlar dövrünü yaşayır. Cənab Prezidentin yerli televiziya kanallarına müsahibəsində də bu fakt diqqət mərkəzində idi. Prezident bunun aydın və birbaşa izahını verdi: "Bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var". Bir daha göründü ki, belə bir dünya düzənində ölkə başçısı İlham Əliyev üçün önəmli olan milli birlik düşüncəsinin möhkəmlənməsi və dərinləşməsidir. Bu müsahibə ölkənin strateji inkişaf xəttini, regional və qlobal mövqeyini, milli təhlükəsizlik, iqtisadi və sosial siyasətini kompleks şəkildə əks etdirən sənəd kimi dəyərləndirilə bilər.

Müsahibənin əvvəlində dövlət başçısı bildirdi ki, 2025-ci ildə Ermənistan–Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq: "Biz bu il regionda yeni balans yaratdıq və Azərbaycan xalqı artıq öz gələcəyini təhlükəsiz və ümidverici şəkildə planlaşdıra bilir. Bu, bizim həm diplomatik, həm də hərbi uğurlarımızın məntiqi davamıdır. Əldə olunan qələbə yalnız meydanda deyil, beynəlxalq arenada da təsdiqləndi. Azərbaycan sülh və sabitlik təşəbbüslərində lider mövqeyini qoruyur".

Bu ifadə Azərbaycanın müharibədən sonrakı dövrdə yalnız hərbi qələbə ilə kifayətlənməyərək, diplomatik, siyasi və sosial baxımdan yeni mərhələyə keçdiyini göstərir. Sülh yalnız kağız üzərində deyil, struktur və hüquqi mexanizmlərlə təmin edilir ki, bu da regionda yeni idarəetmə və diplomatik yanaşmanın başlanğıcıdır. Prezidentin sözlərinə görə, uzunmüddətli sülh yalnız güclü diplomatiya, iqtisadi əsaslar və praktiki idarəetmə mexanizmləri ilə qoruna bilir. Ölkə başçısının bu yanaşması həm milli, həm də regional sabitlik və dayanıqlı inkişaf üçün fundamentaldır.

Regional sülh və Ermənistan-Azərbaycan münasibətləri sahəsində Prezidentin mövqeyi hər zamankı kimi harmoniya və nizam ölçülərinin çərçivəsində idi: "Biz artıq keçmiş münaqişəyə baxırıq və yeni reallıqda yaşamalıyıq. Hər iki tərəf üçün sülhün praktik nəticələri önəmlidir".

Bu fikir Azərbaycanın yalnız siyasi və hərbi üstünlük əldə etməklə kifayətlənməyib, həm də sülhün praktik, hüquqi və iqtisadi nəticələrini formalaşdırmaq istəyini göstərir. Dövlət başçısı əlavə etdi ki, regional infrastruktur layihələrinin bərpası və iqtisadi əlaqələrin inkişafı sülhün möhkəmləndirilməsində əsas vasitələrdir. Bu yanaşma həm iqtisadi, həm də siyasi baxımdan Azərbaycanın mövqeyini gücləndirir. Prezidentin sözlərindən aydın olur ki, münaqişə yalnız keçmişdə qalmayıb, həm də gələcəkdə qarşılıqlı etimad və əməkdaşlıq platforması kimi qiymətləndirilir. Bu, Azərbaycanın regional sülhün aktiv təşəbbüskarına çevrilməsinin göstəricisidir. Prezident əlavə etdi ki, "Biz qarşılıqlı etimadın və regionda dayanıqlı əməkdaşlığın tərəfdarıyıq və bu istiqamətdə layihələr həyata keçiririk". Bu yanaşma həm də beynəlxalq tərəfdaşlar üçün Azərbaycanın etibarlı və balanslı oyunçu olduğunu nümayiş etdirir. Regionda infrastruktur və enerji layihələrinin inkişafı isə Azərbaycanın həm iqtisadi, həm də strateji mövqeyini gücləndirir.

Xarici siyasət və çoxvektorlu yanaşma sahəsində Prezident vurğuladı ki, ABŞ ilə münasibətlər 2025-ci ildə yeni mərhələyə daxil oldu, əvvəlki məhdudiyyətlər aradan qalxdı və bu, region üçün strateji əhəmiyyət daşıyır: "ABŞ-la əməkdaşlığımız gələcəkdə daha da genişlənəcək və ölkəmizin beynəlxalq nüfuzunu möhkəmləndirəcək. Biz birgə layihələr, investisiya təşəbbüsləri və texnologiya transferi üzrə əməkdaşlığı sürətləndiririk. Bu proses Azərbaycanın iqtisadi inkişaf strategiyasına töhfə verir. Regionda sülh və sabitliyin təmin olunmasında ABŞ ilə koordinasiyamız kritik əhəmiyyət daşıyır. Bu münasibətlər, həmçinin beynəlxalq hüququn aliliyini qorumaq və qonşularla əməkdaşlıq üçün vacib platforma təmin edir".

Bu, Azərbaycanın qlobal güc mərkəzləri ilə əməkdaşlığını gücləndirmək və regional maraqlarını qorumaq üçün atdığı strateji addımı göstərir. Əlbəttə ki, çoxvektorlu diplomatiya ölkənin həm regional, həm də qlobal maraqlarını qorumaq üçün zəruridir. Çinlə strateji tərəfdaşlıq, Rusiya və Avropa ilə iqtisadi və təhlükəsizlik əlaqələri Azərbaycanın geosiyasi manevr imkanlarını artıran balanslı siyasət apardığını nümayiş etdirir. Bu yanaşma Azərbaycanın iqtisadi və siyasi müstəqilliyini qorumağa xidmət edir.

Xarici siyasətdə strateji çeviklik Azərbaycanın uzunmüddətli təhlükəsizliyini və iqtisadi inkişafını dəstəkləyir. Çoxvektorlu diplomatiya Azərbaycanın yalnız siyasi üstünlüklərini gücləndirmir, həm də regionda sülhün təmin olunmasına xidmət edir. Bu yanaşma Azərbaycanın beynəlxalq hüquq normalarına və əməkdaşlığa əsaslanan imicini möhkəmləndirir. Dövlət başçısının sözlərinə görə, qlobal əməkdaşlıq həm də regional layihələrə investisiya imkanlarını artırır və Azərbaycanın strateji mövqeyini gücləndirir.

Müsahibədə təhlükəsizlik və ordu siyasəti sahəsinə də toxunan cənab Prezident qeyd etdi ki, biz beynəlxalq hüquqa əsaslanan dünyada yaşamırıq, biz torpaq üzərində yaşayırıq, buna görə də güclü olmaq lazımdır. Dövlət başçısı bildirdi ki, özəl sektor artıq Azərbaycan ordusunun istehsalına töhfə verir, yeddi özəl şirkət artıq hərbi məhsullar istehsal edir ki, bu da ölkənin müdafiə sənayesinin diversifikasiyasına əhəmiyyətli dəstək göstərir: "Biz yerli istehsalı artırırıq, hərbi texnologiyaları modernləşdiririk və beynəlxalq standartlara cavab verən məhsullar istehsal edirik. Bu, yalnız müdafiə potensialımızı artırmır, həm də iqtisadiyyatımıza əlavə dəyər qatır. Müdafiə sənayesi sahəsində innovasiyalar həyata keçirilir və bunun nəticəsində strateji müstəqilliyimiz güclənir".

Bu cavab Azərbaycanın hərbi potensialın gücləndirilməsinin yalnız revanşist təhdidlərə qarşı olmadığını, həm də regional stabillik və suverenlik siyasətinin vacib elementi olduğunu vurğulayır. Ordu yalnız müdafiə mexanizmi kimi deyil, həm də sülhün qorunması üçün strateji vasitə kimi qiymətləndirilir: "Hər bir ölkə öz təhlükəsizliyini təmin etməli və möhkəmləndirməlidir".

Bu qənaətlər, əslində, Azərbaycanın müdafiə və strateji planlamada uzunmüddətli yanaşmasının əsasını təşkil edir. Güclü ordu həm daxili sabitliyi, həm də regionda balansı qorumaq üçün vacibdir. Təhlükəsizlik konsepsiyası yalnız hərbi mövqeyə deyil, həm də diplomatik və iqtisadi alətlərə əsaslanır. Dövlət başçısının sözlərinə görə, güclü ordu Azərbaycanın suverenliyini qorumaq və potensial təhlükələri minimuma endirmək baxımından strateji əhəmiyyət kəsb edir. Praqmatik yanaşma göstərir ki, Azərbaycan hüquqi və diplomatik mexanizmlərlə yanaşı, praktik güc imkanlarına da malikdir. Ordu, həmçinin regional layihələrin qorunması, sərhəd təhlükəsizliyi və strateji infrastrukturun müdafiəsi üçün vacibdir.

Prezident İlham Əliyevin yanvarın 5-də səsləndirdiyi fikirlər, həmçinin elm və təhsilə dair bir çox aktual məqamları da özündə çevrələyirdi. Bu fikirləri təhlil edərkən bir qənaət hasil olur: ölkə başçısının təhsilə yanaşması situativ deyil, uzunmüddətli və sistemli düşüncəyə əsaslanır. O, təhsili təkcə sosial sahə kimi deyil, dövlətin strateji resursu kimi qiymətləndirir. Bu yanaşma onu göstərir ki, təhsil məsələsi Prezident üçün iqtisadi inkişaf, milli təhlükəsizlik və dövlətin rəqabət qabiliyyəti ilə birbaşa bağlıdır. Yəni burada məqsəd yalnız savadlı fərdlər yetişdirmək deyil, eyni zamanda, ölkənin gələcəyini təmin edəcək intellektual baza formalaşdırmaqdır.

Elm və təhsilin birləşdirilməsi ilə bağlı fikirlər Prezidentin islahatçı baxışının əsas elementlərindən biridir. Bu mövqe onu göstərir ki, o, mövcud problemlərin kökünü struktur uyğunsuzluqlarda görür. Elm təhsildən ayrı fəaliyyət göstərdikdə, elmi nəticələr praktikaya keçmir, təhsil isə yeniliklərdən geri qalır. Prezidentin bu məsələyə diqqət çəkməsi faktiki olaraq sovetdən qalma parçalanmış modeldən imtina və daha çevik, müasir idarəetmə modelinə keçidin zəruriliyini ifadə edir. Bu, həm də dövlət resurslarının daha səmərəli istifadəsinə hesablanmış praqmatik yanaşmadır.

Kadr siyasəti ilə bağlı vurğular Prezidentin institusional yaddaşla yanaşı, yenilənməyə verdiyi əhəmiyyəti göstərir. Gənc və müasir düşüncəli kadrların önə çəkilməsi çağırışı dolayısı ilə sistemdə mövcud olan ətalət, formalizm və bəzən məsuliyyətsizlik problemlərinə işarədir. Burada Prezidentin mesajı aydındır: struktur islahatı yalnız ad dəyişiklikləri ilə məhdudlaşmamalı, düşüncə tərzi də dəyişməlidir. Bu isə təhsil sistemində real nəticələrə yönəlmiş idarəetməni ön plana çıxarır.

Müəllim amilinə xüsusi diqqət Prezidentin təhsilin keyfiyyətini insan faktoru ilə əlaqələndirdiyini göstərir. O, açıq şəkildə anlayır ki, ən yaxşı proqramlar və binalar belə peşəkar və motivasiyalı müəllim olmadan effektiv ola bilməz. Müəllimlərin sosial təminatının və nüfuzunun artırılması fikri həm də cəmiyyətə mesajdır: təhsil sahəsində çalışan insanlar dövlət üçün prioritetdir. Bu yanaşma uzun müddətdə gənclərin müəllimlik peşəsinə marağını artırmağa yönəlib.

Gənclərlə bağlı fikirlərin analizi göstərir ki, Prezident təhsili yalnız məktəb və universitet mərhələsi ilə məhdudlaşdırmır. O, təhsili insanın cəmiyyətə aktiv şəkildə inteqrasiya prosesinin əsas hissəsi kimi görür. Xaricdə təhsil almış gənclərin ölkəyə cəlb edilməsi çağırışı beynəlxalq təcrübənin lokallaşdırılması və qlobal biliklərin milli maraqlara uyğun istifadəsi məqsədi daşıyır. Bu, eyni zamanda, beyin axınının qarşısını almağa yönəlmiş rasional siyasət kimi qiymətləndirilə bilər.

Digər bir məqam. Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibədə Qarabağ və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modelinin gələcəkdə ölkənin digər bölgələrində — hətta ölkə üzrə — tətbiq oluna biləcəyi fikri mühüm ictimai-siyasi müzakirə predmetinə çevrilmişdir. Dövlət başçısı bu modelin daha çevik və operativ idarəetmə mexanizmi olduğunu vurğulamışdır ki, bu da mərkəzi və yerli strukturlar arasındakı əlaqələrin optimallaşdırılması, bürokratik prosedurların sadələşdirilməsi və qərarvermə sürətinin artırılması ilə xarakterizə olunur.

Azərbaycanın azad edilmiş ərazilərində formalaşdırılan region inkişaf modeli yalnız inzibati koordinasiya vasitəsi deyil, həm də sosial-iqtisadi transformasiya prosesidir. Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən məskunlaşdırılması uzunmüddətli planlaşdırma, müasir infrastrukturun yaradılması, əsas sosial xidmətlərin bərpası və iqtisadi fəaliyyətin stimullaşdırılması üzərində qurulur. Bu sahədə dövlət strategiyası 1,1 milyon vətəndaşın doğma torpaqlara qayıdışını hədəfləyir və ərazilərdə şəhərsalma, nəqliyyat, enerji, kənd təsərrüfatı, logistika və digər sahələri əhatə edən kompleks inkişaf planları icra olunur.

Bu idarəetmə modelinin digər bölgələr üçün məntiqli olub-olmadığını qiymətləndirərkən bir neçə əsas amili nəzərə almaq vacibdir. Birincisi, Qarabağ və Şərqi Zəngəzur kimi strateji və postsosialist kontekstdə xüsusi ehtiyaclar var – uzun illər işğal nəticəsində infrastrukturun məhv olması, əhalinin məcburi köçkün vəziyyətində olması və demoqrafik tarazlığın pozulması kimi sosial-iqtisadi çətinliklər mövcuddur. Ərazilərin reinteqrasiyası yalnız texniki bərpa deyil, həm də sosial təhlükəsizlik, iş yerlərinin yaradılması, təhsil və səhiyyə xidmətlərinin təşkilini tələb edir. Bu da çevik idarəetmə mexanizminin tətbiqini əsaslandırır.

İkincisi, regionda iqtisadi potensialın reallaşdırılması üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, investisiya mühitinin yaxşılaşdırılması və kiçik və orta sahibkarlığa dəstək kimi təşəbbüslər vacib rol oynayır. Belə təşəbbüslər müasir idarəetmə strukturları vasitəsilə təşviq olunur və yerli iqtisadi həyatın canlanmasına təkan verir.

Hazırkı mərkəzləşdirilmiş idarəetmə mexanizmi ilə müqayisədə belə modelin tətbiqi bir sıra üstünlüklər təmin edə bilər. Operativ qərarların qəbul olunması, yerli problemlər üzrə daha çevik reaksiya, regionların spesifik ehtiyaclarının nəzərə alınması bu yanaşmanın əsas üstünlüklərindəndir. Bu xüsusiyyətlər sosial xidmətlərin göstərilməsinin keyfiyyətini artırmaq, infrastruktur layihələrinin icrasını sürətləndirmək və regionlararası iqtisadi fərqlərin aradan qaldırılması üçün effektiv alətlər ola bilər. Bununla belə, modelin yalnız idarəetmə səmərəliliyini artırmaqla kifayətlənməyib, həm də sosial inklüzivlik, şəffaflıq və hesabatlılıq prinsiplərini dəstəkləməsi zəruridir.



Digər tərəfdən, Qarabağ və Şərqi Zəngəzur modelinin ölkənin daha sabit və inkişaf etmiş regionlarında tətbiqi müəyyən çətinliklərlə müşayiət oluna bilər. Məsələn, uzun müddətdir ki, mərkəzdən idarəetmə mexanizminə əsaslanan struktur Azərbaycanın bütün regionlarında eyni dərəcədə tətbiq olunub və yerli özünüidarəetmə formal olaraq mövcud olsa da, real səlahiyyətləri mərkəzi hakimiyyətin təsiri altında qalır.

Bu baxımdan yeni modelin tətbiqi üçün qanunvericilik səviyyəsində dəqiqləşdirmələr, yerli icra strukturlarının səlahiyyətlərinin aydınlaşdırılması və mərkəz–region münasibətlərinin yenidən tənzimlənməsi zəruridir.

Bu yenidən tənzimləmə aşağıdakılarla bağlı ola bilər: yerli özünüidarəetmə institutlarının real səlahiyyətlərlə təmin edilməsi, regional idarəetmə səviyyəsində qərarvermə proseslərinin şəffaflaşdırılması və mərkəzi hakimiyyətlə koordinasiyanın effektiv mexanizmlərinin yaradılması. Belə dəyişikliklər yerli problemlərin daha effektiv həllinə şərait yaradaraq, dövlət və vətəndaş arasında qarşılıqlı etimadın möhkəmlənməsinə dəstək verə bilər.

Bütünlükdə, Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi yeni dünya düzənində ötürülən təklif və çağırışların qlobal mahiyyəti baxımından unikal sayılmalıdır. Ümummilli məram və məqsədin əməli şəkildə realizəsini tələb edən bu çağırışlar ölkə başçısının fəaliyyətinin aydınlığına adekvat olaraq həllini tapmalı, ona layiqli şəkildə icrasına başlanmalıdır.

*Elnarə AKİMOVA,*
*Milli Məclisin deputatı,*
*filologiya elmləri doktoru*

# AMEA-da Ana dili müzakirəsi



**Dünən AMEA Rəyasət Heyətində Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində Azərbaycan dilinin saflığının qorunması istiqamətindəki çağırışlarına həsr olunmuş müşavirə keçirilib.**

Müzakirədə dövlət başçısının növbəti dəfə Azərbaycan dilinin saflığının qorunması ilə bağlı tələbindən irəli gələn vəzifələrdən söz açan AMEA prezidenti, akademik İsa Həbibbəyli qeyd edib ki, Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev hər zaman Azərbaycan dilinin və onun saflığının qorunmasını dövlət siyasəti səviyyəsinə qaldırmışlar.

Bu əməli fəaliyyət bu gün qloballaşan dünyada dilimizin kənar təhlükələrdən mühafizə edilməsində mühüm rol oynayıb.

Ötən illər ərzində bu istiqamətdə bir sıra rəsmi sənədləri imzaladığını deyən akademik İsa Həbibbəyli, həmçinin Prezident İlham Əliyevin çıxışlarında bu məsələyə xüsusi diqqət yetirildiyini qeyd edib. Bildirilib ki, Prezident İlham Əliyev AMEA-nın 80 illik yubiley yığıncağındakı nitqində Azərbaycan dili ilə bağlı alimlərimiz qarşısında mühüm vəzifələr qoyub və bundan irəli gələrək dərhal dilçi alimlərlə AMEA-nın Rəyasət Heyətində iclas keçirilib, müvafiq qərarlar qəbul olunub, tapşırıqlar verilib, əməli addımlar atılıb.

Dövlət başçısının yerli televiziya kanallarına müsahibəsi zamanı Azərbaycan dilinin saflığının qorunması ilə bağlı növbəti çağırışının da alimlər qarşısında mühüm vəzifələr qoyduğunu deyən akademik İsa Həbibbəyli dillə bağlı məsələlərin AMEA-nın əsas prioritet istiqamətlərindən olduğunu bildirib. Akademiya rəhbəri çıxışında AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda mövcud ştat vahidləri və daxili imkanlar hesabına müasir Azərbaycan dili şöbəsinin bazasında müasir Azərbaycan dili və nitq mədəniyyəti şöbəsinin yaradılmasının məqsədəuyğun olduğunu bildirib.

Müşavirədə çıxış edən AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli Azərbaycan dili ilə bağlı müəssisədə görülən işlər barədə ətraflı məlumat verib. O, dövlət başçısı tərəfindən Azərbaycan dilinin saflığının qorunması ilə bağlı qarşıya qoyulan tələblərə uyğun olaraq dilimizin daxili imkanlar hesabına zənginləşdirilməsi, eləcə də dilimizin təhlükəsizliyinin qorunması və ona olan müxtəlif növ təhdidlərin qarşısının alınması və internet mühitində gedən proseslərin tənzimlənməsi sahəsində elmi kollektivlərin üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd edib.

Bildirilib ki, hazırda Dilçilik İnstitutunda "Azərbaycan dilinin orfoqrafiya lüğəti" və "Azərbaycan dilinin orfoepiya lüğəti" hazırlanır, həmçinin milli dil korpusu yaradılır. Professor Nadir Məmmədli bu istiqamətdə işıq üzü görmüş bir sıra nəşrlər barədə məlumat verib.

Müşavirədə AMEA Rəyasət Heyəti aparatının elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru Sərxan Xavəri, Humanitar Elmlər Bölməsinin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Arzu Məmmədxanlı və Mərkəzi Elmi Kitabxananın direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov dilimizin daxili imkanlar hesabına zənginləşdirilməsi, tədqiq olunması, ana dilinin qorunmasına vətəndaş münasibətlərini əks etdirən əsərlərin yazılması, xarici təsirlərdən qorunmasından danışıb, təkliflər səsləndiriblər.

Sonda akademik İsa Həbibbəyli Azərbaycan dili tədqiqatlarının müxtəlif istiqamətlər üzrə daha da genişləndirilməsi, alınmış elmi nəticələrin monoqrafiya səviyyəsində geniş elmi ictimaiyyətə çatdırılması, həmçinin kiçikhəcmli maarifləndirici broşürlərin çap edilib yayılmasının vacibliyini diqqətə çatdırıb.

Dilçilik İnstitutunun, AMEA-nın elmi bölmələrinin və AMEA-nın Gənclər Akademiyasının birgə təşkilatçılığı ilə orta məktəblərdə olimpiadaların keçirilməsinin qərara alındığını bildirən akademik İsa Həbibbəyli AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Azərbaycan dili ilə bağlı daimi kitab sərgisinin, o cümlədən virtual sərginin təşkili ilə bağlı tapşırıqlarını diqqətə çatdırıb.

Həmçinin yaxın günlərdə AMEA və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə Azərbaycan dilinin saflığının qorunmasına həsr olunmuş müzakirələrin aparılacağını söyləyib.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Əsgər general olmaq istəyirdi

## *Lənkəranlı Milli Qəhrəmanın qeyrət dastanı*

**1995-ci ilin martında Azərbaycanda əmin-amanlığın, sabitliyin bərqərar olunmasını istəməyən qara qüvvələr dövlət çevrilişinə cəhd etdilər. O zaman xalqımızın mərd, vətənpərvər oğulları bu xəyanətin qarşısını qətiyyətlə aldılar. Bu yolda canlarından keçənlər də oldu. Belə qəhrəman oğullardan biri də Əsgər Əliyev idi.**

Əsgər 1974-cü il noyabrın 8-də Lənkəran rayonunun Ləj kəndində anadan olub. 1982-ci ildə birinci sinfə gedib, 1989-cu ildə səkkizinci sinfi bitirib. 1990-cı ildən təhsilini Haftoni qəsəbə orta məktəbində davam etdirib. Atası Ələkbər kişi, anası Firayə xanım sadə peşə sahibləridir. Bu halal və mehriban ailədə 6 övlad böyüyüb boya-başa çatıb. Hamı bir-birinə qarşı çox mehriban olub, can deyib-can eşidib.

Əsgərin ən böyük arzusu Azərbaycan Ordusunun zabiti olmaq idi. Özü də general rütbəsinə qədər yüksəlmək niyyətində idi. Atası Hacı Ələkbər kişi oğlunun dilindən ilk dəfə onun Milli Ordunun generalı olmaq arzusunu eşidəndə sevinib, xeyir-dua verib, uğurlar arzulayıb. Əsgər 1992-ci ildə orta məktəbi müvəffəqiyyətlə başa vurub Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin tank-artilleriya fakültəsinə daxil olub. O, burada tərbiyəsi və intizamlılığı ilə hamının hörmətini qazanıb.

1995-ci ilin martında dövlət çevrilişinə cəhdin qarşısının alınmasında Milli Ordunun əsgərləri ilə bərabər, Ümumqoşun Komandirlər Məktəbinin kursantları da iştirak ediblər. Azərbaycan dövlətçiliyinin müdafiəsinə qalxanlar arasında Əsgər Əliyev də olub. O, silahlı qarşıdurma zamanı ilk andan cəsur və qətiyyətlə döyüşüb. Ayağından yaralansa da, 4 yaralı əsgəri güllə yağışı altından çıxarmağa müvəffəq olub. Acı təəssüf ki, axırıncı yaralını xilas etmək istəyərkən Əsgər Əliyev aldığı ikinci güllə yarasından dünyasını dəyişib. Doğulduğu kəndin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli sərəncamı ilə Əsgər Əliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı yüksək fəxri adına layiq görülüb. Lənkəran şəhərində Əsgər Əliyevin adını daşıyan parkda büstü qoyulub, adına küçə verilib. Lənkəran rayonunun Haftoni qəsəbə tam orta məktəbində Əsgər Əliyevin “Xatirə guşəsi” yaradılıb.

...Azərbaycan Respublikasının Prezidenti Administrasiyasında ulu öndər Heydər Əliyevin iştirakı ilə dövlət çevrilişinə cəhdin qarşısının alınmasının 1-ci ildönümünə həsr olunmuş ümumrespublika müşavirəsi keçirilib. Müşavirədə çıxış edənlər mart hadisələrini törədənlərin bəd niyyətlərini ifşa ediblər. Milli Qəhrəman Əsgər Əliyevin atası Hacı Ələkbər də toplantıda çıxış edib. Atanın təsirli çıxışı müşavirə iştirakçılarını kövrəldib. Ulu öndər isə şəhid atasını hərarətlə bağrına basıb.

Ələkbər kişi həmin kövrək anları heç vaxt unutmur:

– Heydər Əliyev dahi siyasətçi idi, O böyük insan olmasaydı, xarici və daxili düşmənlər bu ölkəni parçalayıb dağıdacaqdılar. Allah Ulu öndərə qəni-qəni rəhmət eləsin!

...Tale elə gətirib ki, Hacı Ələkbər kişiyə xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevlə ikinci dəfə 1998-ci il oktyabr ayının 5-də Lənkəranda görüşmək nəsib olub. Həmin gün prezident seçkiləri ərəfəsində Ulu öndərin cənub rayonlarının seçiciləri ilə görüşü keçirilirdi. Toplantıda Ələkbər kişiyə də söz verilib. O, əsl el ağsaqqalı kimi çıxış edərək seçiciləri Heydər Əliyevə səs verməyə çağırıb. Deyib ki, dahi dövlət adamı Heydər Əliyev öz müdrik siyasəti ilə övladlarımızı, gənclərimizi qoruyur. Atəşkəsdir, daha şəhid tabutları gəlmir, valideynlər orduya yola saldıqları övladları üçün qorxu, həyəcan keçirmirlər. Xalqımızın yeganə ümidi, dayağı çox hörmətli Heydər Əliyevdir!

Dahi siyasətçi toplantıda Əsgər Əliyevin qəhrəmanlığını yüksək qiymətləndirərək deyib:

– Martın 17-də Azərbaycanın müstəqilliyini qorumaq uğrunda döyüşən gənc Əsgər Əliyev həlak oldu. Milli Qəhrəman adı almış Əsgər Əliyevin atası burada çıxış etdi. Mən bu gün Əsgər Əliyevin xatirəsi qarşısında



baş əyirəm. Onun atasına “Afərin, əhsən!” – deyirəm, belə övladları yetirən kişilərə “Sağ ol!” - deyirəm.

...Bu günlərdə 1995-ci ilin Hacı Ələkbərlə Lənkəran şəhərinin mərkəzindəki Heydər Əliyev xatirə parkında həmsöhbət oluruq. O, Ulu öndərlə bağlı unudulmaz kövrək xatirələrini dilə gətirərək dedi:

– 1993-cü ilin yayında respublikanın ağır, böhranlı günlərində, müharibə gedən bir vaxtda cənub bölgəsində separatçı qüvvələr hakimiyyət, səlahiyyət uğrunda mübarizə aparırdı. Xalqımızın Ümummilli lideri, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində Lənkəranlılar ayağa qalxaraq Azərbaycanın ərazi bütövlüyünü qorudular, Ulu öndərə sədaqətlərini, ölkəmizin azadlığı, müstəqilliyi, dövlətçiliyi uğrunda mübarizəyə hər an hazır olduqlarını əyani sübuta yetirdilər.

Ələkbər kişi sonra fəxrlə söylədi ki, Azərbaycanın hər yerində, eləcə də doğma Lənkəranda Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyevin xatirəsi daim əziz tutulur, haqqında xoş sözlər deyilir. Bir şəhid atası kimi, həm dövlətimizin, həm də sıravi insanların diqqəti, qədirbilənliyi ona bir təskinlik olur.

Ələkbər kişi birdən nəyisə xatırlayıb kövrək səslə dedi:

– Əsgər general olmaq arzusunda idi, Milli Qəhrəman oldu!

Mən isə yalnız bu sözləri deyə bildim:

– Ruhu şad olsun!

*Əlisəfa HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

# Zəngilan həsrətli şəhidin döyüş yolu

**Qarabağ münaqişəsi 30 ildən sonra öz həllini tapdı. İşğal altında olan torpaqları azadlığa qovuşduranlar isə müqəddəs şəhidlik məqamına yüksələn neçə-neçə cəsur, mərd qəhrəmanlar və qazilər oldu. Qələbəni bizə qazandıran belə qəhrəmanlardan biri, Azərbaycan Ordusunun əsgəri olan şəhid Emil Abduləzimlinin döyüş yolundan söhbət açmaq istəyirik.**

Əslən Zəngilandan olan Abduləzimli Emil Rasif oğlu 1994-cü il dekabrın 6-da Sumqayıtda anadan olub. Masazır qəsəbəsindəki 2 saylı tam orta məktəbdə təhsil alıb. Məktəb illərində çalışqan şagird kimi tanınıb, bütün fənlərdən əla və yaxşı qiymətlər alıb və olimpiadalarda iştirak edərək fərqlənib. Orta məktəbi bitirdikdən sonra təhsilinə Azərbaycan Kooperasiya Universitetində davam edib. Ali təhsil aldıqdan sonra Emil Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmətə çağırılıb.



Hərbi xidmətdə olarkən əsgərlik yoldaşları ilə erməni işğalı altında olan ərazilərimizin bir gün geri qaytarılacağı barədə tez-tez komandirlərdən söhbətlər eşidib və buna inanıb. Elə həmin vaxtdan nə vaxtsa torpaqların azadlığı uğrunda savaş başlayarsa, mütləq son damla qanına qədər vuruşacağına and içib. Universitet təhsili Vətənə həqiqi xidmət borcunu yerinə yetirdikdən sonra köməyinə çatıb. O, bir müddət ixtisası üzrə mülki işlərlə məşğul olub. Amma qəlbində həmişə işğal altında qalan torpaqlarımızı düşünüb. Köçkünlük həyatına son qoyulacağı günü xəyalında canlandırıb.

Valideynlərinin söylədikləri xatirələr ona ata-baba yurdunu qiyabi tanıtsa da, sevdirib. Arzulayıb ki, kəndlərinə ayaq basa bilməsə də, uzaqdan da olsa, Zəngilanın məşhur çinarlarına baxa bilsin. Təəssüf ki, Emilin bu arzusu illərlə elə arzu olaraq ürəyində qalıb. Və günlərin birində dövlət başçısının Ermənistanın sərhəd boyu törətdiyi ardıcıl təxribatlara cavab olaraq əks-hücum əmri verdiyini eşidir. Sevincdən ürəyi köksünə sığmır.

Görür ki, nəhayət, arzularının çin olduğu an yetişib. Ali Baş Komandanın əmri ilə 27 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Emil Abduləzimli qismən səfərbərlik çağırışına qatılıb. Bununla da o, arzuladığı döyüşə könüllü qismində başlayıb.

Emil Abduləzimli heç vaxt görmədiyi doğma yurdu Zəngilan rayonunu işğaldan azad etmək üçün könüllülər sırasında döyüşə qatılan ilk gündən düşünüb ki, doğma yurdun erməni tapdağından azad edilməsi xəbərini ailə üzvlərinə o çatdıracaq və valideynlərinə ölçüyəgəlməz sevinc bəxş edəcək. O, ərazi bütövlüyümüzün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə Füzuli rayonundan başlayıb. Ermənin qurduğu mühəndis istehkam qurğusunun dağıdılmasında iştirak edib. Ağır döyüş əməliyyatlarının iştirakçısı olan Emil verilən tapşırıqları bacarıqla yerinə yetirib. Onların bölüyü növbəti tapşırığa əsasən, Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə də iştirak edib və Emil burada da mənfur düşmənə qarşı qəhrəmancasına vuruşub. Onun döyüş yolu, eyni zamanda, Xocavənddən də keçib.

Zəngilanın azadlığı uğrunda savaşı səbirsizliklə gözləyən Emil Abduləzimli 2020-ci il oktyabrın 19-da gedən ağır döyüşlərdə şəhid olub. Döyüş yoldaşlarının dediklərinə görə, ağır yaralanan Emilin son sözləri bu olub: “Zəngilanı görə bilməyəcəyəm. Qələbəni mənim əvəzimdən siz bizimkilərə çatdırarsınız”. Şəhadətindən cəmi bir gün sonra silahdaşları onun qisasını alaraq, Zəngilan rayonunu işğaldan azad ediblər. Zəngilanın işğaldan azad edilməsi xəbəri Emilin nəşi ilə birlikdə onun valideynlərinə eyni vaxtda çatıb. Emil Abduləzimli oktyabrın 20-də Sumqayıtda Şəhidlər xiyabanında dəfn edilib.

Ataların belə bir sözü var: Sən saydığını say, gör, fələk nə sayır? Taleyin qismətindən Emil könüllü olaraq döyüşə qatılanda arzuladığı Zəngilanın azadlığını görə bilməyib. Amma əminik ki, onun ruhu indi azad, gündən-günə abadlaşan Zəngilanın səmasında dolaşır və sevinir. Sevinir ki, bu qələbənin, azadlığın əldə edilməsində onun da payı var, o da qan töküb, canını qurban verib.

Dövlətimiz hər bir şəhid kimi Emilin qəhrəmanlığını da layiqincə dəyərləndirib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına könüllü qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Emil Abduləzimli ölümündən sonra III dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Cəsur döyüşçü” medalları ilə təltif edilib.

Emil ailənin tək oğlu idi və subay idi. Onun Zəhra adlı bir bacısı qalıb. Ata-anası – Rasif və Arzu Dünyamalıyevlər yeganə oğullarının bir yadigarının qalmamasından çox sarsılsalar, kədərlənsələr də, qorxmaz, cəsur, mərd, igid və nümunəvi insan olmasının fəxarətini yaşayırlar. El-obanın Emillə qürur duymaları, onun haqqında qəhrəman kimi söhbət açmaları valideynlərə təskinlik verir. Onların ən böyük təsəlliləri isə doğma yurdlarının səmasından qara buludların çəkilməsində və torpaqlarından mənfur düşmənin ayaq izlərinin silinməsində Emilin də rolunun olmasıdır. Ata-ana əmindir ki, torpaqların işğaldan azad edilməsində canlarını qurban verənlərin ruhuna oxunan dualardan Emilə də pay düşür.



*Zərifə HÜSEYNOVA*
*XQ*

# Mərcanlı döyüşçünün son rəqsi

## *Yaxud ölümün acığına həyat eşqi*

**Boylu-buxunlu, şıq geyinmiş gənc doğmalarının xudmani bir məclisində həzin musiqi sədaları altında rəqs edirdi. Sanki qartal əngin səmada bir zirvədən o bir zirvəyə doğru pərvaz edirdi. Hamı ona diqqət kəsilmişdi. Bu, şahanə, kişiyana rəqs idi. Həyat yoldaşı, körpə övladları da orada idilər.**

Sosial şəbəkələrdə geniş yayılan həmin videoda rəqs edən gənc şəxs Cəbrayıl rayonunun Mərcanlı kəndindən olan Azərbaycan Respublikası Sərhəd Qoşunlarının baş leytenantı şəhid Elçin Əzizov idi.

Dostları xatırlayırlar ki, Elçinin hələ uşaqlıqdan gözəl rəqs etməyi vardı. Amma həmin gün o, xüsusilə bir böyük şövqlə,



ürəklə oynayır, bu rəqsi ilə ölümün özünə belə meydan oxuyurdu...

O xoşbəxt anlarda bəlkə də heç kimin ağlına belə gəlməzdi ki, cəmi bir neçə gündən sonra 44 günlük şanlı Vətən müharibəsi başlayacaq, elə həmin gün gənc zabit doğma torpaqlarımız uğrunda ölüm-dirim savaşına atılacaq, komandanlığın bir-birindən məsul tapşırıqlarını hünər və cəsarətlə yerinə yetirəcək və acı təəssüf ki, müharibənin 16-cı günü sinəsindən ağır güllə yarası alaraq gözlərini əbədi yumacaqdı...

Elçin Əzizov bütün varlığı ilə inanırdı ki, müharibə xalqımızın parlaq qələbəsi ilə bitəcək. Onu ancaq irəli getmək, düşməni geri oturtmaq, məhv etmək, torpaqlarımızı düşmən tapdağından qurtarmaq düşündürürdü. Çox şən, həyatsevər insan idi. Yaxınları, ailəsi ilə telefon əlaqəsi saxlayanda çox nikbin əhvali-ruhiyyədə olur, zarafatından qalmır, narahat qalmamalarını tövsiyə edir, bayrağımızın tezliklə Cəbrayılda, Zəngilanda, Şuşada dalğalanacağını söyləyirdi.

...Azərbaycan Respublikası Sərhəd Qoşunlarının baş leytenantı Elçin Əvəz oğlu Əzizov hərb sənətini öz arzusu ilə seçmişdi. 1993-cü ilin avqustunda ata-baba yurdu Cəbrayıl rayonu ermənilər tərəfindən işğal edilərkən cəmi 5 yaşı vardı. Ata-anasının, doğmalarının ağır məcburi köçkünlük illərində nələr çəkdiyini öz gözləri ilə görmüş, qəlbində düşmənə qarşı sonsuz bir nifrət alovlanmışdı. Ürəyində min kərə “Düşməndən qisasımız qiyamətə qalmayacaq!” demişdi.

Elçinin atası, Vətən müharibəsindən bir neçə il əvvəl dünyasını dəyişmiş Əvəz Əzizovu yaxından tanıyırdım. Qeyrətli, təpərli, dostcanlı kişilərdən idi. Rayonda tikinti idarəsinin rəisi vəzifəsində çalışırdı. Amma əlinə silah alıb Cəbrayılın Hadrut ilə sərhəd kəndlərində hamı ilə bərabər keşik çəkirdi. Əvəz müəllim oğlunun ilk dəfə hərbi libasda



görəndə gözləri yaşarmışdı. O, əmin idi ki, xalqımız yağı düşməni doğma torpaqlarımızdan mütləq qovacaq. Təəssüf ki, Əvəz kişinin ürəyi vəfasız çıxdı, qələbəmizi görmədi...

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Elçin Əzizovu Sərhəd Qoşunlarında xüsusi təyinatlı kimi şəxsən işə qəbul etmiş, bu bacarıqlı oğlanın onun rəhbərliyi altında xidmət etməsini istəmişdi. Qəbul zamanı general ondan soruşmuşdu:

– Səni Azərbaycanın ən ucqar bölgəsinə xidmətə göndərsəm gedərsənmi?

Elçin Əzizov bir an tərəddüd etmədən demişdi:

– Cənab general, Azərbaycanın bayrağı harada dalğalanırsa, mən orda sevə-sevə xidmət etməyə hazıram.

Vətənin ərazi bütövlüyünü və sərhədlərimizin toxunulmazlığını bərpa etmək üçün xidmətə başlayan Elçin Əzizov tezliklə xüsusi təyinatlı kimi cəbhənin ən müxtəlif istiqamətlərinə ezam olundu. Ağdərə bölgəsində, Talış kəndi istiqamətində vuruşdu, daha sonra doğma rayonuna – Cəbrayılın Cocuq Mərcanlı kəndindəki Lələtəpəyə gəldi. 2016-cı ildə baş verən Aprel döyüşlərində göstərdiyi fədakarlığa görə baş leytenant hərbi rütbəsinə layiq görüldü.

...Baş leytenant Əzizov Elçin Əvəz oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə tərəfindən 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi” yubiley medalı, “Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi” yubiley medalı, 3-cü dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə” medalı, “Hərbi xidmətlərə görə” medalı, “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi” yubiley medalı, “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

...Elçinin qürurlu rəqsi sosial şəbəkələrdə bu gün də ən çox izlənilən videolardandır və onu izləyən hər kəsin qəlbindən acı bir nida qopur: axı ölüm ona heç yaraşmırdı, gənc idi, böyük arzuları vardı...

Şəhid baş leytenantın könül verib sevdiyi xanımı Sevda Orucova bu yaxınlarda telekanalların birində müsahibəsində ürək ağrısı ilə dedi ki, həmin lenti izləyəndə Elçinin cismani olaraq həyatda olmadığını unudur.

Ruhu şad olsun!

*Məsaim ABDULLAYEV*
*XQ*

# Göyçəli Aşıq Abdullanın bəlalı taleyi

**“Kitabi-Dədə Qorqud”da adıçəkilən Göyçə gölünün sahillərində hökmdar, şair Şah İsmayıl Xətainin ünlü müridlərindən, ardıcıllarından olan Miskin Abdalın saz-söz ocağı həm də bir iman, inam, əqidə ocağı kimi məşhurlaşdı. Miskin Abdalın şölələndirdiyi bu ocağın nuru, istiliyi zaman-zaman artdı, azaldı, ancaq heç vaxt sönmədi. Ağ Aşıq Allahverdinin sazının, sözünün şöləsindən onlarla söz qığılcımları parladı, gur şəfəqlərini hər tərəfə yaydı.**

## “Ömrü bad olan” Usta

XIX əsrdə Göyçə mahalında ədəbiyyatın nəzm bölməsi sürətlə inkişaf etmiş və özünün pik nöqtəsinə çatmışdı. Xalq şeiri üslubunda dəyərli əsərlər yaratmaq ənənəsi Aşıq Alının, Şair Məmmədhüseynin, Aşıq Musanın, Şair Aydının, xüsusən Aşıq Ələsgərin yaradıcılığı ilə özünün qızıl dövrünə qədəm qoydu.

Aşıq Ələsgərdən, təxminən, bir nəsil sonranı təmsil edən Zodlu Abdulla belə bir qaynar saz-söz mühitində doğulmuş, yaşamış, yaratmışdır.

Abdulla Rəhim oğlu Namazov 1865-ci ildə Göyçə mahalının Zod kəndində dülgər ailəsində anadan olmuşdur. O, öz atasından dülgərlik sənətini öyrənmiş, mahir bir sənətkar olmaqla bərabər, yüksək şairlik təbinə də malik olmuş, xalq şeiri üslubunda bədahətən şeirlər söyləmişdir. Dediyi, düzüb-qoşduğu şeirlərini peşəsinə uyğun olaraq “Sənətkar”, “Usta Abdulla”, “Zodlu Abdulla” təxəllüsü və nisbəsi ilə möhürləmişdir.

Göyçə mahalının əksər sakinləri kimi, Zodlu Abdulla da 1918–1920-ci illərdə erməni daşnaklarının törətdikləri qırğınlar nəticəsində doğma yurdunu tərk etməyə məcbur olmuşdur. “Çəkmişəm” rədifli qoşmasında “Dağıldı mahalım, pozuldu elim”, – deyən şair vətənindən didərgin düşdüyünü ürəkağrısı ilə dilə gətirmişdir:



**Abdulla, bir yana yetmədi dadım,**
**Hayana döndümsə, yandırdı odum.**
**İtib dülgərliyim, batıbdı adım,**
**Aranlarda nə alalar çəkmişəm.**

1921-ci ildə Qərbi Azərbaycan torpaqlarında sovet hakimiyyəti qurulduqdan sonra həmin torpaqlardan didərgin düşmüş ailələrin, insanların bir hissəsi dədə-baba yurd yerlərinə qayıdırlar. Usta Abdulla da yaranan nisbi əmin-amanlıq sayəsində Zod kəndinə qayıdır, yeni quruluşu tərənnüm edən şeirlər də qoşur:

**Yerdən duman çəkilibdi,**
**Torpaq bizdə əkilibdi,**
**Qaçaq-quldur çəkilibdi,**
**Bir dolanım, gəzim yeri.**

Bəzi mənbələrdə Usta Abdullanın 1939-cu ildə Gəncə şəhərinə köçməsi haqqında verilən məlumatlar həqiqəti əks etdirmir. Gerçək olan budur ki, Usta Abdullanın qız övladlarından biri – Gülüz indiki Samux rayonunun Tatlı kəndindən bir nəfərlə ailə qururaq o kənddə də yaşayırmış. Tatlı kəndi də Gəncə şəhərinə yaxın ərazidə yerləşdiyindən insanlar alış-verişə bu şəhərə gələr, ölülərini “İmamzadə” qəbiristanlığında basdırırmışlar.

1941-ci ildə Almaniya ilə SSRİ arasında başlanan müharibəyə azərbaycanlı gəncləri daha çox göndərirmişlər. Gəncin yaşının çatıb-çatmamasına, ailəli olub-olmamasına əhəmiyyət vermirmişlər. Usta Abdullanın oğlu Sayad bu haqsızlıqlara göz yuma bilmir, hərbi xidmətə getməmək üçün Göyçə mahalından uzaqlaşır. Həm kəndin “başbilənləri”, həm də erməni mənşəli hərbi komissarlıq işçiləri qocaman ustanı, şairi incidirlər, oğlunu tapıb gətirməyi tələb edirlər. Artıq həyatının ahıllıq çağlarını yaşayan Usta Abdulla oğlunun axtarışı məqsədilə Göyçə mahalını tərk edərək Gəncəbasara gəlir, bir müddət qızı Gülüzün evində yaşayır. Ağır sovet rejimi ilə yanaşı, müharibənin də törətdiyi aclıq, yoxsulluq, xəstəlik insanları qəm-qüssəyə düçar etmişdi. Hər kəs öz başının hayında, öz qara gününün qayğısında idi. Nə sənətə, sənətkara, nə də sözə, söz xiridarına əhəmiyyət verən, diqqət göstərən qalmışdı. İnsanlar müharibəyə gedənlərin “öldü, itkin düşdü” xəbərləri, yaralı, şikəst qayıdanların çarəsiz durumu, iynə-dərmanın, paltarın yoxluğu, ən vacibi bir tikə çörəyə möhtac qalmaq əndişəsi ilə yaşayırdılar.

Usta Abdulla, şair Abdulla bu ürəkdağlayan səhnələri görür, gördüklərini bədii sözə – qoşmaya, təcnisə, gəraylıya çevirib söyləyərmiş. Ancaq o söyləmələrin çoxunu nə yaddaşında saxlayan olurmuş, nə də bir dəftər küncünə köçürən. Sözə dəyər verilməyən bir zamanda, bir mühitdə sözdən təskinlik tapmaq, təsəlli almaq da çətindən çətindir.

**Arif məclisində qanan yanında**
**Hər sözü dillərdə yayılan mənəm.**
**Eşqin atəşidi yanan canımda,**
**Qəza qamçısıyla döyülən mənəm.**

**Taqət olmaz qəriblərin dizində,**
**Mürvət olar mərd igidin üzündə.**
**Səksənində, doxsanında, yüzündə,**
**Qəflət yuxusundan ayılan mənəm.**

**Yatmış idim, bəxtim məni oyatdı,**
**Qəzanın qədəri kəməndin atdı.**
**Mahalım Göyçədi, sakinim Zoddu,**
**Sənətkar Abdulla deyilən mənəm.**

Oğul axtarışıyla Göyçədən Gəncəyə gələn Abdulla qəm-qüssə içində gözlərini bu dünyaya əbədi olaraq yumur. Bu el sənətkarının dəfn mərasimi Allah-taalanın iradəsi ilə münasib şəkildə keçirilir. Bir müddət yeni ölənlərin “İmamzadə” qəbiristanlığında dəfn olunmasına qoyulan qadağa həmin ərəfələrdə aradan qaldırılır. Mağazalara bez, ağ parçalar, pambıq verilir. Usta Abdullanın dəfni üçün lazım olan əşyalar alınır və vəsiyyətinə uyğun olaraq “İmamzadə” qəbiristanlığında basdırılır. Məzarının hansı səmtdə olduğu bilinsə də, dəqiq yerini müəyyən etmək mümkün olmamışdır. Ruhu şad olsun!

Zodlu Abdullanın yaradıcılığından dövrümüzə qədər gəlib çatan gəraylıları, qoşmaları, təcnisləri və divaniləri onun ustad söz sənətkarı, şirin ləhcəli el şairi olduğunu təsdiq edir. “Qarışar”, “Sanınca”, “Yaxşıdı” rədifli qoşmaları ustadnamə məzmunlu, mahiyyətli əsərlər kimi diqqəti cəlb edir. Xüsusən də “Harda mən” ustadnaməsi əxlaqi-didaktik əhəmiyyətə malik olan, insanları doğru yola dəvət edən, ləyaqətli yaşamağa səsləyən bir əsər kimi bu gün də el aşıqları tərəfindən məclislərdə oxunur:

**İnsan odur, fikirləşə, düz seçə,**
**Kimnən gəzim, necə gəzim, harda mən?**
**Uyğun ola yoldaşlarım özümə,**
**Danışanda utanmayam orda mən.**

Şair təbli, romantik ruhlu adamların təbiətində, rəftar və hərəkətlərində bir qayda olaraq müəyyən qəribəliklər olur. Usta Abdulla varlı ilə kasıba fərq qoymayan, çox vaxt yoxsul insanların ehtiyaclarını ödəməyə çalışan, sözü üzə deməyi bacaran bir şəxs olmuşdur. “Mən” rədifli gəraylısında özünün xarakterik cizgilərini Zodlu Abdulla məharətlə yaratmışdır:

**Deyilənlər gerçəkdirmi,**
**Doğrudanmı dəliyəm mən?**
**İstəyirəm ağlılınən**
**İç üzünü əliyəm mən.**

**İşləyirəm hər bir öydə,**
**Mənə birdi kasıb, bəy də.**
**Haqqım olsa daş da, zəy də,**
**Hamısına bəliyəm mən.**



Mərhum folklorşünas İslam Ələsgər “Sazlı-sözlü Göyçə” kitabında yazır: “Usta Abdulla mollaxanada təhsil almışdır. O, Ələsgər ocağı ilə daim ünsiyyətdə olmuşdur”.

Aşıq Ələsgərin qardaşı oğlu Növrəs İman tikdirdiyi evin dülgərlik işlərini görməyi Usta Abdulladan xahiş edir. Usta Abdulla Növrəs İmanın evinin dülgərlik işlərini təmənnasız görür və bu hadisə ilə bağlı hər iki söz ustadı arasında “Əvəzində” rədifli deyişmə yaranır. Digər el şairi Həsən Xəyallı da Zodlu Abdullanın “Mənəm” rədifli qoşmasına cavab yazmışdır. “Varmı?” rədifli qoşmasında Aşıq Ələsgərin, Hacı Əliş ağanın, Səməd ağanın adlarının çəkilməsi, Göyçə mahalının yaxşılı-yamanlı çağlarının təsvir edilməsi də Usta Abdullanın bu mahalın ədəbi, ictimai mühiti ilə sıx bağlı olduğunu sübut edir.

## Minayə kimdir?

Zodlu Abdullanın əldə olan əsərlərinin təhlili göstərir ki, o, aşıq şeir şəkillərinin hər birində, o cümlədən də təcnisdə də maraqlı nümunələr yaratmağa qadir olmuşdur. “Leylinin qoluna nəştər yeridi, Məcnun qanı çöldə Leylini yazdı” kimi özünəməxsus deyim tərzinə malik olan Usta Abdullanın təcnisləri formalizmdən uzaqdır, fəlsəfi-didaktik mahiyyət daşıyan, estetik dəyəri olan əsərlərdir:

**Nəzər əyiləndə, iqbal yatanda,**
**Qananı qanmaza a yazı belə.**
**Kimin zimistanı novbahar keçər,**
**Məni də yandırır a yazı belə.**

Usta Abdullanın bədii-estetik dəyərə malik olan, forma və məzmunun bir-birini tamamlayan əsərlərindən biri də “Minayə mənəm” rədifli təcnisidir. Bu təcnisin yaranmasının maraqlı tarixçəsi bu və ya digər dərəcədə müəyyən fərqlər olmaqla bu gün də ifaçı aşıqlar tərəfindən məclislərdə söylənilir, təcnisin özü kifayət qədər oxunulur, dinlənilir.

Usta Abdulla Kəlbəcərdə Aşağı Ayrım binəsində bir evin tikintisində işləyən zaman Məşədi Vəlinin qızı Minayənin ağlı, kamalı, gözəlliyi haqqında olan söhbətləri eşidir, bu gəvə toxuyan, əlvan naxışlar vuran, tərifi dillərdə dolaşan el gözəlini görmək, onun bu tərifə nə qədər layiq olub-olmadığını bilmək istəyir. Diqqət yetirərək görür ki, kəndin qızları, gəlinləri kəndin ortasından axan novlu bulaqdan gündə iki dəfə – səhər-səhər və axşamüstü su aparırlar. Sözləşmiş adamlar kimi qızlar eyni vaxtda bulaq başına gəlir, deyə-deyə, gülə-gülə səhəngləri doldurub geri qayıdırlar.

Yazın uzun, günəşli günlərinin birində qızların dəstə ilə bulaq başına getdiklərini görən Usta kərkini təzə tikilən evin üstünə atılan döşəmə ağaclarının üstünə qoyur, asta addımlarla bulağa doğru gəlir, qızlardan içmək üçün su istəyir. Qızlardan biri təzə qaylı mis parçı su ilə doldurub Ustaya uzadır. Ustanın fikri, xəyalı isə Minayəni tanımaq, onu öz gözləri ilə görməkdir. Parçı alına alsa da, gözü qızların üzündə qaldığından suyu içə də bilmir.

Dilli, dilavər qızlardan biri Ustanın kim olduğunu soruşanda özünü tamamilə itirən Abdulla beynində gəzdirdiyi düşüncələrin təsviri ilə dillənir:

– Minayə.

Qızlar qəh-qəh çəkib gülüşürlər, üzlərini Minayəyə tutub deyirlər:

– Bu nədir ay qız? Sənin adını bu kişiyə də qoyublar?

Minayənin bu qızlardan hansı olduğu Usta Abdullaya məlum olur. Dönüb Minayəyə baxır, qüsursuz gözəl olduğunu görür. Bu yad, nabələd kişinin adının onun adı ilə eyni olması Minayənin də təəccübünə səbəb olur. Bir anlıq yaranan sükutu Usta Abdullanın səsi pozur:

**Naqafil ölkənə düşdü güzarım,**
**Ləhzədə oxunan min ayə mənəm.**
**Günü-gündən artdı dərdim, azarım,**
**Bir dəyqəsi dönən min ayə mənəm.**

Gözəl olduğu qədər də kamallı olan Minayə bu sözlərdən anladı ki, bu kişi başqa bir ölkədən – vilayətdən, mahaldan gəlibdir. Bu kişi söz adamıdır. Ləhzədə – bir anda, qısa bir zaman kəsiyində onun yüzlərlə, minlərlə şeiri oxunur, söylənilir, xalqın dilinin əzbəri olur. Bu kişi ilahi eşqə köklənmiş dən dərdi, azarı günbəgün artır, bir dəqiqəsi min ay qədər ağır, məşəqqətli keçir. Bu dünyada cismən olan bu şəxsin ruhu, könlü başqa dünyalarda cövlan edir.

Sənətkar təcnisin növbəti bəndini söylədi:

**Musa Beytullaha min ayə vardı,**
**Quranda oxunan min ayə vardı.**
**Həcər nalə çəkdi Minayə vardı,**
**İsmayıltək gələn Minayə mənəm.**

Atası Məşədi Vəlidən aldığı dərslər əsasında Minayə sənətkarın dediyi bəndin mənasını yaxşıca anladı: Musa peyğəmbər, təxminən, 82-83 il ömür sürmüşdür ki, bu da min ay edir. Deməli, peyğəmbər ömür boyu Allaha doğru yaxınlaşmış və min ay ərzində Beytullaha – Allahın evinə “varmışdır” – yetmişdir. Qurandakı ayələrin sayının minlərlə olması da (altı min altı yüz) Minayəyə məlum idi. Bəs İbrahim peyğəmbərlə bağlı hadisələr, oğlu İsmayılı qurban deməsi, Həcərin çəkdiyi iztirablar? Bunları hər kəs bilir. “Qurani-Kərim”in “Bəqərə” surəsində deyilir: (Ya Rəsulum). Yadına sal ki, Biz evi (Kəbəni) insanlar üçün savab (ziyarətgah) və əmin-amanlıq yeri etdik. (Ey möminlər! Sizə də) “İbrahimin durduğu yeri (özünüzə) namazgah edin!” – (dedik). İbrahimə və İsmailə də “Evimi (Kəbəni) təvaf edənlər, orada qalıb həmişə ibadətdə olanlar rüku və səcdə ilə namaz qılanlar üçün (bütlərdən) təmizləyin! – deyə tövsiyə etdik” (125-ci ayə).

Sənətkar təcnisin sonuncu bəndini söyləyir:

**Abdulla da kəsməz dostdan ayağı,**
**Piltə yanar, şölə verər a yağı.**
**A bemürvət, a nainsaf, a yağı,**
**Bəs niyə demirsən Minayə mənəm.**

Sənətkarın dediyi son bəndin də mənası Minayə ilə yanaşı, qızların hər birinə aydın idi. Çırağda yanan piltə olsa da, piltənin yanmağı da, şölə verməyi də yağın hesabına olur. İnsanın – şairin, aşığın da etibarı, sözünə vəfa etməsi ürəklə bağlıdır. Ürəkdən gələn söz ölmür, əbədi yaşamaq haqqı-hüququ qazanır.

Qızlar Usta Abdulla ilə sağollaşıb ayrıldılar. Bu gözəl təcnisin səsi-sorağı aləmə yayıldı. Kəlbəcərin, Göyçənin saz-söz sənətkarları el şənliklərində bu şahanə əsəri oxudular, eldən-elə, obadan-obaya yaydılar.

Dədə Ələsgərin səsli-avazlı şəyirdlərindən olan Aşıq Əsəd də bu təcnisi eşidir və bundan ilhamlanaraq “Minayəsənmi?” rədifli qoşmasını və Minayənin də dilindən “Minayə mənəm” rədifli cavab qoşmasını yazır.

Bəzi ifaçı aşıqlar kiçik bir dastan şəklində bu əhvalatlara müəyyən qədər bəzək-düzək vurub danışırlar: Qonşuluqda Usta Abdullanın dülgərlik işi gördüyü, ev tikdiyi zaman Minayəni görür, onun gözəlliyi qarşısında özünü itirir, kərki ilə ayağını kəsir. Bu zaman da “Minayə mənəm” təcnisini deyir.

Qeyd edək ki, Minayənin nəvə-nəticələri Kəlbəcər şəhərində yaşayırlar.

Zodlu Abdullanın şeirlərindən ayrı-ayrı nümunələr el aşıqları və şairlərinə həsr olunmuş kitablarda çap olunmuşdur. Onun ədəbi irsi ilk dəfə jurnalist Rəşid Mehdiyev (Poladoğlu) tərəfindən toplanmış və 1976-cı ildə Xalq şairi Hüseyn Arifin redaktorluğu ilə “Gənclik” nəşriyyatında çap olunmuşdur.

2024-cü ildə isə professor İbadulla Ağayevin tərtib etdiyi və Qabil Zimistanoğlunun redaktoru olduğu “Zodlu Abdulla” kitabı işıq üzü görmüşdür. Kitaba İbadulla müəllim “Ön söz” yazmış, Qabil Zimistanoğlu isə “Mahalım Göyçədi, sakinim Zoddu” adlı təhlil xarakterli bir yazı daxil etmişdir.

Bu il iyun ayının 29-da Göygöl Mədəniyyət Evində kitabın təqdimatı keçirildi. Rayon ziyalılarının, aşıqların, müğənnilərin də iştirak etdiyi bu təqdimat mərasimini professor İ.Ağayev elə maraqlı, elə gözəl apardı ki, dörd saatlıq vaxtın necə gəlib keçdiyi hiss olunmadı.

Tədbirdə Zodlu Abdullanın nəvəsi, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsi Göygöl Rayon Mədəniyyət Mərkəzinin direktoru Əminə Rəhimova babasının həyat və yaradıcılığı haqqında danışdı. AYB Gəncə bölməsinin üzvlərindən S.İbrahimli, A.Murovdağlı, bir neçə rayon ziyalısı, o cümlədən bu sətirlərin müəllifi də çıxış etdilər, ürək sözlərini söylədilər.

Zodlu Abdullanın əsərlərini Aşıq Nemət Qasımlı elmi əsasda tədqiqata cəlb etmiş və filologiya üzrə fəlsəfə doktoru elmi adı almışdır.

## Minayə dəyər

**“Minayə mənəm” təcnisinin müəllifi Zodlu Abdullaya ithaf**

**İyirmi üç ilə Rəsula gələn**
**Kəsb etdi dünyada min ayə dəyər.**
**Bir saata, günə dəyər verməyən**
**Necə verə bilər min ayə dəyər?**

**İmamlardı zəhər içən, ox udan,**
**Haqq kəlamın oxu axşam, oxu dan.**
**Musanı Haqq idi haqdan oxudan,**
**İbrahim də verdi Minayə dəyər.**

**Salman, çatar-çatmaz bir sözün ilə,**
**Adla əsrləri bir söz, ün ilə.**
**Ay Usta Abdulla, bir sözün ilə**
**Gör necə qazandı Minayə dəyər.**

*Sı mu QARALAR,*
*şair-tədqiqatçı*

**Göygöl rayonu**

# ABŞ-ın Qrenlandiya yürüşü

## *Müttəfiqlik böhranı və Avropanın sınağı*

**ABŞ-ın Qrenlandiya ilə bağlı mövqeyi son günlər beynəlxalq müzakirələrin əsas mövzularından birinə çevrilib. Ağ Evin 6 yanvar tarixli açıqlamasına görə, Prezident Donald Tramp və onun komandası ABŞ-ın Qrenlandiya üzərində nəzarət əldə etməsi ilə bağlı müxtəlif variantları müzakirə edir. Bu variantlara adanın satınalınması ehtimalı ilə yanaşı, hərbi gücdən istifadə imkanının da daxil edilməsi Avropada diqqətlə izlənilir. ABŞ administrasiyası Qrenlandiyanı milli təhlükəsizlik baxımından mühüm ərazi kimi dəyərləndirir.**




Qrenlandiya geniş muxtariyyətə malik olsa da, Danimarka Krallığının tərkib hissəsidir və Danimarka NATO-nun üzvüdür. Bu səbəbdən ABŞ-ın mümkün addımları alyans daxilində hüquqi və siyasi suallar yaradır. Danimarkanın Baş naziri Mette Frederiksen bildirib ki, ABŞ tərəfindən Qrenlandiyaya qarşı güc tətbiqi NATO-nun gələcəyi ilə bağlı ciddi nəticələr doğura bilər. NATO müqaviləsinə əsasən, alyans üzvlərindən birinə qarşı hücum hamısına qarşı hücum kimi qiymətləndirilir.

Bununla yanaşı, ABŞ Dövlət katibi Marko Rubio Vaşinqtonun Qrenlandiyaya hərbi müdaxilə planlaşdırmadığını, əsasən diplomatik və iqtisadi mexanizmlərin nəzərdən keçirildiyini bildirib. ABŞ Dövlət Departamenti də Qrenlandiya ilə ticarət və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsində maraqlı olduqlarını vurğulayır. ABŞ rəsmilərinə görə, Arktikada Rusiya və Çinin artan fəaliyyəti regionun təhlükəsizlik məsələlərini daha aktual edir.

Avropa ölkələrinin reaksiyası ümumi dəstək xarakteri daşıyır, lakin ton baxımından ehtiyatlıdır. Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Polşa, İspaniya və Danimarka liderləri birgə bəyanatla Qrenlandiyanın statusu ilə bağlı qərarların yalnız Danimarka və Qrenlandiya tərəfindən qəbul edilməli olduğunu bildiriblər. Eyni zamanda, Arktikanın təhlükəsizliyinin NATO çərçivəsində kollektiv şəkildə təmin edilməsinin vacibliyi qeyd olunub. Bəyanatda beynəlxalq hüququn, xüsusilə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət çağırışı yer alıb.

Qrenlandiyanın Baş naziri Yens-Frederik Nilsen Avropa liderlərinin bu mövqeyini müsbət qiymətləndirərək, məsələnin beynəlxalq hüquqa uyğun və dialoq yolu ilə müzakirə olunmasının vacibliyini qeyd edib. Qrenlandiya tərəfi adanın statusunun mövcud hüquqi çərçivə əsasında müəyyən edildiyini vurğulayır.

Mövzunun gündəmə gəlməsi ABŞ-ın Venesuelada həyata keçirdiyi hərbi əməliyyatdan sonra baş verib və bu amil beynəlxalq müşahidəçilər tərəfindən kontekstual faktor kimi dəyərləndirilir. Həmin hadisələrdən sonra sosial mediada Qrenlandiya ilə bağlı paylaşımlar müzakirələri daha da intensivləşdirib.

Qrenlandiyanın strateji əhəmiyyəti son illər artmaqdadır. Dünyanın ən böyük adası olan Qrenlandiya zəngin təbii ehtiyatlara malikdir. Buraya neft, uran və nadir torpaq metalları daxildir. Bu resurslar müasir sənaye və texnoloji sahələr üçün vacib hesab olunur. Eyni zamanda, iqlim dəyişiklikləri nəticəsində Arktikada yeni dəniz yollarının açılması Qrenlandiyanın nəqliyyat və logistika baxımından əhəmiyyətini artırır. Ada Avropa ilə Şimali Amerika arasında mühüm coğrafi mövqedə yerləşir və NATO üçün strateji əhəmiyyət daşıyan GIUK xətti ilə bağlıdır.

ABŞ-ın Qrenlandiyada "soyuq müharibə" dövründən qalan hərbi bazası mövcuddur və ABŞ müdafiə qurumları Arktika regionunda təhlükəsizlik məsələlərini diqqət mərkəzində saxlayır. Donald Tramp çıxışlarında Qrenlandiyanın ABŞ üçün strateji və iqtisadi əhəmiyyətini vurğulayıb və bu mövzuda müxtəlif imkanların müzakirə edildiyini bildirib.

Ümumilikdə, Qrenlandiya ətrafında gedən müzakirələr beynəlxalq hüquq, müttəfiqlik münasibətləri və Arktikanın gələcək təhlükəsizlik arxitekturası ilə bağlı daha geniş debatların tərkib hissəsidir. Avropa və ABŞ arasında bu məsələnin hansı formada tənzimlənəcəyi, tərəflərin dialoq və əməkdaşlıq mexanizmlərindən nə dərəcədə istifadə edəcəyi qarşıdakı dövrdə regional və qlobal siyasət baxımından əhəmiyyətli olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Yaşlılar lehinə, gənclər əleyhinə!

## *Söhbət uşaqların sosial şəbəkəyə girişini məhdudlaşdıracaq qanundan gedir*

**Müasir dövrdə bir sıra ölkələr rəqəmsal təhlükəsizlik və uşaq hüquqlarının qorunması kontekstində sosial şəbəkələrə çıxış yaşını hüquqi mexanizmlərlə tənzimləməyə başlayıb. Məsələn, Avstraliyada ötən ilin dekabrından etibarən 16 yaşdan aşağı şəxslər üçün "Facebook", "Instagram", "TikTok", "Snapchat", "YouTube" və digər platformalara girişin məhdudlaşdırılmasını nəzərdə tutan qanun qüvvəyə minib. Fransada isə daha sərt yanaşma müzakirə olunur: 15 yaşdan aşağı şəxslərin sosial şəbəkələrdən istifadəsini qadağan edən qanun layihəsi parlamentin müzakirəsinə çıxarılıb.**

Bu konteksdə Azərbaycanda da analoji təşəbbüs gündəmə gəlib. Ötən ilin sonlarında Milli Məclisdə bir sıra deputatlar aşağı yaş qruplarına aid uşaqların sosial şəbəkələrdə hesab açmasının məhdudlaşdırılması istiqamətində təkliflərlə çıxış ediblər. Sözügedən məsələ cəmiyyət daxilində ciddi fikir ayrılığı yaradıb: təşəbbüsü təhlükəsizlik və tərbiyə baxımından zəruri sayanlar da var, şəxsi azadlıqlara müdaxilə kimi qiymətləndirənlər də. İctimai rəydə bu məsələyə münasibəti öyrənmək üçün paytaxt sakinlərinə bu sualla müraciət etdik: Siz azyaşlıların sosial şəbəkələrə çıxışına yaş həddi tətbiqinə necə baxırsınız?

**20 yaşlı Zəhra Əsgərova** sosial



şəbəkələrin tam qadağan edilməsinin tərəfdarı olmadığını dedi: "Bu gün sosial media insanların gündəmi izləməsində, dünyada baş verən proseslərdən xəbərdar olmasında və cəmiyyətlə əlaqə saxlamasında mühüm rol oynayır. Sosial şəbəkələr, eyni zamanda, insanın düşüncə dairəsini genişləndirir, fərqli baxış bucaqları ilə tanış olmağa imkan yaradır. Amma hesab edirəm ki, azyaşlı uşaqlar üçün yaşa uyğun olmayan məzmunlara məhdudiyyət tətbiq olunmalıdır. Çünki bəzən uşaqlar zorakılıq və psixoloji baxımdan ağır paylaşımlarla çox erkən tanış olurlar. Bu isə onların tərbiyəsinə və psixoloji inkişafına mənfi təsir göstərir. Ona görə, düşünürəm ki, sosial şəbəkələrdə yaşa uyğun məhdudiyyətlərin və məzmun filtrlərinin tətbiqi vacibdir".

**Özünü təqdim etməyən 65 yaşlı paytaxt sakini** məsələ ilə bağlı sərt mövqe ortaya qoyaraq bildirdi ki, 16 yaşdan aşağı şəxslərin sosial şəbəkələrdə fərdi hesab açmasına mütləq qadağa tətbiq olunmalıdır: "Mən belə bir məhdudiyyətin qüvvəyə minməsinə ikiəlli səs verirəm. Çox gözəl mövzuya toxunmusunuz. Hesab edirəm ki, 16 yaşdan aşağı uşaqların sosial şəbəkələrə daxil olmasına qadağa qoyulmalıdır. Çünki bu yaş dövründə uşaqlar hələ öz davranışlarını və seçimlərini



tam dərk etmir. 11–12 yaşlı uşaqlar sosial şəbəkələrdən yalnız valideyn nəzarəti altında istifadə etməlidirlər. Bunsuz onların psixoloji durumuna mənfi təsir göstərə bilər. 16 yaşına çatmış yeniyetmə artıq öz davranışına nəzarət etməyi bacarır. Bundan aşağı yaşlarda isə sosial şəbəkələrdən istifadə valideyn nəzarəti və müəyyən məhdudiyyətlərlə həyata keçirilməlidir".

**18 yaşlı İbrahim Babayev** sosial şəbəkələrin, xüsusilə "TikTok"



kimi platformaların gənclərin vaxtına və davranışlarına təsiri məsələsinə toxundu: "Mən 16 yaşdan aşağı uşaqlar üçün məhdudiyyətlərin tətbiq olunmasını düzgün hesab edirəm. Çünki xüsusilə son dövrlərdə trend olan "TikTok" və onun kimi digər platformalar insanın vaxtını çox alır və asılılıq yaradır. Hətta böyüklər belə bəzən bu platformalardan ayrılmaqda çətinlik çəkirlər".

Müsahibimiz hesab edir ki, uşaqların asudə vaxtda əsas məşğuliyyəti dərs, idman və faydalı fəaliyyətlər olmalıdır: "Bu gün bir çox uşaqlar dərsdən çıxan kimi vaxtını sosial şəbəkələrdə keçirirlər. Orada uşaqlara uyğun olmayan çoxlu məzmun var və bu, onların vaxtının səmərəsiz istifadəsinə səbəb olur. Ona görə də 16 yaşdan aşağılar üçün sosial şəbəkələrə girişin məhdudlaşdırılmasını düzgün hesab edirəm".

**62 yaşlı müəllim Sevinc Abbasova** isə uşaqların sosial şəbəkələrdə vaxt keçirməsinin təhsilə və gündəlik nizam-intizama mənfi təsir göstərdiyini vurğulayaraq bildirir: "Mən 16 yaşdan aşağı uşaqların sosial şə-



bəkələrdən istifadəsinə qadağa qoyulmasını düzgün hesab edirəm. Telefon və planşetlər, ilk növbədə, dərs üçün istifadə olunmalıdır. Uşaqların vaxtının böyük hissəsi sosial şəbəkələrdə keçir və bu, onların dərslərinə diqqətinin azalmasına səbəb olur. Bu gün uşaqların əsas məşğuliyyəti dərs oxumaq, idmanla məşğul olmaq və faydalı vərdişlər qazanmaq olmalıdır. Sosial şəbəkələrdə saatlarla vaxt keçirmək onların həm təhsilinə, həm də psixoloji durumuna mənfi təsir göstərir. Uşaqlar dərsdən kənar vaxtını sosial şəbəkələrə deyil, inkişafetdirici məşğuliyyətlərə sərf etməlidirlər".

**29 yaşlı Şahin Nadirzadə** son dövrlərdə sosial şəbəkələrdə, xüsusilə də bəzi gənclər arasında formalaşan



qeyri-etik trendlərdən narahatlığını ifadə edərək bu tendensiyanın gələcəkdə ciddi fəsadlar yarada biləcəyini bildirir və deyir: "Mən bu məhdudiyyəti dəstəkləyirəm. Hesab edirəm ki, 16 yaşdan aşağı uşaqlar üçün telefon və planşet kimi vasitələr əsasən dərs və öyrənmə məqsədi daşımalıdır. Lakin müşahidə edirəm ki, xüsusilə "TikTok" platformasında mənfi tendensiya formalaşıb. Bu yaş qrupuna daxil olan bəzi uşaqlar sosial şəbəkələrdən bir-birinə söz atmaq, yaxud yaşlarına uyğun olmayan davranışlar sərgiləmək üçün istifadə edirlər. Bu gün gələcəyimiz üçün əsas prioritet təhsildir. Bu baxımdan gənclərin asudə vaxtlarını ifrat dərəcədə sosial şəbəkələrdə keçirmələrinin əleyhinəyəm".

Qeyd edilən yaş qrupundan yuxarı şəxslərdən fərqli olaraq, **15 yaşlı Əli Əliyev** bu məhdudiyyəti dəstəkləmədiyini bildirdi. Onun sözlərinə görə, əsas problem sosial şəbəkələrin mövcudluğu yox, oradakı bəzi zərərli məzmunlardır: "16 yaşdan aşağı şəxslər üçün sosial şəbəkələrdə hesab açılmasının qadağan olunması bizim üçün müəyyən çətinliklər yarada bilər. Bu, bir tərəfdən zərərli kontentin qarşısını almağı hədəfləsə də, digər tərəfdən faydalı məlumatlara çıxış imkanlarını da məhdudlaşdırır. Digər tərəfdən, düşünürəm ki, sosial şəbəkələrdən istifadə etmək istəyən gənc bunu hansı yolla olur-olsun edəcək. Məsələn, valideynlərinin adına hesab açmaq və ya bəzi tətbiqlərə qonaq profili ilə daxil olmaq mümkündür. Bu baxımdan, qadağa tətbiq etməkdənsə, düzgün yönləndirmə və maarifləndirmənin daha faydalı olacağını düşünürəm".



**45 yaşlı Mirtalıb Ağayev** ümumiyyətlə cəmiyyət üçün zərərli hesab edilən sosial şəbəkələrin ölkədə məh-



dudlaşdırılması təklifi ilə çıxış edərək bildirir: "Fikrimcə, xüsusilə "TikTok" kimi zərərli təsir yaradan sosial şəbəkələrin Azərbaycanda bloklanmasının tərəfdarıyam. Səhv etmirəmsə, Albaniyada bu platforma uşaqlar arasında zorakılığı təşviq edən məzmunların yayılması səbəbilə məhdudlaşdırılıb. Mən öz uşaqlarımın timsalında Azərbaycan gəncləri üçün narahatam. Düzdür, ölkə başçısının həyata keçirdiyi uğurlu gənclər siyasətinin nəticəsi olaraq bu gün bir çox Azərbaycan gənci ölkə daxilində və beynəlxalq miqyasda böyük nailiyyətlər əldə edir. Lakin buna baxmayaraq, sosial şəbəkələrin zərərli təsirlərinə məruz qalan gənclərimizin sayının artması da narahatlıq doğurur".

Apardığımız sorğu göstərdi ki, paytaxt sakinlərinin böyük əksəriyyəti 16 yaşdan aşağı uşaqların sosial şəbəkələrdə fərdi hesab açmasına məhdudiyyətin tətbiqini cəmiyyətin təhlükəsizliyi və gənc nəslin sağlam formalaşması baxımından zəruri addım kimi qiymətləndirir. Eyni zamanda, bəzi yeniyetmələr və gənclər qadağa mexanizminin problemin həll yolu olmadığını, əsas çətinliyin maarifləndirmə və valideyn nəzarətinin zəifliyindən qaynaqlandığını bildirdilər. Bir-birindən fərqlənən mövqelər onu göstərdi ki, mövzu cəmiyyət daxilində aktual olaraq qalır. Yəni bu məsələ həm hüquqi, həm də sosial mexanizmlər üzrə balanslaşdırılmış yanaşma tələb edir.

***T.SADIQOV,***
***N.BEYDİYEVA***
***Fotolar: C.QAÇAYEV***
***XQ***

*Baxış bucağı*

**Media orqanları və jurnalistlər işlərini cəmiyyətdə yaşanan hadisə və proseslərə reaksiya verməklə qurmalı, əsl həqiqətləri müəyyənləşdirməyə çalışmalıdırlar. Bu fəaliyyət insanların yanlış yönləndirilməsinin qarşısının alınması baxımından həlledicidir. Amma məsələ yalnız bununla bitmir. Daha ciddi mətləblər var ki, yazımızda onların üzərində dayanacağıq.**

# Media və "xaos" yaradıcılığı

## *Yaxud həqiqət axtarışında "bulanan sular"*



***Əvəz RÜSTƏMOV,***
***Azərbaycan Mətbuat Şurasının icraçı katibi***

Təəssüf ki, bəzən peşəkar media fəaliyyətindən uzaq mənzərənin şahidi oluruq. Fikrimizi əsaslandırmaq üçün son günlərin hadisələrindən birinə diqqət yetirərək deyək ki, ölüm faktı media üçün ictimai əhəmiyyət daşıya bilər. İctimai əhəmiyyətlilik ölümün həkim səhlənkarlığı səbəbindən baş verdiyi, yaxud buna dair şübhələrin olduğu durumlarda daha da artır. Çünki söhbət insan sağlamlığının qorunmasından gedir. Ona görə də medianın məsələyə həssas yanaşması mütləqdir. Yəni jurnalist həqiqət axtarışındadırsa, dəqiq və soyuqqanlı olmalıdır. Necə? İlk növbədə, düşünülməlidir ki, insan ölümü, o cümlədən geniş müzakirə mövzusuna çevrilmiş xəstəxanada insan ölümü faktı hüquqi qiymət verilməsi məcburi xarakter daşıyan olaydır. Axı biz hüquqi dövlətdə yaşayırıq. O da düşünülməlidir ki, olay sosial şəbəkə müstəvisində müzakirəyə çıxarılırsa, hüquq-mühafizə orqanlarının da ona həssas yanaşması kimi durum var. Həssas yanaşma hadisəyə dair hüquqi zəmində reallaşdırılan zəruri prosedur fəaliyyət barədə cəmiyyətin operativ məlumatlandırılmasını tələb edir.

Məsələn, deyək ki, xəstəxanada ölüm faktı üzrə araşdırma aparılır və Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başladılır. Həmin cinayət işi üzrə materiallar müvafiq qaydada məhkəməyə göndərilir və cəmiyyətə verilmiş məlumat da bu barə-




də olur. Deməli, hüquq-mühafizə orqanı məlumatı ilə ictimai əhəmiyyət daşıyan olaya adekvat reaksiya verdiyini göstərir. Bəs media?

Təəssüf doğuran məqam odur ki, media ancaq həmin prosedur fəaliyyətə dair məlumatla məhdudlaşır. Daha doğrusu, prosedur fəaliyyətin həqiqəti tapmağın yalnız bir yolunun olduğunu unudaraq davranır. Yəni media, ilk növbədə, səs-küylü sərlövhə axtarışına çıxır. Əksər hallarda tapılan sərlövhə mahiyyəti, informasiya mənbəyi olan müvafiq orqanın məlumatındakı məzmunu əks etdirmir. Amma niyəsə jurnalist və ya media vasitəsi zənn edir ki, tutduğu yol baş vermiş olayın doğurduğu ictimai reaksiyaya adekvatdır. Halbuki, yumşaq desək, ortada ciddi tələskənlik var. Hərçənd, tələskənlik heç də adi məsələ sayıla bilməz. Çünki durum həssasdır və hansısa yanlışlıq daha böyük fəsadlar doğurmaq potensialındadır. Bəs nə etməli?

Ümumi şəkildə deyək ki, təqsirsizlik prezumpsiyası tam ciddiyyəti ilə qorunmalıdır. Unudulmamalıdır ki, heç kəs məhkəmə hökmü olmadan cinayətkar adlandırıla, yaxud cinayətkar qismində təqdim oluna bilməz. Amma səs-küylü sərlövhələr məhz buna fokuslanır. Beləliklə, sosial şəbəkələrdə sərt reaksiyalarla müzakirə edilən hadisə və ya proses yenidən həmin sosial şəbəkələrin müzakirəsinə qaytarılır. Media özünü vəziyyəti daha da mürəkkəbləşdirən ampluasında çıxış etdiyinin fərqinə varmır. Belə durumlarda, obrazlı desək, əsl həqiqət səs-küy və dedi-qoduların arxasınca sürünür. Nəticə etibarilə, media sosial şəbəkə profillərindən heç nə ilə fərqlənmir. Söhbət konkret həkim səhlənkarlığından gedirsə, cəmiyyətdə rəy formalaşır ki, bütün həkimlər səhlənkardırlar və xəstəxanaya düşən hər kəs həyatını itirməlidir. Beləmi olmalıdır? Əlbəttə ki, yox!

Üstəlik, təkcə inamsızlıq yaranmır. Axı həkim də insandır, o da cəmiyyət üzvüdür, onun da yaşantıları, sağlamlıq qoruyucusu adını qazanmaq üçün keçdiyi bəlli yol var. Hər halda, insanın illərini və zəhmətini verdiyi peşəsindən iyrənməsi kimi acınacaqlı durum ola bilməz. Bu gün media, faktiki olaraq, toplumu qəzəbləndirməklə, həmin toplumun sağlamlığını qorumağa mükəlləf həkimi iyrəndirir. Çünki əsl həqiqətlər meydana çıxmadan həkimə cinayətkar damğası vurulur. Özü də yalnız sərlövhələrlə deyil, eyni zamanda, foto təqdimatlarla. Bəs yekunda kim uduzur? Əlbəttə ki, bütövlükdə cəmiyyət və medianın özü.

Media ona görə uduzur ki, tələsərək böyük ölçüdə həqiqəti çatdırmır, sosial şəbəkələrin əsirinə çevrilir. Təsəvvür edək ki, məhkəmə qərarı səhlənkarlıq səbəbindən ölümə səbəb olmaqda təqsirli bilinən həkimin günahsızlığını sübuta yetirir. Deməli, həmin həkim barədə "hökm vermiş", onu "təqsirli bilmiş" media cəmiyyətin inamını itirmiş vəziyyətə düşür. Cəmiyyət isə ona görə uduzur ki, media kimi prinsipial həqiqət və ədalət carçısına inanmağı bir kənara qoyur. Gerisini düşünək. Amma təkcə düşünməyək...

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 04 (30973) 9 yanvar 2026-cı il, cümə

# İDMAN

## Azərbaycan güləş çempionatının açılışı



**Güləş üzrə böyüklər arasında Azərbaycan çempionatının açılış mərasimi keçirilib.**

Bakı İdman Sarayında təşkil olunan tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə bildirib ki, “Los-Anceles-2028” Yay Olimpiya Oyunlarına 3 ildən az vaxt qalıb. Artıq bu ildən lisenziya yarışları başlayır. Bütün idmançılara uğurlar arzulayıram.

Gənclər və idman naziri Fərid Qayıbov güləşin Azərbaycanın ənənəvi idman növü olduğunu söyləyərək, bu çempionatdan da böyük idmançılar çıxacağına əminlik ifadə edib.

Azərbaycan Güləş Federasiyasının (AGF) vitse-prezidenti Namiq Əliyev bu yarışın da uğurlu olacağına inamını ifadə edib. O, güləş həvəskarlarının maraqlı mübarizəyə şahidlik etdiklərini vurğulayıb.

Yunan-Roma və sərbəst güləş üzrə ölkə çempionatına yanvarın 11-də yekun vurulacaq.

Xatırladaq ki, ilk 3 yerin mükafatçıları milli komandaların tərkibinə daxil ediləcəklər.

## “Xilasedici” mübarizəni dayandırdı



**Kişi voleybolçulardan ibarət “Xilasedici” komandası Çelenc Kubokunun 1/16 final mərhələsinin cavab oyununu keçirib. Azərbaycan təmsilçisi Belçikada yerli “Lindemans” kollektivinin qonağı olub.**

Qarşılaşma meydan sahiblərinin 3:1 hesablı qələbəsi ilə başa çatıb və “Xilasedici” Çelenc Kubokunda mübarizəni dayandırıb.

Xatırladaq ki, Bakıda baş tutan ilk görüşdə rəqib 3:0 hesablı qələbə qazanıb.

## Futbol DÇ–2026-da yenilik




**Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) bu il keçiriləcək dünya çempionatında ofsayd qərarlarının daha dəqiq verilməsi üçün süni intellektdən istifadə edəcəyini açıqlayıb.**

“The Athletic”in yaydığı məlumata görə, turnirdə iştirak edəcək bütün futbolçular üçün süni intellekt əsaslı 3D rəqəmsal modellər yaradılacaq. Bunun üçün oyunçular qısa müddətdə xüsusi skandan keçiriləcək və bədən ölçüləri dəqiq şəkildə qeydə alınacaq.

Yeni texnologiya sürətli epizodlarda və oyunçuların bir-birinin qarşısını kəsməsi nəticəsində görüntülərin aydın olmadığı hallarda ofsayd vəziyyətlərinin daha düzgün müəyyənləşdirilməsinə kömək edəcək. FIFA bu yeniliyin VAR tərəfindən verilən qərarların azarkeşlər və televiziya tamaşaçıları üçün daha aydın göstərilməsini təmin edəcəyini bildirib. Ofsayd qərarları yayım zamanı 3D görüntülərlə təqdim olunacaq.

Xatırladaq ki, ABŞ, Kanada və Meksikanın ev sahibliyi edəcəyi DÇ–2026 iyunun 11-dən iyulun 19-dək keçiriləcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Azərbaycanda beynəlxalq dağ xizəyi turniri

## *“Şahdağ” Turizm Mərkəzində yarışlar start götürdü*





**Dünən Azərbaycan Qış İdman Növləri Federasiyasının və “Şahdağ” Turizm Mərkəzinin birgə təşkilatçılığı ilə FIS təqviminə əsasən “Azerbaijan Open” beynəlxalq dağ xizəyi turniri start götürüb.**

Beynəlxalq turnirin açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov, Qış İdman Növləri Federasiyasının prezidenti Fuad Nağıyev iştirak ediblər.

Turnirə Azərbaycan, İsveçrə, Macarıstan, Sloveniya, Gürcüstan, Honkonq, Səudiyyə Ərəbistanı, Türkiyə, Nepal, Qazaxıstan və Özbəkistandan müxtəlif yaş kateqoriyasında olan 20 qadın idmançı qatılıb. Yarışda ölkəmizi Azərbaycanın dağ xizəkçisi Anastasiya Papatoma təmsil edir.

Turnirin ilk günündə idmançılar dağ xizəyinin Slalom növündə yarışıblar. Gürcüstan idmançısı Nino Thklauri 1-ci, isveçli Nikita Anner 2-ci, özbəkistanlı Kseniya Brejnaya isə 3-cü yerə sahib olub.

Turnir çərçivəsində Azərbaycan Qış İdman Növləri Federasiyası ilə Beynəlxalq Xizək və Snoubord Federasiyası arasında əməkdaşlığa və gələcək layihələrə, o cümlədən qış idmanının ölkə-



mizdə tanıdılması və infrastrukturun yaradılması, idman tədbirlərinin keçirilməsi istiqamətində görülən işlərə dair brifinq təşkil olunub, suallar cavablandırılıb.

Xatırladaq ki, turnir yanvarın 10-da başa çatacaq. Növbəti günlərdə idmançılar Slalom və Qiqant Slalom növlərində birincilik uğrunda mübarizə aparacaqlar.

Qeyd edək ki, ötən ilin may ayında Beynəlxalq Xizək və Snoubord Federasiyası (FIS) ilə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi arasında qış turizmi və qış idman növlərinin inkişafı, eləcə də Azərbaycanın qış idman növləri üzrə nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi etməsi məqsədilə 5 il müddətinə tərəfdaşlıq müqaviləsi imzalanıb. Müqavilə çərçivəsində qış turizmi infrastrukturunun təkmilləşdirilməsi, Azərbaycanın xarici turistlər üçün cəlbedici qış turizm destinasiyasına çevrilməsi və “Şahdağ” Turizm Mərkəzində beynəlxalq xizək yarışlarının təşkili üzrə birgə əməkdaşlıq nəzərdə tutulur.

Əməkdaşlığın əsas məqsədi Azərbaycanın qış idman növləri üzrə dünya səviyyəli yarışların keçirildiyi destinasiya kimi tanıdılması və ölkənin turizm brendinin beynəlxalq arenada genişmiqyaslı təqdimatının təmin edilməsidir. Müqaviləyə əsasən, Azərbaycan 5 il müddətinə FIS tərəfindən təşkil olunan qlobal yarışlarda “Qlobal destinasiya tərəfdaşı” qismində çıxış edəcək.

Tərəfdaşlıq müqaviləsinə əsasən bu il martın 14-15-də ilk dəfə olaraq Azərbaycan Moqul üzrə Dünya Kubokunun final mərhələsinə ev sahibliyi edəcək.

*Q.ƏLİYEV*
*XQ*

# Kainatın “yetim” planetləri

**Kosmosda ulduzlara bağlı olmayan, sərbəst hərəkət edən kürə formalı obyektlər mövcuddur. Bu obyektlər “yetim planetlər” adlanır. Onların demək olar ki, işıq saçmadığı və çox az işıq əks etdirdiyi üçün müşahidə edilməsi çətindir. Buna baxmayaraq, beynəlxalq astronomlar qrupu nadir bir təsadüf nəticəsində belə bir planeti aşkar etməklə yanaşı, onun kütləsini də yüksək dəqiqliklə ölçməyə nail olub.**



Adətən planetlər bir ulduzun ətrafında dövr edir. Lakin alimlərin fikrincə, bəzi planetlər müxtəlif kosmik hadisələr nəticəsində öz sistemlərindən qoparaq təkbaşına kosmosda hərəkət edə bilir. Digər ehtimala görə isə bu planetlər ulduzlararası qaz və tozdan birbaşa formalaşır. Bu səbəbdən onlara “yetim planetlər” deyilir.

“Yetim planetləri” adi teleskoplarla görmək mümkün deyil. Onlar ulduzlar kimi işıq saçmır və ətrafdan gələn işığı da çox zəif əks etdirir. Buna görə astronomlar onları tapmaq üçün qravitasiya mikrolinzalanması adlı üsuldan istifadə edirlər. Bu üsula görə, planet uzaq bir ulduzun qarşısından keçərkən onun cazibə qüvvəsi ulduzun işığını gücləndirir və ulduz qısa müddətə daha parlaq görünür.

Bu metod planetin mövcudluğunu göstərsə də, onun kütləsini və məsafəsini dəqiq müəyyənləşdirmək həmişə mümkün olmur. Bu səbəbdən indiyədək aşkar olunan bir çox “yetim planet” namizədi tam təsdiqlənməyib.

2024-cü ildə Koreya və Polşa teleskopları bir ulduzun qısamüddətli parlaqlıq artımını qeydə alıb. Eyni vaxtda “Qaya” kosmik rəsədxanası da həmin hadisəni müşahidə edib. Yerüstü və kosmik müşahidələrin birləşdirilməsi alimlərə planetin məsafəsini və kütləsini dəqiq hesablamağa imkan verib.

Məlum olub ki, bu "yetim planet" Yerdən təxminən 10 min işıq ili məsafədədir. Onun kütləsi Yupiterin kütləsinin təxminən beşdə biri, yəni Saturnun kütləsinə yaxındır. Bu, kütləsi yüksək dəqiqliklə ölçülmüş ilk "yetim planet" hesab olunur.

Bu kəşf göstərir ki, "yetim planetlər" həqiqətən mövcuddur və əvvəl düşünüləndən daha çox ola bilər. Alimlər hesab edir ki, indiyədək tapılmayan bir çox belə planet texniki imkanların məhdudluğu səbəbindən aşkarlanmayıb.

Mütəxəssislər gələcəkdə yeni teleskopların bu cür planetlərin daha çoxunun tapılmasına kömək edəcəyini bildirirlər. NASA-nın 2027-ci ildə buraxmağı planlaşdırdığı “Nensi Qreys Roman” kosmik teleskopunun "yetim planetlər"in öyrənilməsində mühüm rol oynayacağı gözlənilir.

*XQ*

# HAVA

## Paytaxtda duman, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, arabir güclənəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 3-6, gündüz 10-15 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 750 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-90, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında səhər dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə havanın fasilələrlə yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və axşam ayrı-ayrı yerlərdə yağıntıların intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi gündüz arabir güclənəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 11-16 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 7-12 dərəcə isti olacaq.

*XQ*

**“Azərbaycan Karlar Cəmiyyəti” İctimai Birliyi**

“Azərbaycan Karlar Cəmiyyəti” İctimai Birliyinin Mərkəzi İdarə Heyətinin 01 №li 8 yanvar tarixli qərarına əsasən İctimai Birliyin Mərkəzi İdarə Heyətinin prezidentinin, vitse-prezidentinin və digər üzvlərinin seçkisinin keçirilməsi üçün 10 fevral 2026-cı il saat 10.00-da ümumi yığıncağın iclası təyin edilmişdir.

**Ünvan:** Bakı şəhəri, Nizami rayonu, Mehdi Abbasov küçəsi 90.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu və əməkdaşları ali məktəbin Mühit dizaynı kafedrasının müdiri, professor Yeganə Hacıyevaya

**QARDAŞININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu və əməkdaşları ali məktəbin Texnologiyaların Transferi Mərkəzinin müdiri, professor Abbas Quvalova

**BACISININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

✓ *“Şaban fermer” MMC-yə məxsus dairəvi möhür və ştamp itdiyi üçün etibarsız sayılır (VÖEN-3700294351).*

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2763
SİFARİŞ 14
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00